**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Jurnal 1970-ci ildən nəşr olunur.**

**2016, № 4 (217)**

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

**(elmi-metodik jurnal)**

**4**

**2016**

# РЕДАКСИЙА ЩЕЙЯТИ

## Баш редактор: проф.Й.Ш.Кяримов

**Айдын Ящмядов** — *Азярбайжан Республикасы Тящсил Назирлийинин məktəbəqədər və цмуми тящсил шюбясинин мцдири;*

**Нярминя Алнаьыйева** — *Азярбайжан Республикасы Тящсил Назирлийинин мяктябягядяр тящсил секторунун мцдири;*

**Фаиг Шащбазлы** — *Азярбайжан Республикасы Тящсил Problemləri İnstitutunun direktor müavini;*

**Видади Хялилов** — *Азярбайжан Республикасы Тящсил Проблемляри Институтунун баш elmi məsləhətçisi, педагоъи елмляр доктору, профессор;*

**Рамиз Ялийев** — *Азярбайжан Dövlət Pedaqoji Universitetinin цмуми психолоэийа kafedrasının мцдири, психолоэийа елмляри доктору, профессор ;*

**Асяф Заманов** — *Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru, физика-рийазиййат елмляри доктору, профессор ;*

**Нурлана Ялийева** — *Azərbaycan Slavyan Universitetinin rektoru, филолоэийа елмляри доктору, профессор ;*

**Вагиф Ямирасланов** — *Бакы Сосиал-Педагоъи Коллежинин директору, тарих цзря фялсяфя доктору;*

**Миржяфяр Щясянов** — *Азярбайжан Мцяллимляр Институтунун ибтидаи тящсилин методикасы кафедрасынын мцдири, педагоэика цзря фялсяфя доктору, профессор ;*

**Азадхан Адыэюзялов** — *Азярбайжан Дювлят Педагоъи Университетинин мцяллими, педагоъи елмляр доктору, профессоr ;*

**Щягигят Щажыйева** — *Азярбайжан Дювлят Педагоъи Университетинин мцяллими, биолоэийа цзря фялсяфя доктору, досент;*

**Земфира Ясядова** — *Бакы шящяри, Низами району, 175 нюмряли кюрпяляр еви-ушаг баьчасынын мцдири;*

**Есмира Аьайева** — *И. Яфяндийев адына Елитар Эимназийанын ибтидаи синифляр цзря директор мцавини;*

**Zemfira Ağayeva** — *Бакы шящяри, Nərimanov rayonu, 69 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi;*

**Бибиханым Ибадова** (мясул катиб) — *Азярбайжан Республикасы Тящсил Проблемляри Институтунун ибтидаи тящсилin курикулуму шюбясинин мцдири, педагоэика цзря фялсяфя доктору.*



Йыьылмаьа верилмиш 25.10.2014. Çапа имзаланмыш 16.12.2013.
Каьыз форматы 60х84 1/8. Şярти чап вяряги 12.0.
Şифариш № 28. Тираъ 1000. Qиймяти 2 манат 50 гяпик.
Редаксийанын цнваны: АЗ 1010. Бакы, Зярифя Ялийева кцчяси, 96.
Тел. моб. (051) 623-01-15.

«РС Полиграф» ММЖ-нин мятбяясиндя щазыр диапозитивлярдян чап олунмушдур.
Üнван: Бакы, А.Мяммядов küçəsi, 113.

# MÜNDƏRİCAT


***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***

**Kərimov Y.** Dərsliklər müasir tələblərə cavab vermir. ....................................................................................
**Cəbrayılov İ.** Şəxsiyyət anlayışının mahiyyəti...........................................................................................................
**Qənbərova Y.** Müəllimin şagirdlərə münasibətində mənəvi xüsusiyyətlərin rolu.............................................
**Qurbanov V., Abbasova S.** Nitq mədəniyyəti dilçiliyin sahəsi, natiqlik isə sənətdir. ....................................
**Kazımova Ş.** Azərbaycanda ibtidai təhsil nəzəriyyəsinin tarixinə qısa baxış.............................................................
**Əliyeva S.** Müəllim olacaq tələbələrin etnopedaqoji hazırlığı..........................................................................................
**Kərimov V.** İbtidai sinif müəllimi olacaq tələbələrin hazırlanmasının təlimin keyfiyyətinə təsiri..........................

***MƏKTƏBƏQƏDƏR TƏHSİL***

**Əhmədova A.** Məktəbəqədər təhsil müəssisələrini idarə edən mütəxəssislərin hazırlanmalarının modelləşdirilməsi.......

***FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ***

**Əşrəfov R.** Ümumiləşdirici dərslərin təşkilində fəal/interaktiv təlim metodlarından istifadə...............................
**Tağıyeva G.** Həyat bilgisindən dərs nümunəsi...................................................................................................................

***TƏRBİYƏ MƏSƏLƏLƏRİ***

**Sadıqova S.** Təlim prosesində uşaqların hərbi-vətənpərvərlik tərbiyəsinin imkan və yolları.............................
**Sofiyeva G.** İbtidai sinif şagirdlərinə vətənpərvərlik tərbiyəsinin aşılanması təcrübəsindən...................................

***PSİXOLOGİYA VƏ İNKLÜZİV TƏHSİL***

**Bayramov Ə.** Ünsiyyət, insanların qarşılıqlı təsiri və qarşılıqlı münasibətləri ................................................................
**Abdullayeva A.** Sağlamlıq imkanları məhdud olan uşaqların təhsilindəki problemlər və onların aradan qaldırılması yolları..........................................................................................................................................................

***YENİ NƏŞRLƏR***

**Kərimov Y.** Moskvada nəşr olunmuşdur. ...........................................................................................................................
**Əliyeva M. ........................**

# DƏRSLİKLƏR MÜASİR TƏLƏBLƏRƏ CAVAB VERMİR.

**prof .Yəhya Kərimov**



**açar sözlər:** müəllim, şagird, strategiya, proqram, kurikulum, ibtidai siniflər, Azərbaycan dili dərslikləri, dərsliklərin məzmunu, çalışma, tapşırıq, dərsliklərdəki nöqsanlar, yersiz təkrarlar, zəif mətnlər, yüklənmələr, qrammatik nöqsanlar, üslub səhvləri, orfoqrafik səhvlər, texniki nöqsanlar, bədii tərtibatda nöqsanlar, təkmilləşmə;

**ключевые слова:** преподаватель, ученик, стратегия, программа, учебный план (куррикулум), начальные классы, учебники азербайджанского языка, содержание учебников, упражнение, задача, недостатки в учебниках, неуместные повторы, слабые тексты, загрузки, грамматические ошибки, стилистические ошибки, орфографические ошибки, технические недостатки, художественные недостатки дизайна, совершенство-вание;

**key words:** teacher, student, strategy, program, curriculum, primary school, textbooks of the Azerbaijani language, the content of textbooks, exercise, a task, shortcomings in textbooks, inappropriate replays, weak lyrics, downloading, grammatical errors, stylistic errors, spelling errors, technical defects, artistic design flaws, perfection.

Dərslik, ədəbi əsərlərdən, elmi tədqiqata həsr olunmuş kitablardan fərqli olaraq, daha çox öyrədici xarakter daşıyır, ona görə də xüsusi dəqiqlik tələb edir.

Son illərdə *təhsil işçiləri, ibtidai sinif müəllimləri, valideynlər və şagirdlərlə* görüşlər zamanı onlar *dərsliklərin ağır olmasından şikayətlənmişlər*. Mən, əsasən, ixtisasıma və fəaliyyətimə uyğun olan Azərbaycan dili dərslikləri ilə əlaqədar fikir mübadiləsinə qoşulmuşam. Bu sahədə səlahiyyətim olmadığından hər cür köməkdən imtina etmişəm. Bununla belə, uzun illər (1963-cü ildən 2008-ci ilədək) "Əlifba", I-III siniflər üçün "Oxu", "Azərbaycan dili" dərsliklərinin müəllifi olduğumdan müasir Azərbaycan dili dərsliklərinə münasibət bildirmək qərarına gəlmişəm. Bunun üçün 2 aydan çox vaxt sərf etmişəm. Bu, mənim vətəndaşlıq borcumdur. Gələcəkdə müəlliflərin dərsliklərini təkmilləşdirmələrinə istiqamət vermək məqsədilə mövcud dərsliklərdəki nöqsanları çox böyük məsuliyyət hissi və dəqiqliklə qələmə almalı olmuşam. Münaqişəyə yol verməmək üçün məqalədə səhvlərin buraxıldığı səhifələr qeyd olunub.

Belə düşünürəm ki, bu, eyni zamanda Azərbaycan Təhsil Nazirliyinin dərsliklərlə əlaqədar səyinə hörmətsizliyin qarşısını almağa, televiziya verilişlərindəki yerli-yersiz tənqidi fikirlərə son qoymağa imkan verəcəkdir.

**Dərsliklərdə hansı nöqsanlar özünü qabarıq göstərir ?**

***1. Hər şeydən əvvəl, dərsliklər tərtib edilərkən Azərbaycan dili üzrə proqramda (kurikulumda) nəzərdə tutulmuş məzmun standartları, siniflər arasında düzgün bölüşdürülməmişdir.*** Dil üzrə qrammatik mövzular, əsasən, I-III siniflərdə əhatə edilmiş, demək olar ki, IV sinfə saxlanmamışdır. Bu isə, təbii olaraq I-III sinif dərsliklərinin yüklənməsi ilə nəticələnmişdir. Məntiqə görə, təlim yükü tədricən çətinləşdirilməli, ağır mövzular və materiallar IV sinfə saxlanmalı idi. Doğrudur, IV sinfin Azərbaycan dili dərsliyində 328 çalışmaya yer verilmişdir, lakin bu, problemin elmi həlli deyil. Həmin çalışmalar, əsasən, bədii mətnlərin təhlilinə və nitq inkişafına xidmət edir. Dərsliyin 28 səhifəsində (13-cü, 16-cı, 21-ci, 27-ci, 44-cü, 50-ci, 58-ci, 62-ci, 78-ci,

82-ci, 94-cü, 95-ci, 98-ci, 102-ci, 105-ci, 111-ci, 113-cü,119-cu, 137-ci, 139-cu, 141-ci, 147-ci, 163-cü, 180-ci, 190-cı, 202-ci, 206-cı, 210-cu səhifələrdə) dilimizin qrammatikasına 12 dəfə əsaslı şəkildə, 33 dəfə qismən – cəmi 45 dəfə istinad olunmuşdur. Onu da qeyd edək ki, dərsliklərdə hər dərs saatı üçün nəzərdə tutulmuş çalışmaların sayı çoxdur. Bəzən dərslik çox zəif çalışma və tapşırıqlar, lazımsız təkrarlarla yüklənmişdir. Dərsliklərdə bəzən bir dərs üçün 10-dan artıq tapşırıq verilib. II sinfin dərsliyində 8 yerdə (10-cu,17-ci, 22-ci, 41-ci, 43-cü, 46-cı, 50-ci, 56-cı, 66-cı səhifələrdə) hər dərs üçün 8-11 çalışma və tapşırıq nəzərdə tutulmuşdur. Görəsən, şagirdlər 45 dəqiqə ərzində bunları müstəqil yerinə yetirə bilərlərmi?

**2.** ***Dərsliklər üçün bir çox material düzgün seçılməyib.*** Materialların bəziləri zəif və səthi olmaqla adi əhvalatlara, yüngül, lazımsız məsələlərə həsr edilmişdir. I sinfin dərsliyində “Bayramlar ayı”, “Yardım”, Modelyer Jalə xala”, “Külək nədir?”, “Balığın səsi”, “Səbiş necə böyüdü?”, “Möcüzə”, “Pis rəsm”, “Xəstə” mətnləri; II sinfin dərsliyində “Rənglərin anası”, “Üç bacı”, “Hasardakı quşlar”, “Dostum Lətif”, “Məktəbli qız”, “Açıqca”, “Ağa və nökər”, “Mehriban və səma”, “Turalın gündəliyi”, “Vüsalın gündəliyi”, “Finalda”, “Qurbağalar”, “Qırxayaq”, “Qarışqalar niyə azmır?”, “Yağış”, “Babamın nağılı”, “Heyvanlar necə qorunurlar?”, “Qazlar”, “Quyruq nəyə gərəkdir?”, “Dovşanın adı”, “Odunçunun səhvi”, “ Yağış”, “Xaqani”, “Körpə nəğmənin nağılı” mətnləri; III sinfin dərsliyində “Peşələr necə yaranır?”, “Təkərin tarixi”, “Onluq say sistemi”, “Makedoniyalı İsgəndər”, “Buta”, “Qədim kitablar”; IV sinfin dərsliyində “Qədim yunan sözləri”, “Bir boşqab sıyıq”, “Hədiyyə”, “Niyə məhz sual işarəsi”, “Yarasa”, “İlanlar niyə rəqs edir?”, “Möcüzələr niyə yox olur?”, “Qazların uçuşu”, “Meşələrin dostluğu”, “Papaq”, “Sağsağan nə axtarırdı?”, “Qayğıkeş”, “Çinar ağacı. Xan çinar”, “Qələbənin sirri” və s. belə mətnlərdir.

Dərsliklərdə ölkəmizin gözəlliyi, sərvətlərimiz, tolerantlıq, turizm, idman, Bakının beynəlxalq tədbirlərin müntəzəm keçirildiyi şəhər olması, Azərbaycanın dünyada tanınması problemləri lazımınca əhatə edilməyib. Milli qəhrəmanlarımız haqqında mətnlər azdır. Qəhrəman qadınlar tamamilə yaddan çıxıb.

**3.** ***Dərsliklərdə çoxlu üslub nöqsanlarına yol verilib.*** I sinfin dərsliyində 16 səhifədə (17-ci, 22-ci, 24-cü, 26-cı, 27-ci, 28-ci, 30-cu, 32-ci, 34-cü, 43-cü, 114-cü, 120-ci, 125-ci, 134-cü, 138-ci, 156-cı səhifələrdə); II sinfin dərsliyində 18 səhifədə (11-ci, 17-ci, 18-ci, 19-cu, 23-cü, 25-ci, 45-ci, 49-cu, 54-cü, 58-ci, 65-ci, 66-cı, 122-ci, 127-ci, 140-cı, 141-ci, 143-cü, 147-ci səhifələrdə); III sinfin dərsliyində 7 səhifədə (81-ci, 87-ci,103-cü, 109-cu, 114-cü, 115-ci, 137-ci), IV sinfin dərsliyində 6 səhifədə (41-ci, 42-ci, 60-cı, 71-ci, 99-cu, 103-cü) ciddi üslub səhvlərinə rast gəlmək mümkündür. Xarakterik nöqsanların bir neçəsini nəzərdən keçirək:

• I sinfin dərsliyində şagirdlərdə ilkin savad təlimi vərdişlərinin yaranmasına xidmət edən sxemlər verilir. Bu sxemlər üzrə iş apararkən uşaqlar hərfləri birləşdirib, hecalar düzəldirlər.




Yaxşı olardı ki, hecaları birləşdirib, sözlərin alınmasına aid də sxemlər verilə idi.

• 78-ci səhifədə “Hecalari birləşdir.” cümləsi verilib. “Uyğun hecaları birləşdir.” olmalıdır.

• Dərsliyin 113-cü səhifəsində “... biri də nağıl *deyənə*” ifadəsi əvəzinə “.... biri də nağıl *yeyənə*” verilib.

• II sinfin dərsliyinin 8-ci səhifəsindəki "Müəllim Günü hansı gün qeyd olunur?" cümləsi "Müəllim Günü nə vaxt qeyd olunur?" şəklində verilməlidir.

•17-ci , 42-ci, 127-ci səhifələrdə "....hadisələrin düzgün ardıcıllığını tap və oxu." cümləsi gedib. Bu cümlədə "düzgün" sözü artıqdır. Məlumdur ki, ardıcıldırsa, düzgünlük var.

• 19-cu səhifədə belə cümlə verilib: "Aygünün anası bilirsən *nə qoğal* bişirir!" – "...*necə qoğal* bişirir!" olmalıdır.

• 29-cu səhifədə belə bir cümlə verilib: "Evləri...Natavanın qonşuluğunda idi. Olmalıdır: "Evləri Natavangilin qonşuluğunda idi."

• 49-cu səhifədə atalar sözü səhv gedib: "İstəyirsən bel-kürək, al əlinə bal-çörək." əvəzinə, "İstəyirsən bal-çörək, al əlinə bel-kürək." olmalıdır.

• 63-cü səhifədəki "...uşaqlar özlərini necə *aparıb*?" cümləsi kəmiyyətə görə belə uzlaşmalıdır: "...uşaqlar özlərini necə aparıblar?"

• 65-ci səhifədə əlamətlə əlaqədar sual verilir, lakin əlamət bildirən sözlər 82-ci səhifədə tədris olunur.

• 87-ci səhifədəki "Dəvəquşu dünyada ən iri quşdur." cümləsi "Dəvəquşu dünyada ən böyük quşdur." şəklində olmalıdır. *İri, xırda* sözləri sayılması mümkün olan əşyalara aiddir: iri alma, xırda alma, iri buğda, xırda buğda və s. Un, toz sayılmır.

"*Kimsə* sənə bir iş tapşırsa ..." "*Kim* sənə bir iş tapşırsa..." olmalıdır.

140-cı səhifədə bir layla verilmişdir:

Laylay dedim, yat, bala,
Yuxuna *şəkər* qat, bala.

Layla belə olmalıdır:

Laylay dedim, yat, bala,
Yuxuna *bal* qat, bala.

*Bal* əvəzinə verilmiş *şəkər* sözü həm də qafiyəni pozur.

• Dərsliyin 20-ci səhifəsində eyni söz cümlədə iki dəfə verilir: "...sözü sətirdən-sətrə düzgün keçirmək üçün *sözün* (*Onun* olmalıdır.) hecalara ayrılma qaydasını bilmək vacibdir."

• 22-ci səhifədə yazılıb: "...hansı oxşar və fərqli cəhətlər var?" Əgər cəhətlərdən biri tapılırsa, digərinə ehtiyac yoxdur.

• 23-cü, 24-cü, 25-ci səhifələrdə "Nöqtələrin *yerinə* hansı sözlər olmalıdır?" cümləsindəki *yerinə* əvəzinə *yerində* olmalıdır. Bu ifadə digər dərsliklər üçün də xarakterikdir.

III sinfin dərsliyində uşaqlar oxuyurlar: "*Bir çox bitkilər* var ki... (*Elə bitkilər* var ki... olmalıdır.) "*...kökü yeməli* bitki" "*kökü yeyilməli* bitki" olmalıdır.

• "Kimin gözlərini yumacağını *təyin* etsinlər." cümləsi "Kimin gözlərini yumacağını *müəyyən* etsinlər." şəklində olmalıdır..

• "Yaşıl çəməndə ətirli, sarı *güllər açmışdı.*" "Yaşıl çəməndə ətirli, sarı *çiçəklər açılmışdı.*" olmalıdır.

• "Dil-üslub redaktoru" ifadəsində *dil-üslub* sözləri artıqdır.

• 13-cü səhifədə "Hekayəni *davam etdir və bitir.*"cümləsi "Hekayəni *tamamla.*" şəklində olmalıdır.

Həmin dərsliyin 15-ci səhifəsindəki tapşırıqda deyilir: "İti sözü hansı sözün *əlamətini* bildirdikdə ...". Şagirdlər *ismin əlaməti* anlayışı ilə 82-ci səhifədə tanış olacaqlar.

• “Alt çənəsi *laxladı.*” əvəzinə “Alt çənəsi *əsdi.*” olmalıdır.

• “... *göy* daha bərk çaxdı.” cümləsində *göy* əvəzinə *ildırım* olmalıdır.

• 87-ci səhifədə “Bütün meşələrdə *ağacdələnin səsini* eşitmək olar.” cümləsində “*...ağacdələnin tıqqıltısını...*” olmalıdır.

• 106-cı səhifədə təbiətə aid hekayənin axırındakı “Balalarıma qarşı dərin sevgi və məhəbbətlə” ifadəsində *qarşı* sözü artıqdır. Həm də bu söz *əleyhinə* mənasını daşıyır.

•114-cü səhifədə belə ifadə verilib: “ç) sarı-qırmızı rəngli kökü *yeməli* (*yeyilməli* olmalıdır.) bitki”

• 47-ci səhifədəki “... öz işində *mahir usta* olsun.” fikri “*...öz işinin mahir ustası* olsun.” şəklində verilsə, daha düzgün olardı.

• 81-ci səhifədə cümlədə söz sırası pozulub : “Bu sözü *müxtəlif mənalarda* cümlələrdə işlət.” Cümlə belə olmalıdır: “Bu sözü *cümlələrdə müxtəlif mənalarda* işlət.”

• Uşaqlar 102-ci səhifədə oxuyurlar: “Uşaqlardan kiçiyi böyüyə qısılaraq dedi” (Uşaqlardan *kiçiyi böyüyünə* qısılaraq dedi” olmalıdır.).

• 125-ci səhifədə “*Qədimdə* oyuncaqlar çox sadə olub.” cümləsi “*Qədim zamanlarda ...*” şəklində verilsə, yaxşı olardı.

• 109-cu səhifədə “Mətndə göy rəngdə verilmiş sözü hansı sözlə əvəz etmək olar?” sualı verilir. Halbuki, mətndə göy rəngdə söz verilməyib.

• Uşaqlar 202-ci səhifədə oxuyurlar: “Feillərin düzgün formasını təyin etməklə cümlələri oxu. (“...müəyyən etməklə cümlələri oxu” olmalıdır.)

• “.... tapacaqdım ki? Odur ki, ...” Belə ardıcıllıq olmur.

• “ İndi day məni bağışla, gedim.” Cümlədə *day* əvəzinə *daha* işlənməlidir.

Dərsliklərdə *metod* əvəzinə *üsul* sözü işlənib. *Üsul* sözü *yol, qayda, tərz* mənasında işlənir. Biz heç vaxt “Azərbaycan dilinin tədrisi *üsulikası* fənni” ifadəsini işlətmirik.

IV sinfin dərsliyinin 12-ci səhifəsində “...saatın beş olduğunu *vurğulayır*” cümləsində *vurgulayır* sözü başqa sözlə əvəz edilməlidir.

• Dərsliyin 18-ci səhifəsində *hisslər* sözünün *hislər* kimi verilməsi mənanı tamamilə dəyişir.

• 55-ci səhifədə uşaq *dəlilər sözünün* əvəzinə nə üçün *dəllər* yazıldığını başa düşməyəcək. Bu sözün mənası və “i” səsinin düşmə səbəbi şagirdlərə izah olunmalıdır.

IV sinfin dərsliyinin 103-cü səhifəsində verilib: “...çoxlu *sayda* səs dalğaları buraxır.” Bu cümlədə *sayda* sözü artıqdır.

178-ci səhifədə “Xan çınar” şerində *xan çınarım* əvəzinə *xan çinarın* ifadəsi gedib.

• 184-cü səhifədə “Qənbərin *qorxmağına* səbəb nə idi?” sualı verilib. “... *qorxmasına* səbəb nə idi?” olmalıdır.

• Dərsliklərdə *kukla* əvəzinə *gəlincik* sözü işlənmişdir. *Gəlincik* yalnız *qıza* aid kukladır. Yaşlı qadın, kişi, oğlan, heyvan və quşlara həsr olunmuş fiqurlara *gəlincik* demək nə qədər düzgündür?

***4. Dərsliklərdə bəzi sözlərin leksik mənası dəyişib.*** Bütün dərsliklər üçün xarakterik olan səhv: s*aylı* sözü *nömrəli* kimi işlənməlidir. Mən deyirəm ki, institutun qarşısında *saysız* maşın gördüm. Bayıra çıxıb, baxan şəxs orada cəmi 5-6 maşının olduğunu görüb deyir: “Orada maşın çox deyil.” Mən maşınların çox olduğunu deyil, onların arasında nömrəsiz maşın gördüyümü nəzərdə tutmuşdum.

• II sinfin dərsliyinin 30-cu səhifəsində uşaqlar oxuyurlar. "Mən yazı *lövhəsində* yazılmış hərfləri pis görürdüm." *Lövhə* üzərində müxtəlif sxemlər, yazılar, şəkillər olan, karton və taxtadan hazırlanmış vəsaitdir. Ona görə də cümlədəki həmin söz *yazı taxtası* sözü ilə əvəz olunmalıdır.

• 58-ci səhifədə "... hərəkət bildirən sözləri *təyin et.*" cümləsi verilib. Cümlədəki *təyin et* ifadəsi *müəyyən et* ifadəsi ilə əvəz olunmalıdır. Dərsliklərdə belə səhvlər bir neçə dəfə təkrar olunub.

• Dərsliklərdəki tapşırıqlarda A), B), C) ardıcıllığı ilə verilmiş sözlər bəzən *bənd*, bəzən *sıra, cərgə, sətir* kimi işlənib.

***5. Dərsliklərdə mənası şagirdlərə çatmayacaq çətin sözlər işlənmişdir.***

• I sinfin dərsliyində 3-cü səhifədə *etiket,* 23-cü səhifədə *nan* (farsca *çörək*), 25-ci səhifədə *ənənə,* 26-cı səhifədə *ləl,* 31-ci səhifədə *liman,* 35-ci səhifədə *innab,* 39-cu səhifədə *tarım,* 45-ci səhifədə *dolab,* 55-ci səhifədə *təlaş,* 72-ci səhifədə *mağara,* 82-ci səhifədə *morj,* 83-cü səhifədə *modelyer, jonqlyor,* 110-cu səhifədə *burunduq,* 118-ci səhifədə *möcüzə,* 122-ci səhifədə *sincab;*

• II sinfin dərsliyində 8-ci səhifədə *fərman, əfi, mütləq,* 17-ci səhifədə *ecazkar,* 29-cu səhifədə *hana, çeşni,* 56-cı səhifədə *riyakar, təvazökar,* 80-ci səhifədə *buqələmun,* 99-cu səhifədə *yamsılamaq,* 117-ci səhifədə *xəbis,* 119-cu səhifədə *nektar,* 124-cü səhifədə *sürfə,* 134-cü səhifədə *xaqan, pişvazına çıxmaq,* 136-cı səhifədə *səf, əfi, xəbis,* 138-ci səhifədə *müdrik,* 144-cü səhifədə şrift, 149-cu səhifədə *dəbilqə,* 151-ci səhifədə *janr, müdrik,* 160-cı səhifədə *sadəlövh,* 194-cü səhifədə *şifrələnmiş,* 171-ci səhifədə *iltifat,* 196-cı səhifədə *əfi;*

• III sinfin dərsliyində 25-ci səhifədə *mimika, jest,* 49-cu səhifədə *təkəbbür,* 57-ci səhifədə *qanırmaq,* 87-ci səhifədə *rübənd,* 91-ci səhifədə *təxəyyül,* 152-ci səhifədə *çin,* 103-cü səhifədə *təkəbbür, qatran,*120-ci səhifədə *assistent,* 122-ci səhifədə *mömin,* 129-cu səhifədə *Dəbistan,* 130-cu səhifədə *əyal,* 138-ci səhifədə *konvensiya,* 171-ci səhifədə *iltifat,* 196-cı səhifədə *türbə, ovdan;*

• IV sinfin dərsliyində 19-cu səhifədə *klaviatura,* 45-ci səhifədə *parlament,* 46-cı səhifədə *əlbəsə,* 100-cü səhifədə *məcazi,*105-ci səhifə *elastik, refleks,* 110-cu səhifədə *hipnoz,* 136-cı səhifədə *parti,*160-cı səhifədə *kultivator,* 200-cü səhifədə *illüminator, teleskop,* 210-cu səhifədə *qalaktika, flora, fauna, Konfutsi,* 211-ci səhifədə *kateqoriya,* 213-cü səhifədə *Venetsiya,* 219-cu səhifədə *Kiçik Ayı bürcü,* 130-cu səhifədə *Kaa* sözləri və ifadələri verilmişdir. Müəlliflər, yəqin ki, şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək məqsədilə belə sözlər işlədiblər.

Şübhəsiz, nəinki kiçikyaşlı uşaqlar, yuxarı sinif şagirdləri, valideynlər, hətta bəzi müəllimlər də bu sözlərin çoxunun mənalarını bilmirlər.

***6. Dərsliklərdə bir çox hallarda cümlələr qarşılıq və səbəb-nəticə bildirən bağlayıcılarla (amma, lakin, çünki, həmçini, məsələn və s.) başlanıb.*** Dəqiqlik xatirinə hər bir sözün işləndiyi səhifələr qeyd edilir.

**A) *Amma* bağlayıcısı ilə:**

• I sinfin dərsliyində 10 səhifədə (110-cu, 111-ci, 116-cı, 119-cu, 138-ci, 143-cü, 144-cü, 151-ci, 152-ci, 188-ci səhifələrdə),

• II sinfin dərsliyində 21 səhifədə ( 21-ci, 33-cü, 40-cı,44-cü, 56-cı, 60-cı, 75-ci. 77-ci, 93-cü, 102-ci, 124-cü, 155-ci, 166-cı, 180-ci, 183-cü, 185-ci, 190-cı, 199-cu, 200-cü səhifələrdə),

• III sinfin dərsliyində 41 səhifədə (29-cu, 31-ci, 52-ci, 56-cı, 58-ci, 66-cı, 70-ci, 74-cü, 83-cü, 86-cı, 92-ci, 94-cü, 96-cı, 99-cu, 104-cü, 105-ci, 108-ci, 109-cu, 120-ci, 131-ci, 136-cı, 138-ci, 151-ci, 153-cü, 167-ci, 174-cü, 184-cü, 194-cü, 203-cü, 205-ci səhifələrdə

• IV sinfin dərsliyində 39 səhifədə (10-cu, 15-ci, 17-ci, 20-ci, 33-cü, 34-cü, 49-cu, 55-ci, 70-ci , 72-ci, 86-ci, 87-ci, 88-ci, 99-cu, 107-ci, 120-ci, 121-ci, 129-cu, 136-cı, 139-cu, 143-cü, 148-ci, 149-cu, 152-ci, 155-ci, 156-cı, 157-ci, 164-cü, 165-ci, 166-cı, 168-ci, 179-cü, 182-ci, 188-ci, 198-ci, 204-cü , 205-ci, 207-ci, 213-cü, 218-ci səhifələrdə ) 46 dəfə cümlə başlanıb.

**B) *Ancaq* bağlayıcısı ilə:**

• I sinfin dərsliyində 4 səhifədə (75-ci, 99-cu 137-cu, 138-ci səhifələrdə) 4 dəfə;

• II sinfin dərsliyində 12 səhifədə (33-cü, 36-cı, 48-ci, 53-cü, 60-cı, 72-ci, 73-cü, 125-ci, 142-ci, 157-ci, 164-cü, 196-cı səhifələrdə )14 dəfə;

• III sinfin dərsliyində 11 səhifədə (24-cü, 59-cu, 64-cü, 65-ci, 89-cu, 92-ci, 93-cü, 104-cü, 108-ci, 151-ci, 166-cı səhifələrdə) 11 dəfə;

• IV sinfin dərsliyində 17 səhifədə (24-cü, 33-cü, 55-ci, 67-ci, 72-ci, 75-ci, 85-ci, 88-ci, 111-ci, 123-cü, 131-ci, 136-cı, 152-ci, 173-cü, 175-ci, 203-cü səhifələrdə) 23 dəfə cümlə başlanıb.

**C) *Lakin* bağlayıcısı ilə:**

• I sinfin dərsliyində 1 səhifədə (89-cu səhifədə) ;

• II sinfin dərsliyində 9 səhifədə (20-ci, 25-ci, 50-ci, 71-ci, 87-ci, 110-cu, 119-cu, 157-ci, 183-cü səhifələrdə);

• III sinfin dərsliyində 15 səhifədə (67-ci, 71-ci, 95-ci, 118-ci, 120-ci, 125-ci, 132-ci, 144-cü, 148-ci, 151-ci, 166-cı, 186-cı, 197-ci, 199-cu, 200-cü səhifələrdə);

• IV sinfin dərsliyində 22 səhifədə (17-ci, 18-ci, 32-ci, 33-cü, 42-ci, 49-cu, 60-cı, 67-ci, 71-ci, 72-ci, 75-ci, 77-ci, 83-cü, 96-cı, 108-ci, 109-cu, 112-ci, 115-ci, 130-cu, 148-ci, 154-cü, 175-ci səhifələrdə ) 22 səhifədə cümlə başlanıb.

**Ç) *Çünki* bağlayıcısı ilə:**

• I sinfin dərsliyində 1 səhifədə (126-cı səhifədə);

• II sinfin dərsliyində 4 səhifədə (86-cı, 102-ci, 123-cü, 124-cü səhifələrdə);

• III sinfin dərsliyində 3 səhifədə (58-ci, 142-ci, 146- cı səhifələrdə);

• IV sinfin dərsliyində 9 səhifədə (17-ci, 69-cu, 72-ci, 103-cü, 112-ci, 149-cu, 157-ci, 165-ci, 179-cu səhifələrdə) cümlə başlanıb.

**D) *Məsələn* bağlayıcısı ilə:**

• II sinfin dərsliyində 17 səhifədə (20-ci, 41-ci, 46-cı, 56-cı, 62-ci, 81-ci, 88-ci, 93-cü, 103-cü, 109-cu, 121-ci, 133-cü, 136-cı, 137-ci, 143-cü, 147-ci, 176-cı səhifələrdə);

• III sinfin dərsliyində 12 səhifədə (38-ci, 66-cı, 68-ci, 95-ci, 118-ci, 119-cu, 144-cü, 165-ci, 168-ci, 182-ci, 190-cı, 200-cü səhifələrdə),

• IV sinfin dərsliyində 7 səhifədə (13-cü, 16-cı, 21-ci, 42-ci, 43-cü, 59-cu, 204-cü səhifələrdə) cümlə başlanıb.

***7. Azərbaycan dili dərsləri əsasında qazanılan ilkin qrammatik-orfoqrafik vərdişlər insana ömür boyu lazım olur.*** Haqqında bəhs olunan dərsliklərdə elə ciddi nöqsanlara yol verilmişdir ki, şagirdlər çaş-baş qalır, valideynlərinin, müəllimlərinin dediklərinə inanmırlar. Bir misalı nəzərdən keçirək: Onlar öyrənirlər ki, cümlə böyük hərflə başlanır, lakin dərsliklərdə cümlənin kiçik hərflə başlanmasının da şahidi olurlar.

• II sinfin dərsliyinin 101-ci səhifəsində 3 cümlə kiçik hərflə başlanıb, lakin hər cümlənin axırında nöqtə qoyulub. 102-ci səhifədə 6 cümlə, 104-cü səhifədə 3 cümlə kiçik hərflə başlanıb , axırlarında nöqtə qoyulmayıb.

181-ci səhifədə şagirdlər oxuyurlar:

A) eyni mənalıdır

B) yaxın mənalıdır

C) əks mənalıdır

Bu cümlələr adi ifadələr kimi qəbul olunub.

• IV sinfin dərsliyinin 13-cü səhifəsində 4 cümlə kiçik hərflə başlanıb, lakin hər cümlənin axırında sual işarəsi qoyulub. 41-ci, 95-ci səhifələrdə 6 cümlə kiçik hərflə başlanıb, axırlarında da nöqtə qoyulmayıb.

Bu dərslikdə müəlliflər yarımbaşlıqları böyük çap hərflərlə ( "SÖZLÜK", "SÖZ EHTİYATI", "ŞİFAHİ NİTQ", "ŞÜURLU OXU", "YAZI", "DİL QAYDALARI", "MƏNTİQ", "ARAŞDIRMA", "CÜTLƏRİ MÜƏYYƏN ET.", "DOĞRU, YOXSA YANLIŞ?", "TƏTBİQETMƏ" və s.) verdiklərindən bəzi şeylər qismən qaydaya düşüb, lakin bəzən bu dərslikdə də ciddi səhvlərə yol verilmişdir. 61-ci səhifədə belə çalışmaya rast gəlirik: "Öz arşınınla ölçmə" və "Altıağac" mətnlərini hansı başlıq altında birləşdirərdin ? "

A) Azərbaycanın rayonları

B) Qədim ölçü vahidləri

C) Rəvayətli ifadələr

Mavi rəngli sözün kökü hansı mənanı bildirir?

A) Bitkinin torpaq altında olan və onu qidalandıran hissəsi

B) Sarı və ya qırmızı kökümeyvəli bitki

C) Şişman, gombul

İfadələr böyük hərflə başlanıb, aralarında ";" işarəsi qoyulmayıb.

***8. Dərsliklərdə ümumi sözlərin və ifadələrin böyük hərflə verilməsi halları çoxdur.*** I sinfin dərsliyində söz və ifadələrin böyük hərflə başlanması hallarına 65 yerdə, II sinfin dərsliyində 277 yerdə, III sinfin dərsliyində 284 yerdə, IV sinfin dərsliyində 67 yerdə yol verilib.

***9. Dərsliklərdə orfoqrafiya və durğu işarələri səhvlərinə də yol verilib.*** Şagirdlər sözlərin yazılışında ciddi səhvlərlə rastlaşırlar.

• I sinfin dərsliyinin 23-cü səhifəsində *nan* (çörək), 25-ci səhifəsində *ən*, 27-ci səhifəsində *əl* sözlərinin ilk hərfi böyükdür. 93-cü səhifədə *bayraq*, 96-cı səhifədə *meşədə,* 106-cı səhifədə *bahar nəğməsi*, 121-ci səhifədə *dənli bitkilər*, 122-ci səhifədə *sincablar* sözləri böyük hərflə başlanıb.

• III sinfin dərsliyinin 54-cü səhifəsində "...əyləşib, *hamıyla..."* verilib. Bu ifadə "*hamı ilə*" şəklində olmalıdır. 82-ci səhifədə "*...buradan ora, oradan bura ..."* ifadəsi yaxşı təsir bağışlamır.

***10. Dərsliklərlə şeir, feil sözləri hallanarkən söz kökündəki səsdüşümü nəzərə alınmamış (i) şeirə, feilə, şeirin, feilin şəklində işlənib***.

• I sinfin dərsliyinin 98-ci, 122-ci, 136-cı səhifələrində; II sinfin dərsliyinin 23-cü, 35-ci, 61-ci, 63-cü, 85-ci səhifələrində; III sinfin dərsliyinin 145-ci, 149-cu, 153-cü, 156-cı, 158-ci səhifələrində; IV sinfin dərsliyinin 47-ci, 122-ci, 167-ci, 196-cı səhifələrində belə səhvlərə yol verilmişdir.

• II sinfin dərsliyinin 132-ci səhifəsində *Sultanağa* sözü, *Sultan ağa* şəklində gedib.

• IV sinfin dərsliyinin 79-cu , 82-ci, 104-cü səhifələrində *vaxtilə* sözü *vaxtı ilə* kimi getmişdir.

***11. Bir çox hallarda kiçik hərflə başlanmalı olan söz və ifadələr böyük hərflə, böyük hərflə başlanmalı sözlər kiçik hərflə başlanıb.*** Belə hallara, əsasən, sözlərin mənalarının izahında, bəzən adi söz və ifadələrdə yol verilib.

• I sinfin dərsliyində 10 səhifədə (23-cü, 25-ci, 60-cı, 127-ci, 75-ci, 93-cü, 96-cı, 106-cı, 121-ci, 122-ci səhifələrdə ) 10 dəfə;

• II sinfin dərsliyində 32 səhifədə (8-ci, 11-ci, 12-ci, 19-cu, 25-ci, 27-ci, 43-cü, 45-ci, 50-ci, 56-cı, 61-ci, 64-cü, 65-ci, 80-ci, 81-ci, 86-cı, 93-cü, 94-cü, 95-ci, 99-cu səhifələrdə) 45 dəfə;

• III sinfin dərsliyində 36 səhifədə (16-cı, 20-ci, 25-ci, 27-ci, 47-ci, 57-ci, 62-ci, 68-ci, 75-ci, 87-ci, 90-cı, 95-ci, 97-ci, 100-cü, 115-ci, 118-ci, 120-ci, 121-ci, 122-ci, 130-cu, 133-cü, 136-cı, 138-ci, 148-ci, 151-ci, 152-ci, 153-cü, 171-ci, 178-ci, 183-cü, 186-cı, 199-cı, 200-cü, 201-ci, 203-cü səhifələrdə), 86 dəfə;

• IV sinfin dərsliyində 5 səhifədə (61-ci, 85-ci, 102-ci, 105-ci, 183-cü səhifələrdə) 14 dəfə belə hallara yol verilib.

***12. Bəzən əksinə, cümlələr kiçik hərflə başlanıb.***

• I sinfin dərsliyində 3 səhifədə (77-ci, 101-ci, 104-cü səhifələrdə) 3 dəfə;

• II sinfin dərsliyində 4 səfihədə (101-ci, 104-cü, 151-ci, 181-ci səhifələrdə 13 dəfə elə səhvə yol verilib.

101-ci səhifədə belə çalışma verilib.

"...A) yaxınmənalı sözlərdir

B) əks mənalı sözlərdir.

C) eyni cür yazılan müxtəlif mənalı sözlərdir..."

151-ci səhifədəki çalışmada yazılıb:

"Aşağıdakı xüsusiyyətlərin hansı janra aid olduğunu müəyyən et.

– şeirlə və ya nəşrlə yazıla bilər;
– nağıla bənzəyir;
– baş qəhrəmanları heyvanlar və quşlar olur;
– məzmunu müdrik fikir ifadə edir."

Cümlələr kiçik hərflə başlayıb, axırda nöqtə əvəzinə nöqtəli vergül işarəsi qoyulub.

181-ci səhifədə çalışma belədir:

"...A) eyni mənalıdır

B) yaxın mənalıdır

C) əks mənalıdır "

Cümlələrin sonunda nöqtə işarəsi də yoxdur.

• III sinfin dərsliyində 4 səhifədə (83-cü, 117-ci, 119-cu, 139-cu səhifələrdə ) 13 dəfə bu səhvə yol verilib.

83-cü səhifədə şagirdlər oxuyurlar:

"...A) qızdır B) bağça uşağıdır C) məktəblidir"

Onlar bu sözlərin bitmiş məna bildirdiyini anlamırlar. İşarələr də qoyulmayıb.

117-ci səhifədəki çalışmada şagirdlər oxuyurlar.

• "...Əşyanın dəqiq sayını bildirir?
• Əşyanın təqribi sayını bildirir?
• Sıra sayıdır?

• necə sualına cavab verir?

• hansı sualına cavab verir?

IV sinfin dərsliyində 4 səhifədə (13-cü, 15-ci, 41-ci, 95-ci, səhifələrdə) 6 dəfə buna bənzər səhvlərə yol verilib.

41-ci səhifədə oxuyurlar:

“...A) özündən razı olma

B) təqsiri özündə gör

C) küsəyən olma

95-ci səhifədə verilib:

A) torpaq donur B) yel əsir C) şaxta kəsir

Hər iki tapşırıqda cümlələrin axırında durğu işarələri yoxdur.

***13. Cümlədən sonra durğu işarələrinin verilməməsi, ümumiyyətlə, bu dərsliklər üçün xarakterikldir.***

• I sinfin dərsliyində “Mən məktəbliyəm”, “Samir, bəsdir oynadın”, “Etibar inam deməkdir”, “Xəzri nədir”, “Çörək bərəkətdir”, “Adı ilə böyüsün”, “Özümüz oxuyarıq”, “Tap görüm”, “Yadına düşdü”, “Anam işdən gələcək”, “Səbiş necə böyüdü”, “Anamı incitmirəm”, “ Nə alındı”, “Hara gedirsən axşam”, “Niyə ayın donu yoxdur”, “Ağac hər dərdə əlac”, “Yaxşı nədir, pis nədir”, “Bunu eləmək olmaz”, “Əvəzini çıxdı”, “Mən doğruçu oğlanam”, “Kimin əlləri daha gözəldir” cümlələrindən sonra durğu işarələri qoyulmayıb. Tapşırıqlarda və başqa cümlələrdə də belə hallar çoxdur. I sinifdə 1, II sinifdə 74, III sinifdə 9, IV sinifdə 71 tapşırıqda cümlədən sonra nöqtə qoyulmayıb. I sinfin dərsliyində 13 mətnin adından sonra nöqtə, 7 mətnin adından sonra sual işarəsi, II sinfin dərsliyində 47-ci, 57-ci, 71-ci, 77-ci, 81-ci, 96-cı, 97-ci, 98-ci, 99-cu, 100-cü, 113-cü, 114-cü, 115-ci, 117-ci, 119-cu, 136-cı, 147-ci, 148-ci, 153-cü, 158-ci, 164-cü səhifələrdəki mətnlərin adında 14-dən sonra nöqtə, 7-dən sonra sual işarəsi qoyulmayıb.

• III sinfin dərsliyində 10-cu, 24-cü, 114-cü, 162-ci, 183-cü, 186-cı, 204-cü, IV sinfin dərsliyində 28-ci, 32-ci, 48-ci, 60-cı, 62-ci, 69-cu, 79-cu, 101-ci, 172-ci, 184-cü səhifələrdən sonra durğu işarələri qoyulmayıb.

“Düşün cavab ver “ cümləsindən sonra nöqtə qoyulmayıb. Eyni xarakterli nöqsanlara II sinfin dərsliyində 63 səhifədə (9-cu, 15-ci, 16-cı, 17-ci, 21-ci, 22-ci, 27-ci, 32-ci, 33-cü, 35-ci, 36-cı, 37-ci, 39-cu, 40-cı, 42-ci, 47-ci, 49-cu, 57-ci, 59-cu, 61-ci, 63-cü, 66-cı, 69-cu, 70-ci, 75-ci, 81-ci, 87-ci, 91-ci, 92-ci, 95-ci, 97-ci, 99-cu, 101-ci, 106-cı, 107-ci, 108-ci, 112-ci, 113-cü,116-cı, 117-ci, 118-ci, 120-ci, 121-ci, 126-cı, 132-ci, 134-cü, 138-ci, 143-cü, 144-cü, 145-ci, 155-ci, 157-ci, 160-cı, 163-cü, 173-cü, 174-cü 177-ci, 186-cı, 189-cu, 191-ci, 197-ci, 199-cu, 202-ci səhifələrdə) 65 dəfə belə səhvə yol verilib.

III sinfin dərsliyində 31 səhifədə (13-cü, 22-ci, 25-ci, 28-ci, 38-ci, 40-cı, 46-cı, 51-ci, 66-cı, 70-ci, 72-ci, 75-ci, 77-ci, 81-ci, 83-cü, 87-ci, 91-ci, 95-ci, 105-ci, 126-cı, 139-cu, 141-ci, 142-ci, 144-cü, 146-cı, 153-cü, 155-ci, 163-cü, 164-cü, 189-cu, 193-cü, 203-cü səhifələrdə) 31 dəfə eyni xarakterli səhvə yol verilib.

IV sinfin dərsliyində 69 səhifədə (12-ci, 15-ci,19-cu, 21-ci, 23-cü, 25-ci, 27-ci, 30-cu, 31-ci, 33-cü, 34-cü, 36-cı, 39-cu, 42-ci, 46-cı, 47-ci, 50-ci, 56-cı, 61-ci, 65-ci, 68-ci, 70-ci, 74-cü, 76-cı, 78-ci, 82-ci, 88-ci, 89-cu, 94-cü, 95-ci, 96-cı, 98-ci, 102-ci, 103-cü, 105-ci, 107-ci, 109-cu, 113-cü, 122-ci, 127-ci, 128-ci, 131-ci, 134-cü, 139-cu, 141-ci, 144-cü, 147-ci, 150-ci, 157-ci, 159-cu, 161-

ci, 163-cü, 166-cı, 167-ci, 168-ci, 170-ci, 173-cü, 174-cü, 176-cı, 179-cu, 181-ci, 182-ci, 184-cü, 188-ci, 190-cı, 191-ci, 196-cı, 207-ci, 213-cü) 69 dəfə eyni xarakterli səhvə yol verilib. Beləliklə, bu səhv II-IV siniflərdə 165 dəfə təkrar olunub.

***14. Dərsliklərin tərtibatında texniki qüsurlara da yol verilmişdir.*** Belə ki, siniflər, bölmələrin hissələri 1, 2, 3, 4 kimi deyil, Roma rəqəmləri (I, II, III, IV) ilə verilsə, yaxşı olar. Dərsliklərin təsdiq olunma tarixi düzgün verilməmişdir.Bir misala diqqət yetirək. IV sinfin dərsliyində oxuyuruq: Azərbaycan Respublikasının Təhsil Nazirliyi 04.07.2011-ci tarixli 1158 № li əmri ilə təsdiq edilmişdir. İldə iyul ayı 7 dəfə, onun hər hansı günü 4 dəfə olmur. (Belə daha düzgün olardı: 2011-ci il, iyul ayının dördündə ... nömrəli – əmri ilə təsdiq edilmişdir.)

• Çox yerdə abzaslar gözlənməyib.

• Müəlliflərin adları, müxtəlif sadalamalar arasında nöqtəli vergül işarəsi qoyulmayıb.

• II sinfin dərsliyinin mündəricatında bir qrafada bədii mətnlərin mövzuları, başqa qrafada qrammatik qaydalar verildiyi halda, digər siniflərin dərsliklərində dil materialları ayrıca qrafada verilməyib.

• II sinfin dərsliyində bölmələri bildirən rəngli səhifələrdə Azərbaycan dili qrammatikasının mövzuları verildiyi halda, haqlı olaraq, belə əhəmiyyətsiz şey digər siniflərin dərsliklərində təkrar edilməmişdir.

• Dərsliklərdə bir çox hallarda mətnlər bütöv deyil, hissə-hissə verilib.

• Bir çox mətnlərin, xüsusilə bəzi şeirlərin müəlliflərinin adlarının verilməməsi nöqsan hesab olunmalıdır.

• II və III siniflərin dərsliklərində "Şüurlu oxu" başlığının qarşısında verilmiş iri nöqtələrin və düzbucaqların mənası uşaqlara çatmır.

IV sinfin dərsliyində bəzən mətnin bir hissəsi tərsinə verilmişdir. Şagird belə səhifələri (41-ci, 76-cı, 141-ci, 166-cı səhifələr) çevirərək oxumalıdır. Bunun nə məqsəd daşıdığı başa düşülmür.

I sinfin dərsliyinin 18-ci səhifəsində "dərsliklərimiz adı altında Azərbaycan dilindən başqa bütün dərsliklər verilib.

I sinfin dərsliyində 96-cı, 118-ci, 122-ci, II sinfin dərsliyində 35-ci, 112-ci, 132-ci, 150-ci, 151-ci, 161-ci, 186-cı səhifələrdəki şeirlərin müəllifi verilməyib.

***15. Bəzən mətnlərin müəllifləri əcaib şəkildə təqdim olunub.*** III sinfin dərsliyinin 19-cu səhifəsində müəllif belə verilib: "Sergey Mixalkov Tərcümə edəni G. Orucova", 27-ci səhifədə "Cəlil Məmmədquluzadənin eyniadlı hekayəsi əsasında"; 31-ci səhifədə "Valentina Oseyevanın "Göy yarpaqlar hekayəsinin motivləri əsasında"; 105-ci səhifədə "Astrid Lindqrenin eyniadlı əsərindən", 87-ci səhifədə "Nizami Gəncəvinin "Yeddi gözəl" poeması əsasında"; 127-ci səhifədə "Mehdixan Vəkilovun xatirələri əsasında işləyəni Zahid Xəlil"; 132-ci səhifədə "C.Cabbarlının həyat yoldaşı Sona xanımın xatirələri əsasında işləyəni Zahid Xəlil; 160-cı səhifədə "Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması əsasında"; IV sinfin dərsliyinin 12-ci səhifəsində "İlham Ağayevin "Dərman" hekayəsi əsasında"; 27-ci səhifədə "Gülhüseyn Hüseynoğlunun "Bərk ayaqda" hekayəsi əsasında işlənmişdir"; 139-cu səhifədə "Yol söhbəti" hekayəsi ("Tumurcuq" jurnalının 9 №-li əlavəsi əsasında işlənmişdir" şəklində verilib. Halbuki, yalnız müəllifin ad və familiyasının verilməsi kifayət idi.

***16. Yaxınmənalı, eynimənalı, əksmənalı sözləri tərkib hissələrinə ayrılaraq yaxın mənalı, eyni mənalı, əks mənalı kimi verilib.*** Belə səhvlər daha çox I-II sinfin dərsliklərində gedib. I

sinfin dərsliyində 14 dəfə (28-ci, 89-cu, 99-cu, 110-cu, 111-ci, 116-cı, 119-cu, 121-ci, 137-ci, 138-ci, 143-cü, 144-cü, 151-ci, 152-ci, 155-ci səhifələrdə), II sinfin dərsliyində 9 dəfə (15-ci,23-cü, 49-cu, 111-ci, 147-ci, 152-ci, 157-ci, 187-ci, 206-cı səhifələrdə) belə sözlərə rast gəlmək mümkündür.

• II–III siniflərin bədii tərtibatı karikatura üslubunda olduğundan mətnlərin məzmununu açmağa kömək göstərmir, uşaqlara heç bir zövq vermir.

Dərsliklərin çox ağır olmasından Bakıda, digər şəhərlərdə müıllimlər, valideynlər, şagirdlər çox şikayətlənirlər. Uzaq rayonlarda, kəndlərdə, xüsusilə milli azlıqların uşaqlarının təhsil aldıqları məktəblərdə şagirdlər daha çox çətinliklərlə qarşılaşırlar. Hələ inklüziv təhsillə əlaqədar məktəblərdə xüsusi qayğıya ehtiyacı olan daha ciddi çəkdiklərini demirəm.

Gələcəkdə sözün əsl mənasında savadlı, səriştəli, məsuliyyətli elm xadimləri bacarıqlı müəllimlər əlbir olsalar, normal dərsliklər yarada bilərlər. Belə dərsliklərin tərtib olunacağına və rəğbətlə qarşılaşacağına əminəm.

**ədəbiyyat**


1. İsmayılov R., Abdullayeva S., Orucova G., Cəfərova D. “Azərbaycan dili”. (ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün dərslik). Bakı: “Altun kitab”, 2014.
2. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. “Azərbaycan dili”. (ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün dərslik). Bakı: “Altun kitab”, 2013.
3. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. “Azərbaycan dili”. (ümumtəhsil məktəblərinin 3-ci sinfi üçün dərslik). Bakı: “Altun kitab”, 2014.
4. İsmayılov R., Abdullayeva S., Qasımova X., Cəfərova D. “Azərbaycan dili”. ( ümumtəhsil məktəblərinin 4-ci sinfi üçün dərslik). Bakı: “Altun kitab”, 2013.


# ŞƏXSİYYƏT ANLAYIŞININ MAHİYYƏTİ


**İntiqam Cəbrayılov,**
pedaqogikan üzrə elmlər doktoru, professor,
ARTPİ-nin təhsil nəzəriyyəsi şöbəsinion müdiri





**açar sözlər:** şəxsiyyət, nəzəriyyə, sosiallaşma, fərd, insan amili, təlim, təhsil, mühit, formalaşma, inkişaf, proses, bilik, bacarıqlar;
**ключевые слова:** личность, теория, социализация, индивид, человеческий фактор, обучение, образование, среда, развитие, процесс, знание, умения;
**key words:** personality, theory, socialization, individual, human factors, training, education, environment, development, process, knowledge, skills.


İnsanın həyatı, onun fəaliyyəti cəmiyyətlə sıx bağlıdır. İnsan – cəmiyyət, cəmiyyət – insan münasibətləri şəxsiyyətin cəmiyyətdəki yerini müəyyənləşdirməyə imkan verir. N.D. Naumov, V.S. Solovyov, N.A. Berdyayev, N.O. Losski və başqa filosoflar insanın təbii varlıq kimi mövcudluğunu əsas götürərək hesab edirlər ki, insan kosmosun bir hissəsidir. Bu

baxımdan insana kosmik yanaşma ideyası bir sıra tədqiqatçıların əsərlərində öz əksini tapmışdır (40, 1-6).

Tədqiqatçı-filosof A.E.Ozerov insana struktur-analitik baxımdan yanaşan L.P.Karsavinin baxışlarına münasibət bildirərək qeyd edir ki, dünya bir-biri ilə sıx bağlı olan insanların iyerarxik toplumudur. Buna görə də şəxsiyyət dünyanın və onun məzmununun dərkində mərkəzi kateqoriya kimi başa düşülməlidir.

Araşdırmalar göstərir ki, hələ qədim zamanlardan insan mövzusu filosofları çox düşündürmüş və bu gün də insan təbiətinin mahiyyəti ilə bağlı məsələlər, müxtəlif dünyagörüş mövqeləri tədqiqat obyektidir. Tədqiqatlar göstərir ki, şəxsiyyət ilk növbədə fərd və fərdiyyət anlayışları ilə sıx bağlıdır. Belə ki, insan bir fərd kimi dünyaya gəlir, sonra onda fərdi xüsusiyyətlər yaranır, o öz fərdiliyi ilə seçilir, növbəti inkişaf mərhələsində şəxsiyyətə çevrilir. İnsanın fərd kimi mövcudluğu şəraitində ilk növbədə onun fiziki və psixi keyfiyyətləri diqqəti cəlb edir. Psixoloqlar qeyd edirlər ki, fərdiyyət və şəxsiyyət anlayışları bir-birinə çox yaxındır, lakin onları eyniləşdirmək olmaz.

B.Q.Ananyev göstərir ki, şəxsiyyət bütövlükdə bəşəri özünəməxsusluğun strukturunu müəyyən edir. Fərdiyyət fəaliyyət subyektinin və şəxsiyyətin tamlığı üçün vacib amildir. Şəxsiyyətə ictimai mövqedən yanaşsaq, qeyd edə bilərik ki, o, əslində vahid, ümumi qanunlar əsasında formalaşır.

Sosial-psixoloji və fəlsəfi yanaşmalara əsasən, şəxsiyyətin formalaşması prosesinin üç mərhələdən ibarət olduğunu qeyd edə bilərik:

–şəxsiyyətin ilkin əsası kimi fərdin meydana gəlməsi və insanın fizioloji xüsusiyyətlərinin təkamülü;

–fərdiliyin inkişafı prosesində biogenetik meyllərlə yanaşı, cəmiyyətin ümumi qanunlarının təsiri;

–ruhi, mənəvi, daxili şüurlu fəaliyyətin nəticəsi kimi şəxsiyyətin yaranması.

Şəxsiyyət fərdin tədricən sosiallaşması prosesində meydana gəlir. Bu anlayış insanın özünəməxsus ümumi və xüsusi əlamətlərini, həm də fərdi, təkrarlanmayan xüsusiyyətlərini ifadə edir. İnsanın sosial fərdiliyi, sosial keyfiyyətlərinin səciyyəviliyi onun şəxsiyyət kimi formalaşdığını qeyd etməyə əsas verir. Sosial fərdilik isə təbii ki, təkcə bioloji amillər əsasında deyil, eyni zamanda bir sıra digər amillərin qarşılıqlı əlaqəsi və sistemi əsasında yaranır, inkişaf edir.

Şəxsiyyət probleminə fəlsəfi yanaşma insanın şəxsiyyət kimi mahiyyətini daha geniş mənada izah etmək zərurətini doğurur. Bu zaman belə bir suala cavab axtarmaq lazım gəlir: Bizi əhatə edən dünyada, bütövlükdə tarixdə şəxsiyyətin yeri və rolu nədən ibarətdir? Bu sual şəxsiyyətin formalaşmasında mühüm rolu olan üç amilə əsaslanır:

1) biogenetik meyllər (fiziki şəxsiyyət və ya fiziki "Mən");

2) sosial amillərin təsiri (sosial şəxsiyyət);

3) psixoloji özək (mənəvi, ruhi şəxsiyyət).

Fiziki "mən" insanın bədənini, onun təşkilini ifadə edir. Bu da şəxsiyyətin əsas komponentlərindən biridir.

Sosial şəxsiyyətin formalaşması ilk dəfə uşağın öz anası ilə ünsiyyəti əsasında yaranmağa başlayır, sonralar qrup və kollektivlə ünsiyyəti, fəaliyyəti nəticəsində davam edərək formalaşır, inkişaf edir.

Mənəvi, ruhi şəxsiyyət mənəvi dəyərləri əxz etdirən, mənəvi ideallar uğrunda öz daxili, ruhi dünyasını təkmilləşdirməyə can atan insandır. İnsan mənəviyyatı xarici əlamətlərlə, insanın təhsili ilə müəyyən edilmir, o, şəxsiyyətin struktur elementi olub, ali mənəvi-ruhi düşüncə mərkəzi rolunu oynayır.

Şəxsiyyət anlayışının izahında psixoloq Z.Freydin fikirləri də maraq doğurur. Onun nəzəriyyəsinə görə, şəxsiyyətin strukturu 3 komponentdən ibarətdir: Birinci halda o, meyl, motiv və tələ-

batlar da daxil olmaqla şüursuzdur. İkinci halda onda "Mən" şüuru yaranır. Üçüncü halı isə qəbul olunmuş normalardan, meyarlardan "Mən"dən yuxarıdır. Bu hal şüurlu və şüursuz səviyyələrdə təsvir olunur.

İnsanın şəxsiyyət kimi rolu əksər hallarda daha çox onun cəmiyyətdə sosial funksiyalarını nə dərəcədə yerinə yetirməsi, davranışı ilə müəyyən edilir.

Qeyd etmək lazımdır ki, insanın sosial-psixoloji xüsusiyyətləri, o cümlədən, dünyagörüşü, dəyərlərə münasibəti, mənəvi və estetik idealları, sosial-siyasi inancları, özünüqiymətləndirməsi, təfəkkür tərzi və s. onun şəxsiyyətinin müəyyənləşdirilməsində böyük rol oynayır.

Müasir elmi araşdırmalarda əsas istiqamətlərdən biri kimi *inteqral insan* konsepsiyasının yaradılması problemi diqqəti cəlb edir. Bu, fəlsəfi antropologiyanın başlıca ideyasıdır. Fəlsəfi antropologiyanın tədqiqat predmeti isə insanın ruhi, mənəvi həyat sahəsidir. İnsanın həyat fəaliyyəti, mədəniyyət, hüquq və mənəviyyatının əsasları məhz fəlsəfi antropologiya tərəfindən öyrənilir.

Elmi araşdırmalar göstərir ki, ümumiyyətlə insan və cəmiyyətin qarşılıqlı əlaqəsinin mürəkkəb, çoxtərəfli xarakteri, bir qayda olaraq, insanın fəaliyyətinin cəmiyyətin inkişaf səviyyəsinə, xarakterinə uyğunluğu qanunu ilə müəyyən edilir. Burada isə cəmiyyətdəki mövcud sosial-iqtisadi münasibətlərlə yanaşı, ictimai münasibətlərin humanistləşmə səviyyəsi də mühüm əhəmiyyət kəsb edir.

Şəxsiyyətin formalaşması anlayışı ilə bağlı müxtəlif yanaşmalara diqqət yetirək.

Şəxsiyyətin formalaşması ekoloji, sosial, iqtisadi, ideoloji, psixoloji və s. amillərin təsiri altında sosial varlıq kimi insanın yaranması prosesidir. Formalaşma dedikdə, insan şəxsiyyətinin mükəmməlliyi, yetkinlik və sabitlik səviyyəsində nailiyyətlərə yiyələnmə başa düşülür. Şəxsiyyətin formalaşması obyektiv, qanunauyğun prosesdir. Bu prosesdə insan yalnız təsir obyekti kimi deyil, həm də fəaliyyət və ünsiyyətin subyekti kimi çıxış edir. Şəxsiyyət insanın psixi halı ilə bağlı olub, daxili və xarici vasitələrin fəal təsiri, fərdin qabaqcıl ictimai təcrübəni mənimsəməsi, assimilyasiyası yolu ilə formalaşır. Bu təcrübədə şəxsiyyətə həyat normaları və dəyərləri haqqında təsəvvürlər sistemi (insanın ümumi meylləri, özünə, başqalarına, cəmiyyətə münasibəti haqqında) aiddir. Şəxsiyyətin formalaşması ictimai təcrübənin xüsusi sahəsinin mənimsənilməsi prosesidir. Bu mənimsəmə nəticəsində yeni motivlər və tələbatların formalaşması prosesi gedir.

A.N. Leontyevə görə, şəxsiyyət iki dəfə doğulur: - birinci dəfə məktəbəqədər yaş dövründə, ikinci dəfə isə yeniyetməlik dövründə. Birinci doğuluşda onda müəyyən davranış motivləri yaranır, lakin bunlar dərk olunmur. İkinci doğuluşda isə davranış motivləri dərk olunur, özünütərbiyə imkanları genişlənir.

Şəxsiyyətin formalaşması tərbiyə, təlim və sosial mühitin xarici təsirləri altında şəxsiyyətin yaranması və inkişafı prosesi, ictimai münasibətlərin obyekti və subyekti kimi insanın formalaşması prosesidir. Şəxsiyyətin formalaşması mühitin, irsiyyətin və tərbiyənin təsiri altında onun inkişafı prosesi və nəticəsidir.

Tədqiqatçı-pedaqoq S.M.Vişnyakovanın fikrincə, şəxsiyyətin formalaşması – insanın sosial keyfiyyətlərinin, inamının, baxışlarının, qabiliyyətlərinin, xarakter cizgilərinin müəyyənləşməsi prosesidir. Bu zaman təhsilin vəzifələrinə uyğun olaraq insanın sosial yetkinliyinin müəyyən səviyyəsində nailiyyət nəzərdə tutulur, bu isə insana cəmiyyətin yaşlı üzvləri kimi müxtəlif rollarını (evdar, işçi, vətəndaş) uğurla və məsuliyyətlə yerinə yetirməyə imkan verir (42).

Formalaşma nədir? Formalaşma şəxsiyyətin ayrı-ayrı tərəflərinin, xarakterin əlamət və keyfiyyətlərinin inkişafı prosesinin şüurlu şəkildə idarə olunması, onların düşünülmüş formaya gətirilməsidir. Pedaqoji təcrübədə formalaşma şagird şəxsiyyətinə təsir priyomu, metodları və vasitələrinin tətbiqi mənasını verir. Burada məqsəd şagirdlərdə müəyyən bilik, bacarıq, dəyər və münasibətlər sisteminin yaradılmasıdır.

Şəxsiyyət valideynlərin, müəllimlərin, mühitin təsiri altında müəyyən formanı qəbul edir, bununla da onda düşünülmüş xüsusiyyətlər meydana çıxır. Fəlsəfi baxımdan formalaşma proses

anlamına gəlir. Burada xaos və təsadüfilik aradan qaldırılır, tam, bütöv, yeni mahiyyət kəsb edən şəxsiyyət yaranır .

Şəxsiyyətin formalaşması sosiallaşma, tərbiyə və özünüinkişaf prosesləri və onların nəticələri kimi izah oluna bilər. İnsanın şəxsiyyət kimi formalaşmasında daha çox sosial amillərin rolu ilə bərabər, bioloji mexanizmlər də onun tələbatlarının, maraqlarının ödənilməsində mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar insan şəxsiyyətinin, xarakterinin formalaşmasını təmin edir.

**ədəbiyyat**

1.Azərbaycan Pespublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) // "Azərbaycan məktəbi", 2007, №2
2.Давыдов В.В. Генезис и развитие личности в детском возрасте. "Вопросы психологии", 1992, №1-2.
3.Əliyev R. Tərbiyə psixologiyası. Bakı: "Nurlan", 2006 .
4.Галажинский Э.В. Системная детерминация самореализации личности: Дис.д-ра психол.наук. Томск, 2002.
5. Qədirov Ə. Yaş psixologiyası. Bakı: "Maarif" 2002.
6.Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika: yeni kurs. Bakı: "Çaşıoğlu", 2002.
7.Talıbov Y., Ağayev Ə., Eminov A., İsayev İ. Pedaqogika. Bakı: "Adiloğlu", 2006.

**Сушность понятия «личность»**

**резюме**

В статье исследуется сушность понятия «личность» и представляется во внимание ряда исследователей к этой проблеме. Раскрывая сушность проблемы, автор отмечает, что формирование личности, социализация и вопитание могут быть объяснены как процесс саморазвития. Роль человека в обшестве определяется, в основном, его поведением и с тем , на каком уровне он выполняет своб социальную функцию.

**The essence of the notion of personality**

**summary**

In the article the essence of the notion of personality is researched and the approaches of different authors to this problem are mentioned. While exsplaining the problem the author notes that, the formation of personality can be exsplanied as a process of socialization, nuture and self-developnemt and its results. The role of human as a personality is defined by his/her behavior and the degree of execution of social funktions in society

# MÜƏLLİMİN ŞAGİRDLƏRƏ MÜNASİBƏTİNDƏ MƏNƏVİ XÜSUSİYYƏTLƏRİN ROLU

**Yeganə Qənbərova,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
Yegane8283@mail.ru



**açar sözlər:** müəllim, ünsiyyət bacarığı, mənəvi dəyərlər, müəllimin ünsiyyəti;
**ключевые слова:** учитель, коммуникативные навыки, духовные ценности, общение учителя;
**key words:** teacher, communication skills, spiritual values, communication teacher.

Müasir kurikulum (proqram) hazırlandıqdan sonra təhsil sistemi yeni təlim metodları və texnologiyaları vasitəsilə reallaşdırıldı. Yeni islahatlar müəllimin, pedaqoji prosesin müasir tələblərə cavab verməsi ehtiyacını aşkara çıxardı. Müasir müəllim elmi cəhətdən savadlı, mənəvi cəhətdən zəngin, müasir texnologiyalardan, innovasiyalardan xəbərdar olmalıdır.

Şüur–insan tərəfindən öz davranış normalarını, cəmiyyətdə qarşılıqlı münasibətlərin xarakterini, şəxsiyyətin insani keyfiyyətlərinin dəyərini dərk etməsi deməkdir. Bu isə, ilk növbədə, ibtidai sinif müəlliminin baxışlarında, ünsiyyətində, ideyalarında, təsəvvürlərində, ənənə və vərdişlərində öz əksini tapır, ictimai və fərdi şüurun vəhdətində özünü göstərir.

İbtidai sinif müəlliminin mənəvi şüurunda yalnız səmərəlilik xüsusiyyətlərini qeyd etmək düzgün deyildir, burada mənəvi hisslərin də əhəmiyyəti böyükdür.

Etika –insanın davranışını, ünsiyyətini tənzimləyən mənəvi prinsiplər, tələblər və normalar məcmusudur. Bu baxımdan etik biliklər müəllimin də mənəvi şüurunun ən dəyişkən hissəsidir. Bu dəyişkənlik və qeyri-sabitlik əxlaqın mahiyyətinin və mənəvi tələblərin xüsusiyyətləri barədə biliklərin müntəzəm genişlənməsi və daha da dərinləşməsi ilə əlaqədardır. Tərbiyə və özünütərbiyə prosesində həyatın ayrı-ayrı fakt və hadisələri ilə səthi tanışlıq tədricən daha dərin və elmi cəhətdəm əsaslandırılmış məlumatlarla zənginləşir.

Mənəvi baxışların dəyişkənliyinə dəlalət edən amillərdən biri də odur ki, bəzi hallarda insanların ünsiyyət və hərəkətləri hətta artıq dərk etdikləri əxlaq normalarına uyğun gəlmir. Belə uyğunsuzluq pedaqoji fəaliyyətdə də nadir hal deyildir. Ona görə ki, istər ayrı-ayrı müəllimlərin, istərsə də pedaqoji kollektivin uğurları yalnız özlərinin deyil, habelə hər bir şagirdin fəaliyyətindən də asılıdır.

İbtidai sinif müəllimlərinin mənəvi baxışları dolğunluğuna və sabitliyinə görə bir-birindən fərqlənir. Hər bir gənc müəllim ilk dəfə pedaqoji fəaliyyətə başlayarkən artıq norma və qaydalara yiyələnmiş olur. Bunların tətbiqi isə pedaqoji fəaliyyətdə, əmək prosesində baş verir.

Peşəkar pedaqoji fəaliyyətin mənəvi əsaslarının ibtidai sinif müəllimi tərəfindən dərk olunması (xeyirxahlıq, ədalət, vicdan, ləyaqət və s. mənəvi dəyərlər) və mənimsənilməsi cəmiyyətdə bərqərar olmuş əxlaq normalarına uyğun şəkildə baş verir.

İbtidai sinif müəlliminin mənəvi baxışlarının əsas elementlərindən biri də mənəvi dəyərlərin müəllim tərəfindən dərkolunma səviyyəsi və bu dəyərlərin şagirdlər tərəfindən necə qəbul olunması ilə müəyyən edilir. İbtidai sinif müəllimi peşəkar əmək mühitinə daxil olmaqla şagirdlərin də mənəvi dəyərlər haqqında təsəvvürlərinin formalaşmasına zəmin yaradır. Bu baxışların əsasını əxlaq normalarının pedaqoji fəaliyyətdə təzahürü məsələlərinin düzgün dərk olunması təşkil edir.

Pedaqoji fəaliyyət və ünsiyyətin bir xüsusiyyəti də odur ki, mənəviyyatla bağlı hər hansı bir problemin həllində müəllimdən ədalətli mövqe və onu müdafiə etmək qabiliyyəti tələb olunur. Müəllimıik peşəsinin bu xüsusiyyəti müəllimi öz mövqeyini qəbul edilmiş fikirlə uzlaşdırmağa vadar edir ki, bu da fərdi və ictimai şüurun yaxınlaşmasına zəmin yaradır. Əgər ibtidai sinif müəllimi həyat hadisələrini yalnız öz subyektiv baxışları nöqteyi-nəzərindən qiymətləndirməyə cəhd göstərirsə, bu, mənəvi-psixoloji münaqişənin yaranması ilə nəticələnə bilər ki, bu da müəllimlə şagirdlər arasında münasibətlərin gərginləşməsinə gətirib çıxarar.

Mənəvi tərbiyənin başlıca vəzifələrindən biri də mənəvi bilikləri mənəvi əminliyə çevirməkdən ibarətdir. Əminlik, inam insanın şüurunda dərin kök salmış əxlaqi təsəvvürlər və baxışlardır ki, bunları da insan öz fəaliyyətində rəhbər tutur. Etik biliklər və mənəvi baxışlar yalnız o zaman müəllimin inamına çevrilir ki, o, cəmiyyət tərəfindən qəbul olunmuş əxlaqi normaları dərindən mənimsəsin. Bilik və inam eyni əsaslarda formalaşır, bərqərar olur. Fərq isə ondan ibarətdir ki, dünyagörüşü, əqli nəticə şüurun ən dəyişkən hissələridir.

İbtidai sinif müəlliminin mənəviyyatının formalaşmasının başlıca şərtlərindən biri də onda öz peşəsinə dərin maraq və məhəbbətin olmasıdır. Bu tələbata uşaqlarla ünsiyyətdə olmaq arzu və istəyi də daxildir.

İnamın iki tipi məlumdur. Bunlardan biri nüfuzlu şəxsiyyətlərə kor-koranə inanıb itaət etməkdir. Bu inam əksər hallarda fanatiklərə məxsus olur. İnamın digər tipi isə siyasi və mənəvi ideyaları dərindən dərk etmək, onların sosial mahiyyətini başa düşmək əsasında bərqərar olur. Belələ-

ri əsl müəllim olurlar. Müəllimin şüurunda formalaşan əminlik onun inamını təşkil edir ki, bu da onu bir şəxsiyyət kimi səciyyələndirir. İnam şəxsiyyətin mənəvi özünüdərk formasıdır.

Mənəvi inamın əsasını ideal təşkil edir. O ideal ki, müəllimin şüurunda artıq bərqərar olub, formalaşıb. Müəllim öz pedaqoji fəaliyyətində o ideallara çatmağı qarşısına məqsəd qoyur. Peşəkar pedaqoji etika mənəvi ideala müəllim şəxsiyyətinin ən yüksək mənəvi keyfiyyətləri haqqında ideyalar sistemi kimi baxır. Mənəvi idealda cəmiyyətin müəllimə qarşı irəli sürdüyü tələblər öz əksini tapır.

Məlumdur ki, yüksək mənəviyyatlı şəxsiyyəti yalnız yüksək mənəviyyatlı müəllim, pedaqoji kollektiv yetişdirə bilər. Onların da idealları həmişə cəmiyyətin idealları ilə üst-üstə düşür. Müasir Azərbaycan müəlliminin etikasında mütərəqqi, ümumbəşəri xarakterə malik olan tələblər öz əksini tapır. Demokratikləşmə prosesləri genişləndikcə və dərinləşdikcə, bu tələblər də zənginləşir.

Qeyd olunan bütün fikirləri ümumiləşdirsək, ibtidai sinif müəlliminin mənəvi simasını səciyyələndirən aşağıdakı peşəkar keyfiyyətləri göstərə bilərik:

- Müəllim öz peşəsini sevməli, onun sosial dəyərini və dövlət əhəmiyyətini dərindən dərk etməli, öz vəzifəsinin icrasına məsuliyyətlə yanaşmalıdır.
- Müəllim elmin yeni nailiyyətləri ilə maraqlanmalıdır
- Musiqini sevməli və başa düşməlidir.
- O, siyasi cəhətdən savadlı, ictimai-siyasi və kütləvi təbliğat işi aparmağa hazır olmalıdır.
- Uşaqları sevməli, onların biliklərinin qiymətləndirilməsinə obyektiv yanaşmalı, hər bir şagirdin fərdi qabiliyyətlərinin inkişafına kömək göstərməlidir.
- Öz peşəkarlıq səviyyəsini yüksəltməyə, qabaqcıl təcrübəni öyrənməyə cəhd göstərməlidir.
- Öz davranışına və hərəkətlərinə tənqidi yanaşmalı, başqalarının da nöqsanlarını göstərməlidir.
- Həmkarlarına, şagirdlərə və onların valideynlərinə xeyirxah olmalıdır.
- Pedaqoji takta ciddi riayət etməlidir.
- Öz şəxsi nüfuzu və həmkarlarının nüfuzunun artmasına çalışmalıdır.
- İşdə, ailədə, ictimai yerlərdə davranış nümunəsi göstərməlidir.

İbtidai sinif müəllimi ilə ünsiyyət şagirdlərdə əməyə, çətinlikləri dəf etməyə həvəs formalaşdırmalıdır. Kiçikyaşlı şagirdlərdə yaradıcılıq imkanlarını inkişaf etdirən müəllim eyni zamanda onlarda öz bacarıqlarına inam yarada bilər.

Qayğıkeşlik, hörmət, başqalarının dərdinə şərik çıxmaq, həmkarlarının uğurlarına sevinmək və s. hisslər müəllim və şagirdlər arasında qarşılıqlı anlaşma mühitinin yaranmasında mühüm rol oynayır.

**ədəbiyyat**


1. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: "Mütərcim", 2007.
2. Məmmədzadə R.H. Müəllimin peşə etikası. Bakı: "Maarif", 1992.
3. Nəzərov A. Müəllimin pedaqoji mərifəti. Bakı: "Təfəkkür", 1992.
4. Vural B. Eğitim-öğretimde planlama, ölçme ve stratejiler. İstanbul: "Hayat", 2004.
5. Yeni pedaqoji təfəkkürün inkişafı:Müəllimin fəaliyyətinin əsas istiqamətləri. Bakı: "Nərgiz", 2001


**Роль духовных особенностей учителя в его отношении к детям**

**резюме**


В статье рассказывается о роли духовных качеств учителя в его педагогической деятельности. Особенность общения учителя с учениками в том, что в решении любого вопроса от учителя начальных классов требуется честность, справедливость и профессионализм. Духовные качества учителя имеют больщое значение.

Отмечается, что сформировать высоконравственной личности сможет только высоконравственный учитель и высоконравственный педагогический коллектив и их идеалы всегда совпадают с идеалами общества.


**The role of the spiritual teacher of features in its relation to children**

**summary**


The article describes the role of the spiritual qualities of the teacher in his teaching. Feature teacher communication with students is that in dealing with any question of a primary school teacher requires honesty, fairness and professionalism. Spiritual teacher quality have bolschoy value.

It is noted that shape highly moral person can only moral teacher and moral teaching staff and their ideals always coincide with the ideals of society.

# NİTQ MƏDƏNIYYƏTİ DİLÇİLİYİN SAHƏSİ, NATİQLİK İSƏ SƏNƏTDİR.

**Vaqif Qurbanov,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent;
**Sevda Abbasova,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**açar sözlər:** ədəbi dilin normaları, müasirlik, natiqlik sənəti, siyasi natiqlik, tarixi təcrübə, ümumiləşmiş ifadələr;
**ключевые слова**: ораторское искусство, современность, политическое ораторство, нормы литературного языка, исторический опыт, обобщенные высказывания;
**key words:** oratorical skills, modernity, political oratory, literary language norms, historical experiences, generalized expressions.

Nitq mədəniyyəti dilçiliyin fonetik, leksik, qrammatik və üslubi normalarına əsaslanan sahəsidir. Mədəni nitq məzmunluluq səlislik, düzgünlük, dəqiqlik, ifadəlilik, orijinallıq, məntiqilik, yığcamlıq, zənginlik və s. normalara malikdir.

Bu normaları nəzərə alaraq danışmaq natiqlik sənəti sayılır. Natiqlik sənətinə yiyələnmək üçün tarixi təcrübə öyrənilməli, dünya natiqlərinin sənəti haqqında məlumatlanmaq lazım gəlir. Antik dövrün hüquqşünas, siyasətçi natiqləri alim kimi tanınmışlar. Klassik natiqlər Sokrat, Herodot, Demosfen, Siseron haqqında əfsanələr dolaşmaqdadır.

Herodot təkcə natiqliyin deyil, tarix elminin də atası sayılmışdır. O, tarix elminə mükəmməl yiyələnmiş və bu elmdən məharətlə danışmışdır.

Renessans dövrünün dövlət qanunları o dövrün natiqləri tərəfindən tərtib olunmuş və demokratik şəkil almışdır. Antik dövrün natiqləri mifik allahlardan deyil, real insan, onun hüquq və arzularından danışırdılar. Aristotel natiqlik qaydalarını yaradan nəzəriyyəçi-natiq olmuşdur. Demosfen isə Makedoniyalı İsgəndərə, onun Afinanı işğal etmək planına qarşı alovlu danışan və bu haqda yazan siyasətçi natiq olmuşdur.

Natiqlik söz sənətidir. Onun əsasında söz dayanır. Söz müqəddəsdir, çünki ədəbiyyat mənəviyyat, ilahi mədəniyyətdir, Vətəni qorumağa çağırışdır, hayqırışdır. Asif Ata onu məhz belə səciyyələndirmişdir. Sözlə nələr qazanılmayıb? Atatürk də güclü natiq olmuşdur. Türklərin ingilis-fransız birləşmiş ordularını darmadağın etmələrində, döyüşçülərin ruhlanmasında Atatürkün sözlərinin böyük rolu olmuşdur. Atatürkün sözlərinin gücü orduya qələbə ruhu gətirməyin bariz nümunəsi idi.Qoç Koroğlu döyüşə girməzdən əvvəl aşıq kimi söz deyib, dəlilərinə ruh verər, sonra nərə çəkib, meydana atılardı:

Hoydı, dəlilərim, hoydu,
Yeriyin meydan üstünə!
Havadakı şahin kimi.
Tökülün al qan üstünə!

Xalq şairi Səməd Vurğun möhtəşəm natiqlik nümunələri yaradan korifey sənətkar olmuşdur. Onun "Ananın öyüdü", "Vaqif", "Xanlar", "İnsan" və s. əsərləri buna bariz nümunədir.

“Ananın öyüdü” şeri İkinci dünya müharibəsinin ab-havasını əks etdirən çağırış ruhlu bədii inci sayılmış və Nyu-Yorkda çap edilib yayılmışdır.

Dedi: ─ Oğlum, göz bəbəyim, sən ey ömür çiçəyim,
Tarixlərin şahididir mənim bu ağ birçəyim.
İgid balam! Hərçəndi ki, öz ananam mən sənin,
Çörəyilə böyümüsən bizim Ana Vətənin.
Get, düşmənin qabağında igid tərpən, vüqarla,
Tüfəngini təmiz saxla, atını da tumarla!

“Ananın öyüdü” nəsihət kimi nitqin ən gözəl timsalıdır.

“Vaqif”in dilini təhlil etsək, görərik ki, əsər kəskin mükalimələrlə, pafosla zəngin hikmət xəzinəsidir. Əsərdəki mükalimələr sanki qılıncların çarpışmasıdır:

– Şair, hökmdarın hüzurundasan!
– Bunu sizsiz belə düşünürəm mən!
– Bəs baş əymədiniz?
– Əymədim, bəli,
Əyilməz vicdanın böyük heykəli!
– Qılınclar toqquşub iş görən zaman
Neylər dediyiniz quru bir vicdan?
–Vicdan dedikləri bir həqiqətdir!
Beşiyi, məzarı əbədiyyətdir.
– Bəs zindan necədir, qaranlıq zindan?
–Soyuq məzara da zinətdir insan!

Bu dramatik səhnə sözün qüdrəti, gücü haqqında təsəvvür yaradır.

Natiqlik sənəti özünü həyatın müxtəlif sahələrində təzahür etdirir. Onun əsas növlərini və nitq formalarını belə bir təsnifat üzrə nəzərdən keçirmək olar:

| **Natiqliyin növləri** | **Natiqliyin formaları** |
|---|---|
| ictimai-siyasi natiqlik: | • ictimai-siyasi mövzularda məruzələr;<br>• iclaslarda (konfranslarda,qurultaylarda) hesabat məruzələri;<br>• siyasi nitqlər;<br>• xülasə (icmal);<br>• mitinqlərdə söylənilən nitqlər. |
| akademik natiqlik: | • ali məktəblərdə oxunan mühazirələr;<br>• elmi məruzələr;<br>• elmi xəbərlər. |
| məhkəmə natiqliyi: | • prokuror və ya dövlət ittihamçısının nitqi;<br>• vəkil və ya müdafiə nitqi;<br>• müttəhimin özünümüdafiə nitqi. |
| ictimai- məişət natiqliyi : | • yubileylərdə söylənilən nitqlər;<br>• masabəyi nitqləri;<br>• dəfn mərasimi nitqləri; |
| ilahiyyatçı nitqi: | • moizə və xütbə nitqləri;<br>• məscid və kilsə nitqləri. |

Təqdqiqatçı alim M.Əsgərovun vaxtilə tərtib etdiyi bu təsnifat [2, s. 106-107] müasir dövrdə xeyli fərqli struktur və məzmunda verilmişdir. Hazırda təsnifatda tarixilik əsas götürülür, belə hesab edilir ki, əvvəl hüquq və ya məhkəmə natiqliyi yaranıb, sonra siyasi-ictimai, dini, akademik və məişət natiqliyi. Xalq arasında sinədəftər olub, bədahətən şeirlər deyən, qəzəl, qəsidələri ilə

ürəkləri fəth edən dərvişlər olmuşlar. Ruhani alimlərin dünyanın gərdişi haqqında fikirləri yaddaşlarda həkk olunmuşdur.

Aşıq, şair natiqliyi daha qədimdir. Aşıqlar necə deyiblər:

Ustad, məni gözlərinə fəda et,
Səndən saz istərəm, amma saz ola.
Dindirəndə imran dilli danışa,
Şeyda bülbül kimi xoşavaz ola.

Şirin dil haqqında nələr söylənməyib? Xaqaninin belə bir beyti var:

Hər kimin olarsa, bir şirin dili
Bir tük ilə çəkər dalınca fili.

Dahi Nizami isə bu barədə belə yazıb:

Şirindil insanla dostluq eyləsən,
Ondan ayrı şeylər tələb etmə sən.

Tarixən bədii düşüncə ilə yanaşı, fəlsəfi düşüncə də inkişaf etmişdir. Azərbaycan natiqlik sənəti tarixində şair-natiqlər məşhurdur. Şair-natiqlər hansı təsnifata daxildir? Natiqlik sənəti haqqında daha ətraflı məlumata sahib olmaq üçün Nizami Gəncəvinin “Xəmsə”sini oxumaq kifayət edər. “İsgəndərnamə” sanki natiqlik sənəti nümunəsi kimi yaradılıb.

Dahi Nizami sözün qüdrətindən, onun Allah tərəfindən insanlara bəxş edilməsindən və ilahi sözün vasitəsilə məhəbbət və qəhrəmanlıq dastanlarının yazılmasından bəhs etmişdir.

Şair yazmışdır:

Sözdədir həm təzə, həm də köhnə şey,
Sözdən bəhs edilir zaman- zaman hey.
Varlığın anası doğmamış, inan,
Sözdən gözəl övlad, şahiddir cahan.

O, həmçinin yazmışdır*:*

Düşüncənin əvvəli, bütün sayların sonu,
Sözdür, yadında saxla, unutma əsla bunu!
Söz bayraqdan daha tez əldə eyləyər zəfər,
Qılıncdan daha kəskin qalxıb, alar ölkələr.

Nizami sözü nitqin əsası hesab edir, daxili və xarici olmaqla iki təzahür formasını göstərir və söz-düşüncə formulunu belə təqdim edirdi :

Sözün qanadları var, quş kimi incə-incə
Dünyada söz olmasa, nəyə gərək düşüncə?

Nizami və onun məktəbinin davamçıları insan istedadının sözlə parlamasından, əqlin, zəkanın, fəhmin, ilhamın onun sayəsində yaranmasından və möcüzələr göstərməsindən ilhamla danışmışlar. Füzuli “Ənisül-qəlb” qəsiqəsində yazmışdır:

Sözün şəni o əndazə böyükdür ki, müəllimlər
Sözün məhsulu bilmişlər duanı, vəhyi Quranı.

Bu o deməkdir ki, söz olmasa, dini kitablar da olmazdı. Sözə verilən nə qədər dahiyanə bir qiymət! Quranı müqəddəs edən də peyğəmbərin sözləridir. Dahi Füzuli, Əmir Xosrov Dəhləvi, Cəlaləddin Rumi, Əbdürrəhman Cami, Saib Təbrizi, Xətib Təbrizi, Qətran Təbrizi, Əlişir Nəvai və başqaları ustad Nizaminin sözlərinə qüvvət verdikləri kimi, öz fikirlərini də sözlə ifadə etmişlər:

Füzulinin sözün qüdrəti qarşısında etirafları olmuşdur:

Əzəldən ucadır sözün məqamı,
Hər yerdə sevərlər sahib- kəlamı.
Sözün vəsfi mənim hünərim deyil,
Sözün qiymətinə söz yox, yəqin bil!
Gözəl yaranmışdır söz əzəl başdan.
Düzlükdür ondakı hüsnü artıran.

Nizami demişdir:

Şeirdən ucalıq umma dünyada,
Çünki Nizamiylə qurtardı o da.

Füzulinin sözə münasibəti orijinaldır: “Söz xərcləndikcə bitib-tükənməyən xəzinədir”.

Klassik ədəbiyyatda söz şairin əlində kəskin silah kimi qiymətləndirilmişdir.

Müasir dövrdə gənclərə söz sənətinin daşıyıcılarının təqdim etmək, tanıtmaq lazımdır. Onlar dilçilər, ədəbiyyatşünaslar, şairlər, yazıçılardır. Əgər ədiblərimiz klassik bədii nümunələr yaratmışlarsa, deməli, onlar da natiqdirlər və natiq kimi öyrənilməyə layiqdirlər. Nizami, Xaqani, N.Tusi, Nəsimi, Füzuli, Vaqif, M.F.Axundzadə, A.Bakıxanov və başqalarının əsərlərində istənilən qədər ecazkar nitq nümunələri vardır.

Natiqin daha bir məharəti onun güclü yaddaşa malik olmasıdır. Yuxarıda adları çəkilən mütəfəkkirlər güclü yaddaşları ilə tanınmışlar. Bu cəhətdən müasir natiqlər içərisində Ələmdar Mahirin, İlqar Fəhminin istedadı çox parlaqdır.

Natiqin dil normalarına dərindən bələd olması ən zəruri şərtlərdən sayılır. Nitqdə fonetik leksik, qrammatik və üslubi normaların gözlənilməsinə böyük ehtiyac var.
“Dili sevmək vətəni sevmək deməkdir”, “Dil azərbaycançılıq, dövlətçilik siyasətidir”. (H. Əliyev).

Diliylə üstündür heyvandan insan,
Heyvandan əksiksən,boş-boş danışsan.
***(N.Gəncəvi)***

“Qrammatik normalarsız nitq küt, poeziya pəltək, fəlsəfə əsassız, tarix anlaşılmazdır”.(M. Lomonosov).

Dinləyicidə maraq oyatmaq natiq üçün mühüm səriştəlilik sayılır. Bu cəhət müəllimlərdə daha güclü olmalıdır. Alim-natiqlər təhliletmə bacarığına malik olsalar da, bəzən metodik səriştə göstərə bilmirlər. Bu problemin üzərində bir qədər ətraflı dayanmağa ehtiyac var.

Respublika televiziyasının ***Mədəniyyət*** kanalında alimlərin elmin ayrı-ayrı sahələrinə dair mühazirələri verilir. Studiyada tələbələr alimlərin nitqlərinə qulaq asırlar. Burada oxunan mühazirələri, açıq dərsləri nə üçün natiqlik nümunəsi hesab edə bilmirik? Ona görə ki, belə mühazirələr interaktiv olmadığından tələbələrin idrak fəallığı təmin edilmir və mühazirəçi dinləyiciyə fəal təsir göstərə bilmir. Bir sözlə, mühazirə köhnə qaydada qurulur. Müasir mühazirə metodologiyasına görə, dinləyici mühazirəyə motivasiya olunmalı və problemin həllinə cəlb edilməlidir. Müəllim dinləyiciləri idraki suallarla nitq fəallığına hazırlamalı, axtarışlar diskussiyalar keçirilərək, əldə olunan nəticələr daha qlobal anlayışlarda ümumiləşdirilməli, qiymətləndirilməlidir. Daha əyani olsun deyə, bir problemli-inteqrativ mühazirənin nümunəsinə nəzər salaq:

**mövzu**: H. Əliyevin siyasi natiqliyi.

**məqsəd**:

1) H.Əliyevin siyasi natiqliyi ilə bağlı tələbələrdə düzgün anlayışlar yaratmaq, aydın təsəvvürlər formalaşdırmaq;
2) kommunikativliyə nail olmaq;
3) bu mövzuda məruzə hazırlamaq bacarığı aşılamaq və s.

**resurslar:** şəkillər, İKT-dən istifadə.

**Problemin qoyuluşu:** dünyanın tanınmış siyasi natiqləri haqqında BİBÖ priyomu ilə söhbət. Siyasi natiqlərin tarixdə rolu dialoq-diskussiya metodu ilə müzakirə olunur:

- xarici və daxili siyasətdə Heydər Əliyevin siyasi natiqliyi;
- Azərbaycan həqiqətlərini dünyanın diqqətinə çatdırmaq;
- neft siyasəti;
- Azərbaycanın dil və elm siyasəti;
- elmə, təhsilə dair fərmanlar.

Azərbaycan Respublikasının dövlətçilik ideologiyasının prinsipləri, sxemlər nümayiş etdirilir, şərhlər verilir, münasibət bildirilir, nəticələr çıxarılır. Bu mühazirənin mühüm cəhəti müəllimin dərsə planlı və məqsədli şəkildə hazır olmasıdır.

Tarixi təcrübəni öyrənməklə bu günün aktual məsələlərinə dair gənclərdə natiqlik məharəti formalaşdırmaq müasir dövrün tələbidir.

**ədəbiyyat**

1. Əsgərov M. Ə. Natiqlik sənətinin əsasları. Bakı: "Maarif", 1975.
2. Об ораторской искусстве. Москва: "Политическая литература", 1973.
3. Qurbanov V. Nitq mədəniyyəti və üslubiyyat. Bakı: "Müəllim" nəşriyyatı, 2011.

**Культура речи является областью лингвистики, а ораторство – это искусство.**

**резюме**

В статье речь идет об ораторском искусстве. Отмечается, что современное ораторское искусство требует изучения исторического опыта. Авторы считают, чтобы создать новую интерактивную лекцию требуется соблюдать новых требований. А основная особенность новых требований является обеспечение познавательной деятельности учеников и предлагает примерный план для таких лекций.

**Culture of speech is an area of linguistics and oratory - is an art.**

**summary**

In this article we are talking about the oratory. It is noted that the modern oratory requires a study of the historical experience. The authors believe, to create a new interactive lecture is required to comply with the new requirements. A main feature of the new requirements is to ensure the cognitive activity of pupils and offers a rough outline for such lectures.

# AZƏRBAYCANDA İBTİDAİ TƏHSİLİN TARİXİNƏ QISA BAXIŞ

**Şəfa Kazımova,**
Azərbaycan Respublikası Təhsil İnstitutunun böyük elmi işçisi
shefa.kazimova@mail.ru



**açar sözlər:** təhsil, ibtidai təhsil, təhsil tarixi, nəzəriyyə, ibtidai təhsil nəzəriyyəsi, inkişaf, ibtidai təhsilin inkişafı;

**ключевые слова:** образование, начальное образование, история образования, теория, теория начального образования, развитие, развитие начального образования;

**key words:** education, primary education, history of education, theory, theory of primary education, development, development of primary education.

Azərbaycan Respublikası müstəqillik illərində öz inkişafının çiçəklənmə mərhələsinə çatmış suveren ölkələrdən biridir. Bu inkişaf istər təhsil sahəsində, istər iqtisadi-siyasi sahədə, istərsə də mədəni inkişaf sahəsində özünü göstərməkdədir.

Azərbaycan Respublikası mədəniyyətlərin qovuşması və müasir iqtisadi yüksəlişlər fonunda təhsil, tərbiyə və mədəni inkişaf sahəsində nai-

liyyətlər əldə etmişdir. Bu nailiyyətlərin əsası keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın öz müstəqilliyini əldə etməsi ilə qoyuldu. Uzunmüddətli siyasi məhdudiyyətlərdən sonra Azərbaycan Respublikası ilə təhsil və iqtisadiyyat sahələrində yeniliklər etdi. 1992-ci ildə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra təhsil sahəsində bir sıra mütərəqqi yeniliklər həyata keçirildi. Təhsilin mövcud struktur, forma və məzmun məsələləri bir daha nəzərdən keçirildi. Tədris edilən bəzi fənlərin adı və məzmunu dəyişdirildi, dərs saatları yenidən formalaşdırıldı. Həyata keçirilən yenilənmə prosesində təlimin metod və formaları da dəqiqləşdirildi, yeni, səmərəli metodların istifadəsinə başlanıldı. Bütün bu proseslər təhsilin dünya təhsil məkanına inteqrasiya olunması zərurətini yaratdı, bir sıra xarici ölkələrlə tədris-təcrübə mübadiləsi həyata keçirildi.

Ümumi təhsil sahəsində həyata keçirilən islahatlar ibtidai təhsil səviyyəsindən də yan keçmədi. Əslində islahatların tətbiqinə ilk olaraq ibtidai təhsil pilləsindən başlandı. İbtidai təhsilin məzmunu yenidən nəzərdən keçirildi. Təhsilin yenilənməsi ilə əlaqədar olaraq ibtidai təhsil mütəxəssisləri öyrədici təlimlərə cəlb olundular və islahatların tətbiqinə start verildi.

Bizim araşdırma obyektimiz ibtidai təhsil pilləsində baş verən yeniliklər olduğundan ibtidai təhsilin mərhələli inkişaf məsələsini tədqiqata cəlb etmək qərarına gəldik. Təhsildə konseptual tədqiqatların aparılması baxımından ibtidai təhsilin mərhələli inkişaf prosesinin tədqiqata cəlb olunması keçmişlə müasir dövr arasında əlaqənin izlənilməsi, təhlil olunması və proseslərin daha optimal qurulması baxımından xüsusi aktuallıq kəsb edir.

Azərbaycanda təhsilin vəziyyəti və təhsildə baş verən dəyişmələrin xarakteri müstəqilliyin ilk illərindəki tarixi mənzərəni təhlil edərkən aşkara çıxır. Respublikamız çox çətin və təlatümlü bir ərəfədə olduğundan təhsilə yetərincə diqqət ayrılmaması labüd idi. Müxtəlif siyasi çəkişmələr, müharibə şəraitində olan, torpaqlarının bir qismi erməni qəsbkarları tərəfindən işğal olunmuş kiçik bir ölkə üçün sosial-mədəni həyatda hər şeyin qaydasında olmasının mümkünlüyü ağlasığmazdır. Təhsil cəmiyyətə daha çox təsir edə bilən və daha çox təsirə məruz qalan sahə olduğundan bütün proseslərin mərkəzində dayanır, tarixi və siyasi hadisələr təhsil prosesinə təsirsiz ötüşmür.

Azərbaycanın müstəqillik illərində ibtidai təhsilin inkişaf tendensiyasının düzgün təhlil olunması üçün hələ müstəqillik qazanana qədər ölkənin təhsil sistemində baş verən yeniliklərdən xəbərdar olmaq zəruridir. Azərbaycanda ibtidai təhsilin tarixi müxtəlif alim və tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Akademik H.Əhmədov, pedaqoq-alimlərdən F.Rüstəmov, M.Mərdanov, gənc tədqiqatçılardan N.İsmayılova, G.Babayeva və b. Azərbaycanda ibtidai təhsilin təşəkkül tarixini, onun nəzəri və pedaqoji məsələlərini tədqiq etmiş, dəyərli elmi əsərlər ərsəyə gətirmişlər. Bununla yanaşı, ibtidai təhsilin metodiki məsələləri ilə əlaqədar görkəmli alimlər: prof. A. Abdullayev, prof. Y.Kərimov, Ə.Abbasov və b. müxtəlif səpkili araşdırmalar aparmış, onların rəhbərliyi ilə bir sıra proqram, təlimat, metodik tövsiyə, dərslik, dərs vəsaiti və s. hazırlanmışdır.

İbtidai təhsilin nəzəriyyəsi, strukturu və forması problemləri, eləcə də məzmununda baş verən dəyişikliklər Azərbaycanın sabiq təhsil naziri, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanovun “Azərbaycan təhsil tarixi” adlı çoxcildliyində geniş təhlil olunmuşdur. Müxtəlif arxiv materiallarının, sənədlərin istifadə edildiyi əsər Azərbaycanda ibtidai təhsilin tarixini öyrənmək baxımından çox faydalıdır. Akademik Hüseyn Əhmədovun “Azərbaycan məktəb və pedaqoji fikir tarixi” adlı monoqrafiyası da bu baxımdan diqqətəlayiqdir. Hər iki alimin əsərləri Azərbaycan təhsilinin yaxın və uzaq keçmişinə işıq salan, onu təhlil edərək, öyrənərək gələcək nəsillərə ötürən faydalı elmi mənbələrdir.

Azərbaycanda təhsilin tarixinə dair əsərlərin təhlil olunması, onların araşdırılaraq ümumiləşdirilməsi ibtidai təhsilin müstəqillik illərində inkişaf tendensiyasını müəyyənləşdirmək baxımından xüsusi əhəmiyyətə malikdir.

Azərbaycanda ibtidai təhsilin tarixinə bu günümüzdən baxsaq, görərik ki, təhsil sistemi çox keşməkeşli və əziyyətli bir yoldan keçərək hazırkı vəziyyətinə gəlib çatmışdır. Professor Misir

Mərdanovun Azərbaycanda təhsilin tarixinə həsr edilmiş "Azərbaycan təhsil tarixi" çoxcildliyi (4 cilddə) üzərində dayanaq. Əsərin iki cildi təhsilin siyasi və ideoloji cəhətdən çox ziddiyyətli bir dövrünü – 1920-ci ildən müstəqilliyə qədər olan dövrü əhatə edir.

Azərbaycan Xalq Cumhuriyyəti süquta uğradıqdan sonra təhsil sistemi sovet təhsil sisteminə uyğunlaşdırıldı. Sovet təhsil sistemində baş verən hər bir yenilik bir qayda olaraq Azərbaycan təhsil sistemində də özünü göstərirdi. Azərbaycanda təhsilin tarixinə dair sənədləri araşdırarkən həmin dövr üçün müxtəlif dövlət sənədlərinin, qanun, qayda və əsasnamələrin təsdiq olunduğunun şahidi oluruq. Təhsil hələ inkişafının ilkin mərhələsində olduğundan qəbul edilən qərarların çoxu bilavasitə ibtidai təhsil mərhələsini əhatə edirdi.

"Azərbaycan təhsil tarixi"nin ikinci cildində göstərilir ki, ibtidai təhsil sahəsində 1920-ci il mayın 26-da Azərbaycan SSR Xalq Maarif Komissarlığının Kollegiyası tərəfindən "Azərbaycan SSR vahid əmək məktəblərinin Əsasnaməsi" təsdiq edildi. Həmin əsasnaməyə görə, kütləvi məktəblərin əsas tipləri aşağıdakı kimi müəyyənləşdirildi:

"• İbtidai məktəb tipi olaraq beşillik (I–V siniflər) I pillə məktəbləri (8–13 yaş);

• Orta məktəb tipi olaraq dördillik (VI–IX siniflər) II pillə məktəbləri (13–17 yaş)" [4, səh.15].

I pillə məktəblərində şagirdlərə ana dilində oxumaq, yazmaq, sadə hesab əməlləri öyrədilir, mədəni və ictimai vərdişlər, təbiət və əmək haqqında müəyyən biliklər verilirdi. Əslində müxtəlif dövrlərdə təsdiq olunmuş təhsil proqramlarını nəzərdən keçirdikdə təhsilin məzmununun islahata qədər o qədər də dəyişmədiyini müşahidə edirik. Verilən bilik, bacarıq və vərdişlərin miqdarı və səviyyəsində müəyyən fərqlər olsa da, ümumi tendensiya dəyişmədən qalırdı.

1920-ci ilin payızında Azərbaycanın I və II pillə məktəbləri üçün ilk tədris planları təsdiq və nəşr edildi. İbtidai təhsil üzrə tədrisi nəzərdə tutulan əsas fənlər ana dili, riyaziyyat, təbiət və ölkəşünaslıq, coğrafiya, mədəniyyət tarixi, əl işi, rəsm, nəğmə və bədən tərbiyəsi fənləri idi. Qeyd edək ki, tədrisdə əsas ağırlıq ana dili və riyaziyyat fənlərinin üzərinə düşürdü və ana dili" fənni I–III siniflərdə həftədə 8 saat, IV–V siniflərdə 6 saat, riyaziyyat fənni isə I–III siniflərdə 6 saat, IV–V siniflərdə isə 5 saat olmaqla tədris olunurdu [4, səh.17].

I pillə məktəbləri üçün bu tədris planının təsdiqi şagirdlərə o dövr üçün yetərli bilik və bacarıqlar vermək üçün kifayət idi. Təhsilin məzmununun davamlı inkişafı baxımından 1920–30-cu illər qərarlarla və sərəncamlarla zəngin bir dövrdür. Tədris planlarına nəzər saldıqda fənlərin həftəlik tədrisinin hər il dəyişdiyinin və müəyyən fənlərin tədris proqramına əlavə olunduğunun (və ya çıxarıldığının) şahidi oluruq. 1923/24-cü tədris ilində artıq ibtidai siniflər üçün tədris planına cizgi savadı və ictimaiyyat fənlərinin daxil edildiyini, mədəniyyət tarixi fənninin isə proqramdan çıxarıldığı məlum olur.

"1928-ci il iyunun 9-da Azərbaycan SSR MİK və XKS respublikada ümumi ibtidai təhsilin mövcud vəziyyətini müzakirə edərək "Azərbaycan SSR-də ümumi ibtidai təhsilin tətbiqi və şəbəkə komissiyaları haqqında" xüsusi qərar qəbul etdi. Bu qərara əsasən respublikada 8–12 yaşlı uşaqların təhsilə cəlb edilmələri tələb kimi qarşıya qoyuldu" [4, səh.37]. 8–12 yaşlı uşaqların təhsilə kütləvi şəkildə cəlb edilmələri respublika üçün tarixi əhəmiyyətli hadisə kimi dəyərləndirilməlidir. Əhalinin ümumi savadlılıq dərəcəsinin ibtidai təhsil səviyyəsi ilə ölçüldüyü və oxuma-yazma bacarıqlarının savadlılıq kimi qəbul edildiyi bir dövr üçün bu, olduqca mühüm bir hadisə idi.

"1928-ci ilin may ayında Azərbaycan İcraiyyə Komitəsinin III sessiyasında ümumi icbari ibtidai təhsil məsələləri müzakirə olundu. 1928–1929-cu tədris ilindən başlayaraq on il müddətində Azərbaycanda ibtidai təhsilin tam həyata keçirilməsi planlaşdırıldı. 1930-cu ildə icbari ibtidai təhsil (4 illik) həyata keçirilməyə başladı [5, s.605].

"1930-cu ildə ümumi icbari ibtidai təhsilə keçidin ölkə miqyasında reallaşdırılması üçün SSRİ rəhbərliyi tərəfindən geniş tədbirlər planı hazırlandı. SSRİ MİK və XKS-nin "Ümumi icbari ibtidai təhsilə keçilməsi haqqında" 14 avqust 1930-cu il tarixli qərarından sonra Azərbaycanda da

“Azərbaycan SSR-də ümumi icbari ibtidai təhsilə keçilməsi haqqında” 29 avqust 1930-cu il tarixli qərar verildi”. [4, s.38]

“İcbari təhsilə keçidlə bağlı 1932/33-cü tədris ilindən etibarən respublikanın ibtidai məktəblərində təhsil müddəti beş ildən dörd ilə endirildi” [4, s.41]. Bununla da ibtidai təhsillə əhatə edilməli olan uşaqların 90,8 %-i təhsilə cəlb edildi. İcbari təhsilə keçidin məcburi olması valideynləri uşaqlarını məktəbə göndərməyə, dövləti isə məktəb şəbəkəsini genişləndirməyə sövq etdi.

Bildiyimiz kimi, ölkədə sovet hakimiyyəti qurulana qədər dünyəvi təhsilə cəlb olunma aşağı səviyyədə idi. Şagirdlərin dünyəvi təhsil almaları və kütləvi savadlılıq dövlətin maraq dairəsində deyildi. Çar Rusiyası müsəlman əhalinin savadlanmasını və hakimiyyətə qarşı baş qaldırmasını arzuolunmaz hesab edirdi. Tarix kitablarına nəzər saldıqda və təhsilin o dövr göstəricilərini izlədikdə müəyyən etmək olur ki, valideynlər özləri də övladlarının savad almasında maraqlı olmamışlar. Müəyyən oxuma-yazma və sadə hesab bacarıqları ilə məhdudlaşan dini təhsil tələb olunan təhsili vermək iqtidarında deyildi.

Sovet hökumətinin qurulmasına qədər, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də təhsilə yetərincə diqqət ayırmaq mümkün olmadı. Ölkədə təhsil alan bəzi gənclərin xaricə təhsil almağa göndərilmələri xaricində təhsildə ciddi dəyişiklik nəzərə çarpmır. Savadlı əhali kütləsinin azlıq təşkil etməsi ölkənin daxili və xarici siyasətində vətənpərvər və savadlı kadrların çatışmazlığı problemini yaradırdı və dövlətin qorunması digər millətlərdən olan dövlət işçilərinin marağında deyildi. Digər bir tərəfdən ölkənin yenicə müstəqillik əldə etməsi və siyasi problemlər, xarici basqınlar, siyasi təzyiq, Rusiyanın öz hegemonluğundan vaz keçməməsi xalq cümhuriyyəti dövründə təhsilin diqqətdən kənarda qalmasının əsas səbəblərindən idi.

Sovet hakimiyyəti qurulandan sonra, digər respublikalar kimi, Azərbaycan da SSRİ-nin tərkibində və onun siyasi ideallarının təsir dairəsində idi. Bu baxımdan sovet təhsil sistemində baş verən hər bir dəyişiklik öz əksini Azərbaycan təhsilində də büruzə verirdi. Bu tendensiya bir tərəfdən yaxşı olsa da, müəyyən nöqsanlardan da xali deyildi. Azərbaycan müstəqil ölkə kimi, demək olar ki, mövcud deyildi. Siyasi rejimin təsiri altında dinindən və milli adət-ənənələrindən vaz keçməyə məcbur edilmiş bir xalq kimi Azərbaycanda öz milli kökündən uzaqlaşdırılma – ruslaşdırma siyasəti həyata keçirilirdi. Bunun ən bəlalı nəticəsi isə 1930-cu illərdə mövcud olan repressiya hərəkatının qurbanlarının böyük qisminin Azərbaycan ziyalılarını əhatə etməsi oldu.

Bununla yanaşı, icbari təhsilə keçid ölkə ərazisində bütün azyaşlıların təhsilə cəlb edilməsi və onlara dünyəvi təhsilin verilməsi demək idi. Təhsilin məzmunu bütün sovet respublikaları ilə oxşarlıq təşkil edirdi və milli ünsürlərə yer verilmirdi. Ümumi bacarıq tələb edən fənlər isə uğurla tədris olunur və şagirdlərin ümumi savadlılıq dərəcəsinə yiyələnmələri üçün geniş imkanlar yaranırdı.

Sovet hakimiyyəti dövründə ən yadda qalan və təhsilə əsaslı təsiri ilə seçilən məsələlərdən biri Azərbaycan dilinin Dövlət dili statusu alması idi. Bu, Stalin rejiminin artıq süquta uğradığı və millətlərə qismən azadlıq verildiyi dövrə təsadüf edir. 1956-cı ilin avqustunda Azərbaycan dili dövlət dili statusu aldı və bu dövrdən etibarən müəyyən sənədləşmələrdə Azərbaycan dilindən istifadə edildi. Bunun nəticəsində milli oyanış baş verdi.

Təhsilə tarixi baxımdan bir ekskursiya etsək və müəyyən illərdə (1947, 1996 və 2006) nəşr olunmuş təhsil proqramlarını təhlil etsək, görərik ki, təhsilin məzmununda islahat dövrünə qədər elə də ciddi dəyişiklik olmamışdır. Müəyyən fənlər üzrə xarakterik olan cüzi dəyişikliklər və yeniliklər, tədris proqramına əlavə edilən müəyyən fənlər istisna olmaqla, Azərbaycan təhsilində SSRİ dövründə ciddi dəyişikliklər gözə çarpmır. İslahataqədərki tədris proqramları təhlil edilərkən şagirdlərin yiyələnməli olduqları bilik və bacarıqlar baxımından artıq pedaqoq-alim Y.Ş.Kərimovun elmi redaktorluğu ilə 1996-cı ildə nəşr olunan “İbtidai siniflərin proqramları” (2) əsaslı dərəcədə fərqlənir, çünki adı çəkilən proqramda artıq şagirdyönümlülük və şəxsiyyətyönümlülük prinsiplərinin inkişaf etdirildiyini müşahidə edirik.

1947-ci ildə “Azərnəşr”də çap olunan və Azərbaycan SSR Maarif Nazirliyi və İbtidai və Orta Məktəblər İdarəsi tərəfindən təsdiq olunan “İbtidai məktəb proqramları” ibtidai təhsilin inkişaf tendensiyalarını izləmək baxımından əlverişli mənbədir. Proqramın əvvəlində ibtidai məktəbin tədris planı verilmişdir:

**1947-ci ildə nəşr olunan “İbtidai məktəb proqramları”nda verilmiş fənlər**

| sıra № | fənlərin adı | siniflər üzrə həftəlik saatların miqdarı | | | |
|---|---|---|---|---|---|
| | | I | II | III | IV |
| 1 | ana dili | 12 | 8 | 10 | 7 |
| 2 | hüsnxətt | 2 | 1 | 1 | -- |
| 3 | rus dili | -- | 5 | 5 | 5 |
| 4 | hesab | 7 | 7 | 6 | 6 |
| 5 | tarix | -- | -- | -- | 2 |
| 6 | təbiiyyat | -- | -- | -- | 2 |
| 7 | coğrafiya | -- | -- | -- | 2 |
| 8 | bədən tərbiyəsi | 1 | 1 | 2 | 2 |
| 9 | nəğmə | 1 | 1 | 1/2 | 1/2 |
| 10 | rəsm | 1 | 2 | 1/2 | 1/2 |
| | **yekunu:** | **24** | **24** | **25** | **27** |

Qeyd etmək lazımdır ki, tədris planında 10 fənn göstərilsə də, rus dili, bədən tərbiyəsi və nəğmə fənləri üzrə tədris olunacaq məzmuna proqramda vaxt ayrılmamışdır. Proqramda bu fənlər üzrə mənimsədiləcək bilik və bacarıqlar barədə heç bir məlumata rast gəlinmir. Göstərilir ki, həmin fənlərin proqramı ayrıca kitabça şəklində çap ediləcəkdir.

Proqramda hər bir fənnin əvvəlində izahat vərəqəsi verilir və şagirdlərin mənimsəməli olduqları məzmun orada aydın şəkildə qeyd olunur. Proqrama nəzər yetirərkən orada mənimsənilməli olan məzmunun ancaq faktlar şəklində verildiyini müşahidə edirik. Müəyyən qədər hesab fənnində, IV sinfin sonunda mənimsənilməli olan bacarıqlar müddəalar şəklində verilmişdir. Bu, müasir təhsil sistemində fənn üzrə ümumi təlim nəticələrinə oxşardır. Hesab fənninin proqramında göstərilir:

“Şagird, ibtidai məktəbdə, 4 il ərzində bunları mənimsəməlidir:

1. İstənilən böyüklükdə, istər adsız və istərsə də adlı tam ədədlər üzərində dörd hesab əməlini möhkəm bilməli və bu əməlləri yerinə yetirməkdə möhkəm vərdişlər əldə etməlidir, ticarət çötkəsində işləməyi bacarmalıdır.
2. Metr ölçü sistemini, vaxt ölçülərini möhkəm bilməli və ölçmələrdə bunlardan istifadə etməyi bacarmalıdır.
3. Adi kəsrlər və faizlər haqqında ibtidai məlumat almalıdır.
4. Əyani həndəsə sahəsindən ibtidai məlumat almaqla bu biliklərdən təcrübədə istifadə edilməsini bacarmalıdır.
5. Tam və kəsr ədədlərlə cürbəcür məsələlər həllini bacarmalıdır” (1).

Digər fənlərdə isə məzmun ümumi bacarıqlar şəklində verilməmişdir.

Tarix və coğrafiya fənlərinin ibtidai siniflərdə tədris proqramına salınması da ənənəvi tədris proqramlarını müasir təhsil proqramları ilə fərqləndirən cəhətlərdəndir.

1996-cı ildə pedaqoq-alim, prof. Y.Ş.Kərimovun redaktorluğu ilə nəşr olunmuş “İbtidai siniflərin proqramları”nı təhlilə edərkən proqramda 8 fənnin (ana dili, riyaziyyat, ətraf aləmlə tanışlıq, təbiətşünaslıq, təsviri sənət, musiqi, bədən tərbiyəsi, əmək təlimi) məzmununun verildiyini müşahidə edirik [2]. Təbii ki, böyük vaxt aralığı ilə yaradılan iki sənəd arasında ciddi fərqlər nəzərə çarpır. Hər şeydən əvvəl, illər ərzində tədris olunan məzmuna yeni biliklər əlavə edildiyinin şahidi oluruq. Tədris fənlərinin xarakterində, bilik və bacarıqların məzmununda da ciddi fərqlər

vardır. Şagirdlərin bilik və bacarıqlarına verilən əsas tələblərin proqramda aydın şəkildə göstərilməsi və bacarıqlara daha çox üstünlük verilməsi artıq islahatlar dövrünə hazırlığın ilkin addımları kimi dəyərləndirilə bilər.

Sonrakı illərdə də proqramlarda müəyyən dəyişikliklər həyata keçirildi. Proqram materiallarında və tədris ediləcək fənlərdə ciddi dəyişiklik Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra – 1999-cu il, iyun ayının 15-də, 168 nömrəli qərarla "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunduqdan sonra baş verdi. Hələ İslahat Proqramı təsdiq olunanadək təhsil sahəsində dirçəliş, məzmun yenilənməsi müşahidə olunur, infrastrukturda yeniliklər həyata keçirilməyə başlamışdı.

"Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikasının Qanununun (1991-ci il, dekabr ayının 25-i) qəbul edilməsi ilə əlaqədar olaraq 1992-ci ilin sentyabr ayından orta məktəblərin I siniflərində dərslərin yeni əlifba ilə keçirilməsi, orta məktəblərin yuxarı siniflərində latın qrafikalı əlifbanı öyrədən fakültativ məşğələlərin təşkil edilməsi və bütün təhsil içilərinin latın qrafikalı əlifbanı öyrənməsi nəzərdə tutulmuşdu. Qərarda 1993-cü ildə ümumtəhsil məktəbləri dərsliklərinin latın qrafikalı əlifba ilə çap edilməsi və təhsil sisteminin bütün sahələri üzrə latın qrafikalı əlifbanın tətbiqinin başa çatdırılması da nəzərdə tutulmuşdu, lakin xüsusi hazırlıq olmadan belə bir addımın atılması müəyyən çətinliklərin yaranmasına səbəb oldu.

Məlumdur ki, Azərbaycan müstəqillik qazanandan sonra daha çox Avropa təhsil məkanına inteqrasiya etməklə mühüm nailiyyətlər əldə etdi. Bir sıra Avropa ölkələrinə edilən səfərlər çərçivəsində təhsil sistemləri öyrənilərək ümumiləşdirildi və yeniliklər ölkənin təhsil sisteminə tətbiq olunmağa başladı. Bu da, ilk olaraq, ibtidai təhsilin yeniləşdirilməsində, məzmunun, eləcə də kadr hazırlığının təkmilləşdirilməsində özünü göstərdi.

Azərbaycanın müstəqillik illərində təhsil sahəsində əldə etdiyi nailiyyətləri dövrlərə bölsək, ən əlverişli və inkişaf etmiş dövrün məhz Təhsil İslahatının tətbiqindən sonrakı dövr olduğunu görərik. Təhsildə yeni tendensiyaların tətbiqi başdan-başa təhsil sisteminin və proqramların yeniləşdirilməsinə səbəb oldu. Təhsilə əvvəlki yanaşmalar aradan qaldırıldı, müasir təhsil paradiqmalarına uyğun yanaşma tətbiq olunmağa başladı.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il, iyun ayının 15-i tarixli, 168 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın tətbiq olunması ilə Azərbaycanda təhsil sistemi yeniləndi və bu yenilik təhsilin xeyrinə oldu. Ardıcıl və sistemli şəkildə tətbiq olunan islahat tədbirləri sayəsində təhsilin müxtəlif pillə və səviyyələrində inkişaf prosesi baş verdi. Müstəqil Azərbaycanın təhsil siyasətinə uyğun olaraq onun dünya təhsil sisteminə inteqrasiya olunması və qabaqcıl təcrübələrin mübadilə olunması, eyni zamanda onun milli təhsil sisteminə uyğunlaşdırılaraq tətbiqi zəruri şərt kimi diqqət mərkəzində saxlanılmışdır [3].

Bu dövrdə təhsil sahəsində müsbət tendensiyaların inkişaf etdirilməsi diqqət mərkəzində olmuşdur. Təhsilin inkişafında iki sahə – nəzəri və praktik sahənin inkişaf etdirilməsi üzrə məqsəd və vəzifələr müəyyənləşdirilmiş, tədbirlər planı hazırlanmışdır. Bu tədbirlər planına əsasən, təhsilin bütün pillə və səviyyələri yenidən nəzərdən keçirilmiş və yeniliklər üçün əsas istinadgah olan hüquqi-normativ baza yaradılmışdır.

Yeni təhsil proqramlarının (kurikulumların) hazırlanması (ümumi təhsilin bütün səviyyələri, eləcə də məktəbəqədər təhsil pilləsi üzrə) istiqamətində görülmüş işlər islahat dövrünün müsbət nailiyyətlərindəndir. Ümumi təhsilin məzmununun yenilənməsi və genişləndirilməsi sahəsində aparılmış işlər, yeni təlim texnologiyalarının tətbiqi və təhsilin idarə olunmasının müasir tələblər əsasında yenidən qurulması təhsil sistemində baş verən irəliləyişlərin mühüm göstəricisidir.

İbtidai təhsilin inkişaf tarixinə həsr olunmuş tədqiqatlara pedaqoji ədəbiyyatda çox rast gəlinmir. İbtidai təhsilin, ümumiyyətlə, təhsilin inkişaf tarixi prof. M.Mərdanovun "Azərbaycan təh-

sil tarixi" adlı çoxcildliyində, akad. H. Əhmədovun "Azərbaycan məktəb və pedaqoji fikir tarixi", prof. F. Rüstəmovun "Pedaqogika tarixi" adlı dərsliklərində daha çox işıqlandırılmışdır.

İbtidai təhsilin inkişaf problemləri araşdırılarkən onun ümumi təhsil sistemindən ayrıca bir sistem kimi tədqiq olunmadığını müşahidə edirik. Bununla yanaşı, ibtidai təhsilin praktik cəhətdən inkişafına kömək edəcək qiymətli tədqiqat əsərləri yazılmış və indi də yazılmaqdadır. Fənlərin tədrisi metodikası, tədris texnologiyaları, müəllimləri praktik cəhətdən təkmilləşdirəcək mühüm mənbələr mövcuddur.

İbtidai təhsilin müstəqil bir sahə kimi tədqiqi, fikrimizcə, artıq vacib problemdir. Təhsilin ilk pilləsi olan ibtidai təhsilin prinsip, metod, qanun və qanunauyğunluqları dəqiqləşdirilməli və bir sistem halına salınmalıdır.

**ədəbiyyat**


1.İbtidai məktəblərin proqramları. Bakı: "Azərnəşr", 1947.
2.İbtidai siniflərin proqramları. (elmi red. Y.Ş.Kərimov). Bakı: "Gənclik", 1996.
3.Mərdanov M.C. Azərbaycan təhsil tarixi. III cild. (müstəqillik illəri). Bakı: "Təhsil", 2011.
4.Mərdanov M.C. Azərbaycan təhsil tarixi. II cild. Bakı: "Təhsil", 2011.
5.Rüstəmov F.A. Pedaqogika tarixi (Xarici ölkələrdə təhsil və pedaqoji fikir tarixi). Dərslik. Bakı: "Nurlan", 2006.



**Краткий обзор истории начального образования в Азербайджанской Республике**

**резюме**

В статье описывается краткая история развития начального образования и рассматривается пути развития начального образования. Изучая развитию теории начального образования, мы наблюдаем, что она не исследуется, как отдельная область в системе общего образования. В связи с этим существуют некоторые сложности связанные с подходом к проблемам начального образования. Отмечается, что в Азербайджане изложение краткой истории начального образования находит свое отражение в научных трудах известных ученых и педагогов. В данной статье исследуется история начального образования и дается её краткое описание.



**A brief overview of the history of primary education in the Republic of Azerbaijan**

**summary**

The article describes a brief history of the development of basic education and examines the development of primary education. By studying the development of the theory of elementary education, we observe that it is not investigated as a separate area in the general education system. In this regard, there are some difficulties associated with the approach to the problems of primary education. It is noted that in Azerbaijan the presentation of a brief history of primary education is reflected in the scientific works of famous scientists and teachers. This article explores the history of primary education, and given it a brief description.


# MÜƏLLİM OLACAQ TƏLƏBƏLƏRİN ETNOPEDAQOJİ HAZIRLIĞI


**Sədaqət Əliyeva,**
ADPU-nun baş müəllimi , pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** müəllim, tələbə, etnopedaqoji hazırlıq, etnopedaqoji fəaliyyət, etnopedaqoji mədəniyyət;

**ключевые слова:** учитель, студент, этнопедагогическая подготовка, этнопедагогическая деятельность, этнопедагогическая культура;

**key words:** teacher, student, ethnopedagogical preparation, ethnopedagogical activities, ethnopedagogical culture.


Dil, tarixi yaddaş və milli mədəniyyət xalqın mentalitetinin üç zəruri dayağıdır. Gənc nəslin doğma dilindən, mədəniyyətindən və xalqının ənənəvi həyat tərzindən uzaqlaşması əxlaqi dəyərlərin zəifləməsinə, əsrlərlə formalaşmış əxlaqi-etik anlayışların itirilməsinə gətirib çıxarır.

Xalqın gələcəyi gəncliyin mənəvi potensialından – xeyirxahlığından, düzgünlüyündən, ədalətliliyindən və vətənə məhəbbətindən asılıdır.

Son zamanlar xalqın ənənəvi mədəniyyətinə maraq xeyli artmışdır. Bu maraq ənənəvi mədəniyyətin özünüdərketmə vasitəsi rolunu oynayır. Tərbiyə sahəsində də xalq ənənələrinin dirçəlməsi və yetişməkdə olan nəslin sosiallaşması prosesi baş verir. Bu gün cəmiyyətdəki sosial dəyişikliklər insan fəaliyyətinin mənəvi əsasları və normalarına yenidən baxılmasını tələb edir. Təhsildə milli ənənələr sferasının təşkilinə istiqamətlənmiş etnomədəni yanaşmanın təsdiqi baş verir. İctimai həyatda baş verən böyük dəyişikliklər də öz növbəsində cəmiyyətin güzgüsü olan təhsil sisteminə güclü təsir göstərir.

Cəmiyyətin demokratikləşməsi, təhsil sisteminin qarşısında yeni vəzifələr qoyur ki, buraya əxlaqi dəyərlər sistemi, sosial normalar, dil, din, tarixi yaddaş, doğma torpaq haqqında təsəvvürlər, xalq incəsənəti və s. daxildir. Milli-mədəni dirçəliş şəraitində müasir elm və təcrübədə xalq müdrikliyinin tətbiqinə geniş yer verilməlidir. Burada əsas rolu milli mədəniyət elementlərinə malik olan təhsil oynaya bilər və oynamalıdır. Müasir dövrdə həyat özü pedaqogika elminin qarşısında çoxəsrlik pedaqoji təcrübənin öyrənilməsi və tətbiqi kimi aktual məsələlər qoyur. Yetişməkdə olan nəslin tərbiyəsi və formalaşması kimi aktual məsələlərə xalq pedaqogikası vasitəsi ilə təsirin inandırıcı rolu göstərilir.

Təhsil və tərbiyənin məzmununun vacib elementi milli mədəniyyət və milli dildir. Bu həqiqəti dərk edərək müasir tərbiyə sistemində tez-tez xalq pedaqogikası irsinə müraciət olunmalıdır.

Yüksək mədəniyyətli və əxlaqlı şəxsiyyətin formalaşdırılması cəmiyyətimizin ən mühüm problemlərindən biridir. Xalqın intellektual və mənəvi potensialını müəyyən edən milli təhsilin dirçəlişi təhsil sisteminin yeniləşdirilməsinin tərkib hissələrindən biridir. *Etnopedaqogika* pedaqoqlara xalq mədəniyyəti və pedaqogikasının müasir tədris-tərbiyə sistemində istifadə imkanlarını və ümumi qanunauyğunluqlarını öyrənən elm kimi böyük imkanlar yaradır. Onun üçün etnopedaqoji fəaliyyəti müasir tələblər səviyyəsində həyata keçirməyi bacaran ixtisaslı kadrlar lazımdır və təhsil sisteminin bütün pillələrində müxtəlif səviyyəli uşaq kontingenti ilə işləməyi bacaran pedaqoqların etnopedaqoji və etnopsixoloji hazırlığını gücləndirmək zəruridir. Bu problemin əhəmiyyəti müəllimin ənənəvi tərbiyə mədəniyyətinə cəlb olunması və əsrlərlə cilalanmış xalq pedaqoji təcrübəsinə düzgün müraciəti ilə əlaqədardır. Müəllim xalq pedaqogikasına dair biliklərlə zənginləşərək gənclərin həqiqi tərbiyəçisinə çevrilə və gənc nəsildə xalq pedaqogikasına məhəbbət yarada, onun zənginliyindən istifadə etmək bacarığı tərbiyə edə bilər.

Tələbələrin xalq ənənələrini təbliğ edən tədbirlərdə iştirakı etnopedaqoji mədəniyyətin formalaşmasının didaktik şərtlərindən biridir. Gələcək pedaqoqların xalq pedaqogikasından istifadə ilə etnopedaqoji hazırlığı məsələləri sosial-tarixi, sosial-mədəni və regional nöqteyi-nəzərdən aktualdır. Müəllimin etnopedaqoji fəaliyyətinə zəmin yaratmaq üçün ali məktəblərdə etnopedaqoji hazırlığın nəzəri və metodoloji əsasını, onun effektivliyinin təmin edən pedaqoji şərtləri müəyyənləşdirmək lazımdır.

Mütəxəssislərin etnopedaqoji hazırlığının məzmununa öz milli mədəniyyətinin və vətəndaşlığının dərk edilməsi sahəsində imkanların reallaşdırılması daxildir. Bunun üçün milli xarakterin və milli özünüdərketmənin formalaşmasına imkan yaradan doğma dilin, doğma mədəniyyətin, etnomədəni biliklərin öyrənilməsinə diqqət artırılmalıdır. Bununla əlaqədar olaraq, etnopedaqogika müasir şəraitdə xalq tərbiyəsi təcrübəsinin daha intensiv nəzəri və praktik aspektlərini işləyib hazırlayır. Sosial-pedaqoji təcrübədə xalq pedaqoji mədəniyyəti təcrübəsindən səmərəli istifadə edilməlidir. Sosial-pedaqoji təcrübə etnopedaqoji potensialın lazımi dərəcədə nəzərə alınmasını tələb edir.

Gələcək müəllimlərin etnopedaqoji hazırlığı sosial pedaqogika və etnopedaqogikanın qarşılıqlı əlaqəsinə əsaslanır. Sosial pedaqogika onun həm nəzəri, həm metodiki səviyyədə qavranılması prosesində etnopedaqogikadan istifadəni təmin edir. Bundan əlavə, pedaqogika elminin bu iki

sahəsinin qarşılıqlı təsiri sosial pedaqogikanın və etnopedaqogikanın predmetlərinin yaxınlığı ilə şərtlənmişdir (insanın cəmiyyətdə və cəmiyyət üçün tərbiyəsi). Metodiki səviyyədə etnopedaqogikadan istifadə etnopedaqogika vasitələrinin müasir sosial-pedaqoji təcrübədə istifadəsi ilə şərtlənmişdir. O, öz fəaliyyət dairəsinə etnopedaqoji biliklərə, bacarıqlara, vərdişlərə inteqrativ yiyələnməni daxil edir, pedaqoqlara təsirdə, sosial mühitdə, həmçinin sosial-pedaqoji təcrübədə etnopedaqogikanın imkanlarından, qavranılmış bilik və bacarıqlardan məhsuldar istifadə etmək imkanı verir.

Gənc pedaqoqların vəzifəsi yetişən nəsildə milli özünüdərketməni formalaşdırmaq, ümumbəşəri dəyərlər sistemini inkişaf etdirmək, milli etnosun rolunu anlamaq məqsədilə tədris-tərbiyə prosesini qurmaqdır. Bundan başqa, müasir dövrdə tərbiyə prosesinə xalqın tərəqqipərvər ənənələrini, onun fəlsəfəsini, mədəniyyətini, ən yaxşı xalq pedaqoji ideyaları daxil olmaqla milli üslubda tərbiyəsini daxil etməkdir.

Gələcək müəllimlərdə formalaşdırılması vacib olan zəruri etnopedaqoji keyfiyyətlər bunlardır: doğma dili və milli mədəniyyəti dərindən bilmək, xalqın mənəvi həyatını dərk etmək, xalq adət və ənənələrinə, milli özünəməxsusluğuna hörmət, xalq yaradıcılığına məhəbbət, doğma diyara sədaqət, təbiətə məhəbbət, yüksək mədəniyyət, zəngin mənəviyyat , təlim-tərbiyə prosesində xalqların mənəvi dəyərlərindən, etnopedaqoji mədəniyyətindən istifadə etmək, mədəni dünyagörüşünün genişlənməsinə tələbat, çoxşaxəli bədii düşüncə və xalq yaradıcılığını qiymətləndirmək bacarığı, həyati planları etnomədəni ideyalar əsasında formalaşdırmağa tələbat və s.

Etnopedaqoji mədəniyyət müəllimin etnopedaqoji fəaliyyətinin göstəricisidir və təhsilin humanistləşdirilməsi, dünyagörüşün zənginləşdirilməsi, geniş psixoloji-pedaqoji görüşlər, onları təcrübədə yaradıcı şəkildə tətbiq edən dərin etnopedaqoji bilik və bacarıqlar, öyrənilən obyektə emosional-dəyərli münasibət, etnopedaqoji intuisiya, etnopedaqoji fəaliyyət prosesinə azad ünsiyyət mövqeyindən yanaşma, nəticədə etnopedaqoji problemlərin məhsuldar, estetik və sərbəst həllini özündə birləşdirməsidir.

Etnopedaqoji mədəniyyət xalqın ənənəvi pedaqoji mədəniyyətini mənimsəməyi xarakterizə edən, onun dəyərlərinin tərbiyəvi mahiyyətini anlayan, onlardan müasir təlim və tərbiyə təcrübəsində yerində istifadə etməyi bacaran sosial-pedaqoji fenomendir.

Etnopedaqoji fəaliyyət müəllimin ənənəvi pedaqoji mədəniyyətinin imkanlarından uşaqların müxtəlif kateqoriyalarının təliminin, dərketmə maraqlarının səviyyə və xarakterinin yüksəlməsində səmərəli istifadədir.

Etnopedaqogika gənc nəslin tərbiyə mənbəyi olmaqla müasir dövrdə də öz aktuallığını itirmir. Bu gün təlim-tərbiyədə folklor çox zəruri bir amil kimi öz mövqeyini qoruyur.

Xalq pedaqogikası materiallarından istifadə pedaqoqlardan böyük bacarıq və diqqət tələb edir. Bu gün etnopedaqoji təcrübəyə malik olan ixtisaslı pedaqoji kadrların hazırlanmasının böyük əhəmiyyəti vardır. Müəllim kadrlarının hazırlanmasında bunun nəzərə alınması vacibdir. Bu, onlarda xalqın ənənəvi pedaqoji mədəniyyətinin nəzəri və təcrübi biliklər sisteminin formalaşdırılmasına maksimal təsir edə bilər.

Müasir pedaqogika elminin vacib problemlərindən biri xalq tərbiyəsinin, pedaqoji ideyaların öyrədilməsi və qiymətləndirilməsidir. Xalq ənənələrinə müsbət münasibət həyatın tələbidir. Müasir etnomədəniyyətin yeni keyfiyyətlərini və milli məktəbin təlim-tərbiyə sistemində mövcud təcrübənin yeniləndiyini dərk etmək vacibdir. Bu, müasir tərbiyə problemlərinin həllində çox səmərəlidir. Gənc nəslin tərbiyəsinin uğurlu inkişafı müəyyən dərəcədə xalqın pedaqoji mədəniyyətinin, mənəvi dəyərlərinin öyrənilməsindən və şəxsiyyətin formalaşdırılmasında xalqın tərbiyə təcrübəsindən istifadə etmək bacarığından asılıdır. Bununla əlaqədar xalq ənənələrinin dirçəlməsinə və öyrənilməsinə kəskin tələbat yaranmışdır.

Heç bir elm xalqın pedaqoji dühası ilə müqayisə edilə bilməz. Ona görə də yeni şəraitdə, xalq pedaqogikasının mahiyyətini, əhəmiyyətini yeni şərtlərlə əsaslandırmaq, bərqərar etmək,

möhkəmləndirmək lazımdır. Xalqın ağıllı və faydalı ənənələrindən imtina edilməməlidir. Bu ənənələri məhv etmək, onların xarabalıqları üzərində yeni, bayağı ənənələr yaratmaq, xalqa yad olan dərketmə və yarımçıq yeni məzmun millətin mənəvi məhvinə səbəb ola bilər. Pedaqoq xalqın mənəvi sərvətinə və xalq ruhuna etinasız münasibətə yol verməməlidir. Xalq pedaqogikası tərəqqidən, müsbət ideyalardan, tələbatlardan, normalardan bəhrələnərək yeni şəraitdə şəxsiyyətdə yeni xarakter xüsusiyyətlərinin, əxlaq qaydalarının formalaşmasını təmin edir.

Xalq pedaqogikası tərbiyə funksiyalarına xüsusi diqqət yetirməyi tələb edir. Təəssüf ki, son zamanlar tərbiyə təhsilə qurban getmiş, intellekt ön plana çəkilmiş, xarakterin formalaşması, mənəviyyatın inkişafı unudulmuş və ya arxa plana keçmişdir.

**ədəbiyyat**


1. Əliyeva S. Xalq pedaqogikasında tərbiyə məsələləri. Bakı, 2012.
2. Həşimov Ə.Ş. Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə. Bakı: “Maarif”, 1991.
3. Əliyev İ. Azərbaycan etnopedaqogikası. Bakı, “ Elm və təhsil”, 2009.
4. İsmayılov A. M. Şifahi xalq ədəbiyyatında tərbiyə məsələləri. Bakı: “Maarif”, 1976.
5. Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, “Azərnəşr”, 1990.
6. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı. Bakı, 1994.
7. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, “Elm və təhsil”, 2014.
8. Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı, “Patronat”, 1993.



**Этнопедагогическая подготовка будущих педагогов**

**резюме**

В статье рассказывается об этнопедагогической подготовке будущих педагогов в современной воспитательной работе. Отмечается, что старшее поколение всегда широко воспользовал этнопедагогических материалов в воспитании молодого поколения .

**Ethnopedagogical preparation of future teachers**

**summary**

The article describes the ethnopedagogical preparation of future teachers in modern educational work. It is noted that the older generation is always well to take advantage of ethnopedagogical materials in educating the younger generation.


# İBTİDAİ SİNİF MÜƏLLİMİ OLACAQ TƏLƏBƏLƏRİN HAZIRLANMALARININ TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİRİ


**Vaqif Kərimov,**

ARTPİ-nin müəllim hazırlığı kurikulumu şöbəsinin aparıcı
elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: k.vagif@rambler.ru





**açar sözlər:** təhsil sistemi, islahat proqramı, təlim, pedaqoji proses, ibtidai sinif müəllimi, gələcək müəllim, ixtisasartırma, pedaqoji ustalıq, təlimin keyfiyyəti;

**ключевые слова:** система образования, программа реформы, обучение, педагогический процесс, учитель начальных классов, будущий учитель, повышение квалификации, педагогическое мастерство, качество обучения;

**key words**: education system reform program, training, pedagogical process, a primary school teacher, future teacher, professional development, pedagogical skills, the quality of teaching.


Azərbaycan Respublikasının təhsil sistemində aparılan islahatlar onun məzmununa, strukturuna və idarə olunmasına yenilik gətirmişdir. “Fasiləsiz müəllim hazırlığının konsepsiyası və strategiyası”nın qəbul olunması bu sahədə əsaslı işlərin aparılmasını istiqamətləndirir.

Müəllim hazırlığı, nəticə etibarilə,mühüm sosial prosesin predmeti kimi bütün görüşlərdə, konfranslarda müzakirə edilir, kütləvi informasiya vasitələrinin diqqətini cəlb edir. Müxtəlif layihələrin müəlliflərinin rəylərinə görə, onların tətbiqi yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını təmin etməlidir.

Təhsil sahəsində qəbul olunmuş İslahat Proqramında "demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə prinsiplərinə əsaslanaraq, təhsilalanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsilalanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması" mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bu vəzifənin yerinə yetirilməsindən məqsəd Azərbaycan təhsilini bütün istiqamətlərdə yenidən qurmaqla inkişaf etmiş ölkələrin təhsil sistemlərinin səviyyəsinə çatdırmaqdan ibarətdir. Bu məsələnin vacibliyi hələ 1999-cu ildə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının iclasında ulu öndər Heydər Əliyevin çıxışında xüsusi olaraq vurğulanmışdır: "İndi bizdə təhsil sahəsində aparılan islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın".

Respublikamızın ümumi təhsil sahəsində baş verən dəyişikliklər, ali təhsil sisteminin məzmunundakı yeniliklər müəllim kadrların hazırlanmasında xüsusi yer tutan pedaqogika fənni üzrə proqram, dərslik, dərs vəsaitlərində və tədrisdə yeni tələblərə uyğun təkmilləşdirmə aparılmasını zəruri edir.

Müasir cəmiyyət sağlam, iti düşüncəyə, dövlətçilik və vətəndaşlıq mövqeyinə malik, çevik, operativ qərarlar qəbul etməyə hazır olan, rəqabətəqabil qurucular tələb edir. Ölkəmizdə həyata keçirilən təhsil islahatlarının reallaşdırılmasında başlıca ağırlıq, şübhəsiz, müəllimlərin üzərinə düşür. Bunu nəzərə alaraq tədqiqatımızı ali məktəblərdə gənc müəllimlərin hazırlanması probleminə həsr etmişik.

Ümummilli lider H.Əliyev müəllimlikdən danışarkən demişdir: "Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Ali məktəb müəllimi, professor cəmiyyətdə ən hörmətli insan olmalıdır. Ona görə də mən çox arzu edərdim ki, sizin hamınız bu şərəfli adı həmişə, ömrünüzün axırına qədər daşıyasınız".

Görkəmli Azərbaycan maarifçisi və ictimai xadimi S.M.Qənizadə yazmışdır: "Müəllimlik dünyanın ən nəcib peşələrindən biri, bəlkə də birincisidir. Bağ bağbansız keçinə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz keçinə bilməz... Hünərli ustad dəmirdən səbr ilə misri qılınc yona bildiyi kimi, yaxşı müəllim də kəctab millətdən xoşbəxt cəmiyyət hazırlayır".

Böyük çex pedaqoqu Y.A.Komenski müəllimi günəşə bənzədərək demişdir: "Günəş öz şüaları ilə canlı aləmə həyat verdiyi kimi, müəllim də öz saçdığı bilik şüası ilə gənc nəsli həyata hazırlayır".

Müəllimin cəmiyyətdə rolundan bəhs edən K.D.Uşinski yazmşdır: "Əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, müəllimlərə uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və bütün bunlarla bərabər, öz vətənimizin gələcəyini etibar edirik". Daha sonra o, pedaqoqun uşaqlara təsirindən bəhs edərək demişdir: "Tərbiyəçinin cavan ruha təsiri elə bir tərbiyə qüvvəsidir ki, heç bir cəza və rəğbətləndirmə onu əvəz edə bilməz".

Problemin mahiyyəti yalnız ali məktəblərdə tələbələrin təhsil almalarını təmin etməkdən ibarət deyil. Məqsəd tələbələrə nəzəri məlumatlar vermək, onları pedaqoji, psixoloji, metodik biliklərin incəliklərinə yiyələndirmək, ibtidai siniflərdə, liseylərdə, kolleclərdə, pedaqoji təmayüllü orta ixtisas məktəblərində, ali məktəblərdə dərs deyə bilən kadr kimi hazırlamaqdır.

Müəllim olacaq tələbənin şəxsi peşə keyfiyyətləri ümumi mədəniyyət, erudisiya, fənn bilikləri və bacarıqlarının müntəzəm təkmilləşdirilməsi, ədalətlilik, tələbkarlıq, uşaqlara məhəbbət, müşahidəçilik, diqqətlilik, pedaqoji takt kimi keyfiyyətləri əhatə edir.

Pedaqoji prosesdə tələbələrə uşaqlara sevgi və məhəbbətin, hörmət və tələbkarlığın aşılanması xüsusilə böyük əhəmiyyət kəsb edir. Tələbə anlamalıdır ki, uşaqlara tələbkarlığı azaltmadan hörmət etmək, mehribanlıq göstərmək onların qəlbində müəllimi ucaldır, ona hörmət və məhəbbəti artırır.

Tələbə cəmiyyətin əxlaqi-etik normalarına yiyələnməli, ziyalılıq keyfiyyətlərinə, ağıl, ünsiyyət, hörmət və tələbkarlığın vəhdətinə nail olmalı, yüksək dünyagörüşünə istinadən hadisə və prosesləri təhlil etməyi, qiymətləndirməyi bacarmalı, milli və ümumbəşəri mədəniyyətə yiyələnməlidir.

Tələbə özününəzarətə diqqətlə yanaşmalıdır. O, unutmamalıdır ki, xarici görkəmi, geyimi estetik cəhətdən səliqəli olmalı, hərəkət və davranışlarında qeyri-estetikliyə yol verməməlidir.

A.S.Makarenko demişdir: "Mənim təcrübəmdə sizin üçün, mənim üçün belə "boş şeylər" həlledici olmuşdur: necə dayanmalı, necə oturmalı, stuldan, stolun arxasından necə qalxmalı, səsini necə qaldırmalı, necə gülümsəməli, necə baxmalı? Bunu bizə heç kəs öyrətməyib, əslində isə bunu öyrətmək olar və öyrətmək lazımdır, böyük ustalıq bundadır və bunda olmalıdır!" Müəllim olacaq tələbələrə dövrün mühüm pedaqoji problemlərini fərqləndirməyi, məktəbin, pedaqoji fikrin ictimai-sosial inkişafın tələblərinə necə cavab verdiyini, təlim-tərbiyə nəzəriyyəsi və təcrübəsinə necə nüfuz etdiyini, yeni pedaqoji ideyaların məktəb təcrübəsinə, onun gələcək inkişafına, nailiyyətlərinə necə təsir göstərdiyini öyrətmək lazımdır.

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, şagirdlərin təhsil keyfiyyəti ilk növbədə müəllimlərin fəaliyyətlərinin keyfiyyətindən asılıdır. Ona görə də pedaqoji təhsil verən ali və orta ixtisas məktəblərində gələcək müəllimlərin səmərəli hazırlanmaları ön plana çəkilməlidir. Təhsil sistemində bir paradiqmadan başqasına keçilməsi sistemli olmalıdır. Tədris fəaliyyətində tələbələrin göstəricilərinin fərqləndirilməsinə müəyyən təhsil paradiqmasının, təhsil situasiyasından asılı olaraq, digər paradiqmasına keçilməsinin nəticəsi kimi baxılır.

Müəllim olacaq tələbənin psixoloji hazırlığı mühüm əhəmiyyət kəsb edir. Müəllimlik peşəsinə yiyələnmək üçün tələbə psixoloji biliklərə malik olmalı, gələcəkdə müəllim yoldaşları ilə və şagirdlərlə davranışında ünsiyyət mədəniyyətinin incəliklərini gözləməlidir.

Prof. Ə.Əlizadə qeyd etmişdir: "Oxumağı öyrətmək önəmli psixoloji-pedaqoji paradiqmadır. Bu paradiqma XIX əsrdə əmələ gəlib, XX əsrdə ümumi şəbəkəsinin genişləndiyi bir şəraitdə həmişə gur səslə səslənib, lakin onun mahiyyəti, bir qayda olaraq, hafizə kökündə şərh olunub, özünəməxsus normativ qaydalar da əmələ gəlib. Onları öyrətməyin səmərəli yolları kimi mənalandırsalar da, bu yollar həmişə bir vasilədə – hafizə vəsiləsində kəsişib, ancaq və ancaq yaddasaxlamanın məramına xidmət edib". Tələbə uşaqların diaqnostikasını aparmağı bacarmalı, fərdi psixoloji xüsusiyyətlərini öyrənməlidir. Pedaqoji cəhətdən məqsədyönlü, psixoloji cəhətdən təhlükəsiz mühit təlimin normal təşkilini təmin edir.

Şagirdlər arasında anlaşılmazlıq, müəyyən fikir ətrafında mübahisə, adicə narazılıq, küskünlük, dalaşmaq, bir-birinə zərər yetirmək halları baş verdikdə müəllim necə hərəkət etməli olduğunu bilməlidir.

Problemin mahiyyətini aydın dərk etmək üçün tədrisin keyfiyyətini öyrənmək və onu daha da yaxşılaşdırmaq məqsədilə müxtəlif yollar axtarıb tapmaq lazımdır. Bu baxımdan tələbələr müəyyən bacarıqlara yiyələnməlidirlər.

- Ali pedaqoji məktəbin tələbələri pedaqoji mülahizələri barədə yoldaşlarına, müəllimlərinə, yeri gəldikdə valideynlərinə məlumat verirlər.
- Onlar başqalarının pedaqoji mühakimə və mülahizələrini, strategiyalarını öyrənir, təhlil edir və dəyərləndirirlər.
- Tələbələr yeni təlim texnologiyalarını mükəmməl öyrənir, onların tətbiqinin pedaqoji prosesin səmərəliliyinin yüksəldilməsinə təsirini müəyyənləşdirir, təcrübədə tətbiq edirlər.

• Onlar böyüyən nəslin əqli, mənəvi, fiziki, estetik, ekoloji, iqtisadi, hüquqi, əmək tərbiyəsinin nəzəriyyəsi və texnologiyası ilə bağlı təqdimatlar hazırlayır, təlim prosesində, pedaqoji təcrübədə (keçirəcəyi tərbiyəvi söhbətlərdə, ictimai xarakterli tədbirlərdə) tətbiq edirlər.

• Tələbələr təhsilin məzmununu müəyyənləşdirməyə imkan verən kurikulumları (proqramları), onların növlərini fərqləndirir, ənənəvi proqramlardan üstünlüyünü dərk edirlər.

• Onlar müəllimlik peşəsinə verilən tələbləri, pedaqoji qabiliyyətləri, əməyin stimullaşdırılması məsələlərini şərh edir, pedaqoji fəaliyyətə yararlılığı fərqləndirir, peşə vəzifələrini yerinə yetirmək üçün pedaqoji-psixoloji diaqnostikadan istifadə bacarığını nümayiş etdirirlər.

• Tələbələr fəal dərs, onun mərhələləri, şagirdlərin müstəqil iş formaları, müəllimin fasilitator mövqeyini şərh edir, pedaqoji-psixoloji dəstəyin həyata keçirilməsi metodlarına yiyələndiklərini nümayiş etdirirlər.

Deməli, problemin mahiyyəti müəllim olacaq tələbələrin öz peşələrinə necə yiyələnmələri, təlim prosesini necə idarə etmələri, keyfiyyətin yüksəldilməsi üçün mülahizələri əhatə edir. Sonrakı tədqiqatımızın məzmunu bunlarla bağlıdır.

Problemlə əlaqədar həmişə alimlərin qiymətli fikirləri olmuşdur, lakin yeni layihələr, kurikulumların tətbiqi, müasir texnologiyalar, təlimdə inteqrasiya, müasir prinsip, vasitə, metod və priyomlardan istifadə problemə baxışı xeyli dəyişmiş, asanlıqla dəyərli ideyalar irəli sürməyə imkan verməmişdir.

XX əsrin sonu – XXI əsrin başlanğıcında təhsildə səmərəliliyin artırılmasının elmi, pedaqoji-psixoloji əsaslarının işlənilməsi alimlərin əsas tədqiqat obyektinə çevrilmişdir.

Azərbaycan pedaqoq, psixoloq və metodistləri pedaqoji kadrların hazırlanması ilə əlaqədar həmişə axtarışlar aparmış, diqqəti cəlb edən nəticələrə gəlmişlər. Muradxanlı M.G., Əlizadə Ə.Ə., Talıbov Y., Abbasov A.N., Abbasov Ə.M., Ağayev Ə.Ə., Əliyev R., Bəylərov E., Cəfərova L., Əhmədov A.Ə., Mərdanov M., Mehrabov A.O., Məmmədova B.S., Hacıyev A.X., Muradov N.Ş., Əmirəliyeva İ.B., Eminov T., Mehdiyeva N., Fərzəliyeva A.X., Heydərova F.Q., Süleymanova A., Gərayev Ə., Haqverdiyeva K., Hüseynov R., Yusifova S. və başqalarının tədqiqatları təqdirəlayiqdir.

Rus alimlərindən Krasnov S.İ., Qrebnyov İ.K., Mulyavina E.A., Malışeva N.K., Popov A.İ., Şeremetyeva O.Y., Şaydenko N.A., Fatıxova R.M. dəyərli fikirlər söyləmişlər.

Şübhəsiz, problem Avropa alimlərinin də diqqətini cəlb etmişdir. Pedaqoji ədəbiyyatda *pedaqoji ustalıq, metodiki ustalıq* anlayışlarının mahiyyəti barədə V.İ. Zaqvyazinski, V.A.Kan-Kalik, D.N.Nikandrov, M.V.Skatkin, V.A. Slarte anlayışın daha geniş olduğunu bildirirlər. Onların fikrincə, pedaqoji ustalıq pedaqoji qabiliyyətləri, ümumi mədəniyyəti, səriştəliliyi, geniş təhsilliliyi, psixoloji savadı və metodik hazırlığı özündə birləşdirir.

A.V.Suxomlinski demişdir: "Alim tərəfindən edilmiş kəşf insanlar arasındakı qarşılıqlı münasibətlərdə, düşüncə və emosiyalarda canlanan zaman müəllimin qarşısına çoxsaylı həll yolları olan mürəkkəb məsələ kimi çıxır. Müəllimin yaradıcı əməyi də bu üsulun seçilməsindən, nəzəri həqiqətlərin canlı, insani düşüncə və emosiyalarla həyata keçirilməsindən ibarətdir".

S .A. Kərimova müəllim kadrlarının hazırlanmasında müəllim–tələbə münasibətlərinin rolunu yüksək qiymətləndirir. O, yazır: "Ali məktəbdə pedaqoji kollektiv öz işinə vicdanla yanaşdıqda, təlim-tərbiyə prosesini idarə etməyi bacardıqda, müəllimlər nəzəri və metodik hazırlığa, pedaqoji ustalığa yiyələndikdə, müəllim–tələbə münasibətlərini düzgün qurduqda Azərbaycan müəlliminə xas olan ən yaxşı keyfiyyətləri özlərində cəmləşdirdikdə, pedaqoji prosesin demokratikləşdirilməsi və humanistləşdirilməsi qayğısına qaldıqda həm müəllim peşəsini seçən, həm də pedaqoji fakültələrə təsadüfən daxil olan tələbələr müəllimlik peşəsinə bağlanır, yaxşı oxuyur, yaxşı müəllim olmağa çalışırlar."

A.Əhmədov bildirir ki, fənlərin məzmunundakı təkrarlar, çətinliklər təlimin keyfiyyətinə diqqət yetirməyə maneçilik törədir. Onun təbirincə, şagirdlər həddən artıq məlumatları əzbərləməklə

öyrənmək məcburiyyətində qalırlar. Cəmiyyət üçün lazım olan bilik və bacarıqların öyrənilməsinə az əhəmiyyət verilir. Şagirdlərə tənqidi düşünmə, fikir yürütmə qabiliyyəti aşılanmır. O, yazır: "Doğrudanmı əsas məqsəd həyati bacarıqların aşılanmasından daha çox, fənlər daxilində şagirdlərə müəyyən biliklər verməkdən ibarətdir? Hazırda məktəblərdə əksər müəllimlər şagirdlərə az qala öz fənləri üzrə potensial ... kimi yanaşırlar..."

Ə.Abbasov bu fikri təsdiq edir. O, yazır: "Praktik əhəmiyyət daşıyan bacarıq, vərdiş və qabiliyyətlər arxa plana keçir, fənnin elmi potensialı artır, məlumatlılıq səviyyəsi çoxalır. Şagirdlər özlərinə praktik cəhətdən lazım olmayan fundamental bilikləri öyrənmək məcburiyyəytində qalırlar."

Prof. Y.Ş. Kərimov yazır: "Bu gün hər bir sinif müəllimi, hətta ən zəif müəllim dərsdə yüksək fəallıq yaratmaqdan, şagirlərin müstəqilliyini təmin etməkdən qaçır. Özü müstəqil, fəal olmayan müəllim belə bir vəzifənin öhdəsindən necə gələ bilər? Məqsəd aydınlığı müəllimi daim düşünməyə, araşdırmağa, yaratmağa istiqamətləndirməlidir ".

Müəlliflərin bir qrupu kurikulumlar (proqramlar) və onlardan istifadə yollarını göstərmişlər. Bunların şərhi müəllim olacaq tələbələrin inkişafında mühüm rol oynayır.

V.Slarte və İ.İsayevin qənaətinə görə, "pedaqoji ustalıq" ifadəsi pedaqoji fəaliyyətin inkişafının yüksək səviyyəsini, pedaqoji texnologiyalara yiyələnməni ifadə edərək, eyni zamanda, ümumilikdə müəllimin səviyyəsini, onun təcrübəsini, vətəndaşlıq və peşə mövqeyini özündə əks etdirir. Müəllimin peşə ustalığı prosesin yüksək səmərəliliyini müəyyən edərək, şəxsiyyətin şəxsi işgüzar keyfiyyətlərinin və xassələrinin sintezidir.

Prof. F.Rüstəmovun fiktrincə, müəllim olacaq tələbə psixi prosesləri özündə daşıyan şəxsiyyətdir. "Tələbəlik dövründə məntiqi hafizə daha da inkişaf edir. Yaddasaxlamanın sürəti, möhkəmliyi, dəqiqliyi artır, diqqət daha çox ixtiyari xarakter daşıyır, diqqətin davamlılığı, bölünməsi, keçirilməsi, mərkəzləşməsi kimi psixi proseslər daha artıq inkişaf edir."

Həsənov A. və Ağayev Ə. yazmışlar: "Müəllim işinin mahiyyəti yalnız biliyə yiyələnməkdə deyil, eyni zamanda şəxsiyyətin yaradıcısı, insanda intellekti təsdiq etdirən ali məqsədi yerinə yetirməkdir. Bu səbəbdən müasir müəllimlərdən yüksək vətəndaşlıq məsuliyyəti, ictimai fəallıq, uşaqlara çox yüksək məhəbbət, şəxsi nümunə, ziyalılıq, mənəvi mədəniyyət, başqaları ilə birlikdə işləmək tələb olunur."

Krasnov C.R., Malışeva N.V. müəllimlərin innovasiya fəaliyyətinə hazırlığı məsələsi üzərində dayanaraq belə bir qərara gəlirlər. "Məlum oldu ki, müəllimlərin idarəetmə bacarıqlarının şəbəkəsi nə qədər yüksək olarsa, onların innovasiya fəaliyyəti də o qədər yüksək olar." O.Y.Şeremetyev təhsil paradiqmasının gələcək müəllimlərin hazırlıq səviyyələrinin yüksəldilməsi faktoru olduğunu göstərmişdir. O, tədqiqatı yekunlaşdırarkən belə bir qənaətə gəlir: "Təhsil paradiqmasının sistemli şəkildə realizə edilməsi təlim prosesinin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəltməyə imkan verir. Aydın olmuşdur ki, imtahan nəticəsində tərdis planının, proqramın məzmununun, tələbənin tədris və elmi fəaliyətinini bir neçə istiqamətdə təkmilləşdirilməsinə şərait yaranır."

Milyakina E.A., Omerenko İ.N. qeyd edirlər: "Tələbələr yaradıcı prosesə fəal qatılaraq müstəqil işlərin yeni müasir formalarını həvəslə qəbul edirlər."

Dünya təcrübəsi göstərir ki, təhsildə innovativ fəaliyyətin təşkili forması onun iştirakçılarının subyektivliyinin inkişafı üçün şəbəkə formasıdır. Şəbəkəli təşkilat dedikdə, ideal təşkilat tipi başa düşülür. Bu, prinsipial, bərabərhüquqlu və asılı olmayan partnyorların sərbəst əlaqə şəbəkəsi ilə xarakterizə olunur.

Pedaqoji təmayüllü ali məktəblərdə müəllim hazırlığının vəziyyəti orada işləyən müəllimlərin hazırlıq səviyyəsindən asılıdır. Müəllim hazırlığı ilə uzun illər məşğul olan, saysız-hesabsız müəllim kadrları yetişdirən ilk təhsil ocağı Azərbaycan Dövlət Pedaqoji Universitetidir. Müşahidələr göstərir ki, orada da ibtidai təlim fakültəsinin professor-müəllim heyəti zəif olmaqla günün tələblərinə cavab vermir.Yüksək elmi dərəcəsi olan görkəmli alimlər, əsasən ixtisas fənləri ilə əlaqədar fakültələrdə işləyir, ibtidai təlim fakültəsində dərs deməyi özlərinə sığışdırmır, imtina edirlər. Tə-

əccüb doğuran hal budur ki, həmin müəllimlər mühazirə oxuyarkən yalnız özlərinin müdafiə etdikləri problem üzrə nəzəri biliklər verməklə kifayətlənirlər. Həmin müəllimlərlə müsahibə zamanı məlum oldu ki, ibtidai məktəbin proqram və dərslikləri ilə tanış olmadıqları üçün işləyə bilmirlər.

Ali pedaqoji məktəblərin ibtidai təhsil fakültələrinə ən aşağı bal toplamış, digər fakültələrə, institutlara qəbul oluna bilməyən gənclər gəlirlər. Onlar iki il ərzində müstəqil tədris fəaliyyətinə yiyələnə bilmirlər. Halbuki, ali təhsilin əsas vəzifəsi özünütəhsil, özünüinkişaf, innovasiya qabiliyyətinə malik olan mütəxəssislərin formalaşdırılmasıdır. Təəssüf ki, müəllimlər ənənəvi təhsildə olduğu kimi, yalnız hazır biliklər verməklə kifayətlənirlər. Müasir dövrdə ali təhsildə baş verən reforma mahiyyət etibarilə təlim paradiqmasının təhsil paradiqmasına keçməsi ilə bağlıdır. Tələbənin müstəqil işi təhsil prosesinin əsasıdır. Müstəqil işin yerinə yetirilməsinə və nəticələrinə nəzarət ən zəif məqamlardan biridir. Bir çox alimlər müstəqil işi tədris fəaliyyətinin idarə olunmasını təmin edən pedaqoji şəraitin təşkili sistemi kimi başa düşürlər.

Deyilənlərdən aydın olur ki, müəllimlik peşəsinə yiyələnmək üçün ali məktəbə gələn abituriyentlər minimum hazırlığa malik olmurlar. Halbuki, "Müasir təhsil müstəvisində şagirdin bir şəxsiyyət kimi fəaliyyətə cəlb olunması, onun ehtiyac və maraqlarının əsas götürülməsi, pedaqoji problemlərin həllində müəllimlərlə əməkdaşlığı, yaradıcı və təşəbbüskar rolu xüsusi olaraq nəzərə alınır."

Pedaqogika nəzəriyyəsi, mükəmməl didaktik biliklər müəllim olacaq gənclərə onlara pedaqoji-psixoloji cəhətdən formalaşmaları, ali məktəblərdə elmi-təşkilati idarəetmənin qaydaya salınması, gələcəkdə rəhbər işçilərin tələblərinə əməl etmələrinə, lider kimi formalaşmalarına istiqamət verir.

Problemin həlli prosesində ali məktəb tələbələri ilə yanaşı, ibtidai sinif şagirdlərinin də təcrübi fəaliyyəti öyrənilməlidir. Ali məktəb müəllimləri ilə sinif müəllimləri arasında təcrübə mübadiləsinin yolları öyrənilməli, məktəbin fəaliyyət dairəsi ilə tanışlıq, müxtəlif regionlarda yeniliklərin xarakteri nəzərə alınmalıdır. Qabaqcıl təcrübənin öyrənilməsi, təhlili, yayılması təmin edilməli, müəllimlərin mətbuatda təcrübə mübadiləsi aparmaları tövsiyə olunmalıdır.

Bütün bunlar həyata keçirilərsə, ali məktəblərdə müəllim hazırlığının, dərsliklər, dərs vəsaitləri və resursların, nəticə etibarilə təlimin keyfiyyətinin yüksəlməsi təmin edilər.

**ədəbiyyat**


1."Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: " Hüquq ədəbiyyatı", 2009.

2. Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı çərçivə kurikulumu. Bakı, 2008.

3. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası. "Azərbaycan müəllimi"qəzeti, 2006-cı il, fevralın 17-si.

4. Abbasov A.N., Əlizadə Ə.Ə. Pedaqogika. Bakı: "Renessans", 2000.

5. Abbasov Ə.M. Qloballaşma şəraitində ilkin müəllim hazırlığının başlıca istiqamətləri. ("Pedaqoji kadr hazırlığı: problemlər, vəzifələr" mövzusunda beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2009.

6. Kazımov N.M. Pedaqoji ustalığın əsasları. Ali məktəblər üçün vəsait. Bakı: "Çaşıoğlu", 2009.

7. Kərimov V.Y.Tələbə şəxsiyyətinin formalaşması müəllim hazırlığının mühüm amili kimi. "Məktəbəqədər və ibtidai təhsil", Bakı, 2015, №3.

8. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: "Çaşıoğlu", 2009.

9. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: "Mütərcim", 2010.

10. Макаренко А.С. Сочинения. т.5, Москва, 1958.


**Влияние повышения подготовки квалификации учителей начальных классов на качество обучения**

**резюме**


В статье рассказывается о влиянии повышения подготовки квалификации учителей начальных классов на качество обучения. Отмечается, что теория педагогики, дидактические знания направляет молодых учителей с точки зрения формирования научно-организационное управление в будущем и соответствует формированию их как лидер, отвечающий требованиям современной школы. Также следует отметить, что в процессе решении проблемы, нужно рассматривать пути обмена опыта между учителей высших школ и учителями начальных школ.

При знакомстве с деятельностью школы, должно учитываться характер и уровень инновации разных регионов. Должно быть обеспечена изучение, анализ и распространение передовой практики. Отмечается, что если все эти требования реализуются, в конечном счете, улучшится качество обучения.

**Effect of increasing the initial training of teachers' qualifications classes on the quality of education**

**summary**

The article describes the impact of raising the qualification training of primary school teachers on the quality of education. It is noted that the theory of pedagogy, didactic knowledge directs young teachers in terms of the formation of scientific and organizational management in the future and corresponds to the formation of them as leader, meeting the modern requirements of the school. It should also be noted that in the process of solving the problem, you need to consider ways of sharing experience between teachers of high school and primary school teachers. When meeting with school activities, should take into account the nature and level of innovation in different regions. the study should be provided, analysis and dissemination of best practices. It is noted that if all those requirements are implemented, ultimately, improve the quality of teaching.

## ***MƏKTƏBƏQƏDƏR TƏHSİL***

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNİ İDARƏ EDƏN MÜTƏXƏSSİSLƏRİN HAZIRLAMASININ MODELLƏŞDİRİLMƏSİ

**Azadə Əhmədova,**
ARTPİ-nin dissertantı
E-mail:azada.ahmadova123@mal.ru



**acar sözlər:** modelləşdirmə, idarəetmənin modeli, pedaqoji proses, tədqiqat, pedaqoji diaqnostika, məqsədyönlü idarəetmə, yeni texnologiyalar, eksperimental qruplar;

**ключевые слова:** модернизация, модели управления, педагогический процесс, исследование, педагогическая диагностика, целенаправленное управление, новые технологии, експериментальные группы;

**key words:** modernization, management model, the pedagogical process, a study pedagogical diagnostics, targeted management, new technologies, experimental group .

Müasir pedaqoji elmlərdə modelləşdirmə elmi-tədqiqatın ən geniş yayılmış metodlarından biri kimi təqdim olunur. Modelləşdirmə metod və vsitələri idarəetmədə müvəffəqiyyətlə tətbiq olunur. Hazırda məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasının vahidliyini təmin edən mexanizm yoxdur. Tədqiqatların nəticələri məktəbəqədər müəssisələrdə pedaqoji əsaslarla qurulması, onun mövcud əlaqələrinin modeli səviyyəsində müəyyən edilib. Bu əlaqələri modelin köməkliyi ilə həyata keçirmək olar. Tədqiq edilən obyektin strukturunu müəyyənləşdirmək üçün birmənalı anlayış və münasibətlərin məcmusunu tapmaq zərurəti yarandı. Tədqiqatın nəzəri əsaslarının işlənilməsi məktəbəqədər müəssisələrdə pedaqoji prosesin idarə olunmasının yeni modelinin qurulmasını tələb edir.

***Model*** sözü (latınca *modulus–ölçü, nümunə*) geniş mənada hər hansı obyektin, prosesin, hadisənin əvəzləyicisi kimi istifadə olunan obrazdır. Bu nümunədən hər hansı obyekt və ya obyektlər sisteminin müəyyən şəraitdə təqdimatı zamanı istifadə olunur.Təsvir, sxem, çertyoj, qrafik, plan, riyazi ifadə – başqa sözlə: model– real obyektin sadələşdirilmiş oxşarıdır.

Modelləşdirmə – obyektin modelinin köməyilə orijinalın əsas xüsusiyyətləri barədə məlumatın alınması üçün bir obyektin başqası ilə əvəz edilməsidir. Beləlikiə, modelləşdirmə – obyekti model vasitəsilə təsvir etmək və onun modeli üzərində eksperiment aparmaqla həmin obyekt haqqında məlumatın alınması deməkdir. Bir qrup obyektin (orijinalların) başqa qrup obyektlə (modellərlə) əvəz olunması və obyektlərin xüsusiyyətlərinin onların modelləri üzərində tətbiqi ***modelləşdirmə nəzəriyyəsi*** adlanır. Əgər modelləşdirmənin nəticələri təsdiq olunursa, tədqiq edilən obyektlərdə gedən proseslər barəsində proqnozlara əsas verirsə, bu, həmin modelin obyektə adekvat olması deməkdir. Bu zaman modelin adekvatlığı modelləşdirmənin məqsədindən və qəbul edilmiş meyarlardan asılı olur.

Modelləşdirmə metod və vasitələri idarəetmədə müvəffəqiyyətlə tətbiq olunur. Modelləşdirmə həm müxtəlif elmi istiqamətlərin ümumi cəhətlərini, həm də onların məzmun xüsusiyyətlərini nəzərə almağa imkan verdiyindən bu metodun köməyi ilə elmin mühüm sahəsini – müasir elmi biliklərin sintezi məsələsinin həlli mümkün olmuşdur. Mahiyyət etibarilə modelləşdirmə anlayışı elmi idrakla eyniləşdirilir – obyektin dərk edilməsi onun modelləşdirilməsi kimi qəbul olunur.

Müasir dövrdə məlumatın alınması əsasında qərarların qəbul edilməsinə əsaslanan müxtəlif sistemlərin idarə olunması sahəsində müəyyən dərəcədə modelləşdirmə metodlarından istifadə olunur. Modelləşdirmənin metodoloji əsası dialektik-materialist metodudur. İnsan fəaliyyətinin istiqamətləndirildiyi hər bir əşya, hadisə *obyekt* adlandırılır. Metodologiya şüurumuzdan asılı olmayaraq mövcud olan, öz aralarında və ətraf mühitlə qarşılıqlı əlaqədə olan obyektlər haqqında məlumatın alınması və nizamlanmasına yönəlmişdir.

***Model*** anlayışı əvvəlcə texniki və təbiət elmlərində meydana gəlib. Pedaqogikada *model* obyekt anlayışının analoqudur və əlamət, fakt, əlaqə, biliyin müəyyən sahəsində sadə formada münasibəti, həmçinin təhlil, nəticə üçün uyğunluğu və əlçatanlığı əks etdirməlidir. Beləliklə, *elmi model* özlüyündə tədqiq olunan hadisənin mücərrəd ifadəsini təqdim edir. Buna görə də pedaqoji prosesin diaqnostik əsasda idarəolunma modelinin qurulması üçün öyrənilən proses üzvi surətdə əlaqəli və fəaliyyətlərin mahiyyəti tam müəyyən olunaraq təqdim edilməlidir.

İstənilən model aşkar görünməlidir. ***Model*** anlayışından istifadənin bütün cəhətlərində aşağıdakıları fərqləndirmək lazımdır:

1. Model elmi dərketmənin bir vasitəsidir.
2. Model həmişə hər hansı münasibətdə rahat olan və öyrənmə üçün müəyyən edilən obyektə bilikləri ötürə bilən orijinalın əvəzedicisi kimi çıxış edir.
3. Model mövcud struktur xüsusiyyətləri ilə və müəyyən münasibətlərlə səciyyələnən sistemdir.
4. Model prototip xüsusiyyətləri əhatə edən tədqiqat obyekti kimi əhəmiyyətlidir.

Məktəbəqədər müəssisələrdə pedaqoji prosesin idarə edilməsi məqsədilə qurulmuş model səmərəli nəticələrə nail olmaq üçün görülən işlər haqqında ümumi təsəvvürləri qoruyub saxlayan normativ modeldir.

Bu növ model, ümumiyyətlə, məktəbəqədər təhsil müəssisəsində pedaqoji prosesin idarəolunma mexanizmini əks etdirir və normativ metodoloji məna daşıyır.

Tədqiqat aləti kimi idarəetmənin modeli məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin sadə formada təhlili üçün onun spesifik xüsusiyyətlərini, əlaqə və münasibətlərini əks etdirir. Biz istənilən modelə verilən tələbləri (orijinal sistemə oxşarlıq, uyğunluq, məqsədyönlülük, subyektivizmin olmaması) nəzərə aldıq.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesdə yeni texnoloqiyaların tətbiqinə məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin tərkib hissəsi kimi baxılır. Məktəbəqədər müəssisələrdə pedaqoji prosesin idarəedilməsində aşağıdakılar nəzərə alınmışdır:

– pedaqoji prosesin idarəolunmasını ümumtəhsil məktəbi ilə qarşılıqlı əlaqədə öyrənməyin zəruriliyi;

– elmi cəhətdən əsaslandırılmış pedaqoji prosesin idarəolunmasına təsir edən obyektiv və subyektiv şərtlərin nəzərə alınması.

Məktəbəqədər müəssisələrdə pedaqoji prosesin təşkilinin obyektiv şərtlərinə müəssisənin maddi vəziyyəti, texniki bazası, pedaqoji prosesin təşkili sistemi, sosial mühit, pedaqoji işçilərin və uşaq kontingentinin xüsusiyyətləri daxildir. Subyektiv şərtlər pedaqoji işçilərin və müəssisə rəhbərinin maarifləndirici və peşəkarlıq səriştəliliyinin, mənəvi-psixoloji iqlim xüsusiyyətlərinin, pedaqoji prosesin, metodik işin təşkili səviyyəsinin, kollektivin tərbiyəvi imkanlarının, həmçinin uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınmasını əhatə edir.

Məktəbəqədər müəssisələrdə müəssisə rəhbərinin və pedaqoji işçilərin pedaqoji prosesi idarə etmə fəaliyyəti, aparılan təhlillər göstərdi ki, inkişaf prosesi idarə etməni dəyişdirir. İndiki halda bir tərəfdən, məktəbəqədər müəssisələrdə pedaqoji prosesin idarə olunmasının xarakteri bu prosesin inkişafına səbəb olur, digər tərəfdən, müəyyən etdiyi pedaqoji prosesi yeni pedaqoji texnologiyalar əsasında həyata keçirir.

Məktəbəqədər müəssisələrdə idarəetməni modelləşdirilməsinin obyekti pedaqoji prosesdir.

Tədqiqat prosesində tədqiqat obyektinin quruluşunun – məktəbəqədər müəssisələrdə pedaqoji prosesin diaqnostik əsasda idarəolunmasının eynimənalı anlayış və münasibətlərinin məcmusunun tapılması, onun komponentləri və mövcud əlaqələrinin model səviyyəsində qurulması zərurəti yarandı.

Aparılan nəzəri tədqiqatlar diaqnostik mərhələnin idarəetmənin ümumi strukturuna aid olduğunu müəyyən etməyə imkan verdi. Pedaqoji diaqnostikaya məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasının zəncirivari sistemi (diaqnostika–məqsədyönlülük– planlaşdırma–təşkiletmə–nəzarət–tənzimləmə–diaqnostika–korreksiya) kimi baxmaq olar.

Müasir dövrdə aparılan elmi tədqiqatlarda anlayışın mahiyyətinin müəyyənləşdirilməsində müxtəlif yanaşmalardan istifadə edilir. Müasir psixologiya elmində fəaliyyətin sistemli qurulması məsələləri əhəmiyyətli dərəcədətədqiq olunub. Fəaliyyətə insanın ətraf aləmlə qarşılıqlı əlaqəsi kimi baxılır ki, bu zaman qarşıya qoyulmuş məqsəd şüurlu surətdə həyata keçirilir. Fəaliyyət məqsədin şüurlu dərk edilməsi, şəxsiyyətin tələbatları ilə şərtlənir.

Fəaliyyətin məqsədi obyektivdir, lakin şəxsiyyətyönümlü yanaşma əsasında işlənmişdir. Fəaliyyətin ikinci alt strukturu –fəaliyyətə arzu və marağın dərk edilməsi, onun motivləridir.

Beləliklə, insan fəaliyyətinin strukturunda bacarıq fəaliyyət metodları ilə bağlıdır və bu, mövcud komponentin subyektiv tərəfidir.

Pedaqoji prosesin idarə olunmasının genezisinin nəzəri cəhətdən dərk edilməsi üçün biz modelləşdirməni seçdik. Bu, onunla izah olunur ki, model vasitəsilə elementlərin, tədqiq edilən pedaqoji prosesin idarə olunmasının alt sistemləri arasında asılılığın xarakterini anlamaq, sintez etmək və idarəetmənin ən səmərəli komponentlərini aşkarlamaq daha asandır.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarəolunması üzrə fəlsəfi, psixoloji-pedaqoji ədəbiyyat, həmçinin məktəbəqədər təhsil sistemində pedaqoji təcrübənin real vəziyyəti öyrənilərkən, biz idarəetmənin mahiyyətinin başa düşülməsində sistemli yanaşmaya əsaslanırdıq.

Tədqiqatın gedişində müəyyən olundu ki, məktəbəqədər təhsil müəssisəsində idarəetmə sosial cəhətdən pedaqoji sistemin mürəkkəb əməliyyatları, onun inkişafı, yeni, keyfiyyərli səviyyəyə keçidi təmin edən fəaliyyətin xüsusi növüdür.

Biz müəyyənləşdirdik ki, hazırda məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasının vahidliyini təmin edən mexanizm yoxdur. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasına sistemli yanaşmanı təmin etmək üçün obyektin çətinliklərinə və subyektin imkanlarına uyğun modelin işlənib hazırlanması zəruridir.

Beləliklə, məktəbəqədər müəssisələrdə keyfiyyətin təmin olunması üçün pedaqoji prosesin idarə edilməsi mexanizminin hazırlanması mühüm vəzifə kimi qarşıda durur.

Sosial-iqtisadi şəraitin dəyişdiyi müasir mərhələdə məktəbəqədər təhsilin məqsəd və vəzifələrinin təhlili idarəetmənin nəzəriyyəsi və təcrübəsi əsasında müəyyənləşdirilmiş modelin bütün dəyərli cəhətlərinin götürülməsi və istifadə edilməsinə imkan verdi.

Şəxsiyyətin inkişaf prosesinin məqsədyönlü idarə edilməsi kimi başa düşülən təlim-tərbiyənin şəxsiyyətyönümlü modelinin reallaşdırılması tədqiqatın məqsədlərini müəyyən etməyə, idarəetmə modelinin hazırlanmasına aparan prioritet araşdırmanın məqsədlərini müəyyən etdi.

Təqdim edilən modelin aparıcı qüvvəsi pedaqoji prosesin tamlığının dinamik, pozitiv dəyişikliklərini daşıyan məktəbəqədər müəssisə rəhbərləri və tərbiyəçilərdir.

Məktəbəqədər təhsil sistemində idarəetmə aşağıdakı müddəalara əsaslanır:

– məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkilinin spesifikliyi;

– pedaqoji işçilərin məktəbəqədər dövrün dəyərlərinə istiqamətləndirilməsi, qarşılıqlı pedaqoji təsir sistemində subyekt-subyekt münasibətlərinin formalaşdırılması;

–pedaqoji kollektivdə idarəetmə funksiyalarının koordinasiyası;

–konkret pedaqoji texnologiyaların məzmununun hazırlanmasında, təcrübi-eksperimental işlərin tətbiqi və gedişində alimlərin, praktik pedaqoqların əməkdaşlığı.

Biz bu xüsusiyyətlərə əsaslanaraq, idarəetmə modelinə verilən əsas tələbləri müəyyənləşdirdik:

–dəyişən ictimai-iqtisadi və pedaqoji şəraitə uyğunlaşmaq;

–idarəetmə subyektlərinə, yeni struktur sisteminə vaxtında inteqrasiya imkanı;

–məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə edilməsinin təqlidi xarakterinin istisna olunması, yaradıcı fəaliyyət üçün şəraitin yaradılması, sərt tənzimləmənin çərçivə funksiyalarının aradan qaldırılması.

–qurulmuş model əsasında pedaqoji prosesin idarəolunmasının səmərəlilik səviyyəsinin müəyyənləşdirilməsi üçün müxtəlif sistemlərin çətinliyi; idarəetmənin qanunauyğunluqlarının özünəməxsusluğunun müəyyən edilməsi.

Modelin əsası məktəbəqədər müəssisədə pedaqoji prosesin idarəolunması təcrübəsində mövcud idarəetmə fəaliyyətinin elementləri, nəzəri fərziyyələri üzərində qurulur.

Beləliklə, model tədqiq edilən hadisənin mahiyyətinin mücərrəd ifadəsini təqdim edir. Buna görə də diaqnostik əsasda pedaqoji prosesin idarəolunma modelinin yaradılması üçün öyrənilən prosesin mahiyyətinin üzvi surətdə daxili bağlılığının və tam fəaliyyət göstərməsinin aşkara çıxarılması zəruridir.

Tədqiqat prosesində məktəbəqədər müəssisələrdə pedaqoji prosesin diaqnostik əsasda idarə olunmasının, onun komponentlərinin , mövcud bağlılıqlarının tədqiq edilən obyektin strukturunu müəyyənləşdirərək, mümkün olan birmənalı anlayış və münasibətlərin məcmusunu tapmaq zərurəti yarandı.

Modelin tərkibi məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasının mahiyyətini aydınlaşdıran mövqeləri müəyyən edir. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkilinə müəyyən elementlərdən ibarət olan mürəkkəb sistem kimi baxılır. Belə elementlər

(məqsəd, vəzifə, məzmun, vasitə, forma və metodlar) pedaqoji prosesin obyektləridir. Bu elementləri qarşılıqlı əlaqəli istiqamətlərdə birləşdirmək olar.

Beləliklə, pedaqoji prosesin idarə olunması üzrə təklif edilən model 5 istiqamətdən ibarətdir:

**Birinci istiqamət** – məqsəd, vəzifə, məzmun, vasitə, forma, pedaqoji prosesin metodlarını və onun yeni pedaqoji texnologiyaların tətbiqi şəraitində təşkili xüsusiyyətini müəyyən edir.

**İkinci istiqamət** idarəetmənin subyektlərinin (məktəbəqədər təhsil müəssisəsi rəhbərinin, pedaqoji işçilərin, uşaqlar və onların valideynlərinin) qarşılıqlı fəaliyyətini təklif edir.

**Üçüncü istiqamətdə** idarəetmə tipi, pedaqoji prosesin idarəolunmasının prinsipləri, funksiyaları, metodları əks olunur.

**Dördüncü istiqamətdə** pedaqoji kollektivə rəhbərlik formaları müəyyən olunur;

**Beşinci istiqamətə** isə idarəetmə obyektinin vəziyyəti və subyektin imkanlarını müəyyən edən şərtlər daxildir.

Göstərilən istiqamətlər birlikdə və qarşılıqlı əlaqədə məktəbəqədər təhsilin yeniləşdirilməsi şəraitində məktəbəqədər müəssisələrdə pedaqoji prosesin idarə olunmasının kompleks modelini təşkil edir. İstiqamətlərin qarşılıqlı əlaqəsi məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin daha səmərəli və nəticəli idarə edilməsi üçün zəruri zəmindir. Pedaqoji prosesin iştirakçılarının fəaliyyəti onun bütün mərhələlərində uşaqların təlim-tərbiyə və inkişafında alınan nəticələri müəyyən edir.

Pedaqoji prosesin idarəolunmasının müəyyən edilmiş modelinə məktəbəqədər müəssisələrdə pedaqoji prosesin təşkili üzrə idarəetmə təcrübəsi və tərəfimizdən aparılmış eksperimental tədqiqatın nəticələri daxildir. Model məktəbəqədər təhsilin məzmununda, sosial-mədəni, iqtisadi dəyişikliklər də daxil olmaqla, daim dinamik inkişafdadır. Buna görə də məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunması üçün təklif edilən modeldə sonrakı dəyişikliklər və təkmilləşmələr də nəzərə alınır.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin yeni məzmunda idarə olunmasının mahiyyətinin nəzəri cəhətdən öyrənilməsi və belə idarəetmənin normativ modelinin qurulması alınmış nəzəri nəticələrin korrektəsinə, idarəetmə modelinin səmərəliliyinin təsdiqinə və ya onu inkar etməyə əsas verən təcrübi-eksperimental işlə əlaqəlidir .

Pedaqoji prosesin məktəbəqədər təhsil müəssisəsinin rəhbəri tərəfindən idarə edilməsi pedaqoji işçilərin təkmilləşdirilməsinə, həmçinin idarəetmənin yeni formada qurulmasına və tənzimlənməsinə yönəldilmişdir. Pedaqoji prosesin tərbiyəçilər tərəfindən idarə edilməsi qarşılıqlı pedaqoji köməyin göstərilməsinə, pedaqoji uşaq şəxsiyyətinin inkişafının stimullaşdırılmasına istiqamətlənib. Buna görə də idarəetmə modelinin nəticəliliyi məktəbəqədər təhsil müəssisəsində pedaqoji kollektivin və uşağın fəaliyyətindəki dəyişikliklərlə müəyyən edilir. Normativ model əsasında qurulmuş təcrübi-eksperimental işin gedişində məktəbəqədər müəssisələrdə pedaqoji prosesin idarə edilməsinin təşkilati xüsusiyyətləri, məzmunu müəyyən edildi və dəqiqləşdirildi. Təcrübi-eksperimental işin məntiqi cəhətdən əlaqəli 3 mərhələsi var.

**Birinci mərhələdə** məktəbəqədər müəssisənin rəhbəri və pedaqoji işçilərinin təhsilin yeniləşdirilməsi şəraitində pedaqoji prosesin idarə olunmasına hazırlıq səviyyəsinin təhlilini, pedaqoji prosesin inkişafının optimal şərtlərinin axtarışı nəzərdə tutulur. **İkinci mərhələ** tədqiqat prosesinin planlaşdırılmasını obyekt və predmetin konkretləşdirilməsini, məqsəd və onun vəzifələrlə açılmasını, fərziyyənin dəqiqləşdirilməsini, eksperimental və kontrol müəssisələrin müəyyənləşdirilməsini, qrupları idarəetmənin modelini, eksperimental-təcrübi işin nəticələrinin proqnozlaşdırılmasını, fəaliyyət prosesində onun mənfi cəhətlərinin korreksiyanın zəruriliyini təxmin edirdi. Təcrübi mərhələ məktəbəqədər müəssisədə qurulmuş idarəetmə modelinin reallaşdırılmasından, hər mərhələdə formalaşdırıcı fəaliyyətin nəticələrinin izlənilməsindən ibarət idi.

**Üçüncü mərhələdə** eksperimentin nəticələrinin kəmiyyət və keyfiyyət cəhətdən təhlili, onların proqnozlaşdırılmış və arzu edilən nəticələrinin müqayisə edilməsi, fərziyyənin korreksiyası, eksperimental-təcrübi işin gedişi və nəticələrinin təsviri həyata keçirildi.

**ədəbiyyat**

1.Mehrabov A.O.   Müasir təhsilin metadoloji  problemləri. Bakı: “Mütərcim”, 2012.
2.Həsənov A.M.    Məktəbəqədər pedaqogika. Bakı: “Mütərcim”, 2007.
3.Mehrabov A.O.  Azərbaycan  təhsilinin müasir problemləri. Bakı : “Mütərcim”, 2007.
4.Подласый Н.П.  Педагогика (новый курс) Москва: «Владос», 1999.

**Моделирование подготовки специалистов управляющие**
**дошкольных образовательных учреждений**
**резюме**

В статье моделирование представлено в качестве одного из наиболее распространенных методов научного исследования современных педа-гогических наук. Отмечается,  что методы и инструменты моделирования, успешно применяются в управлении,  но  в данном этапе дошкольные учреждения  не имеют механизма для обеспечения единства управления учебных заведений в учебном процессе. Исследования, проведенные с этой целью выявила необходимость найти набор понятий и отношений для диагностического  управления педагогического процесса в дошкольных учреждениях, ее компонентов, определил  уровень моделирования.

**Simulation training managers professionals**
**preschool educational institutions**
**summary**

In the article modeling is presented as one of the most common methods of scientific research of modern pedagogical sciences. It is noted that the methods and simulation tools are used successfully in the management, but in this stage of the pre-schools do not have a mechanism to ensure the unity of management education in the learning process. Research carried out for this purpose identified a need to find a set of concepts and relationships for the diagnostic management of the pedagogical process in preschool, its components, determined the level of simulation.

# ***<u>FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ</u>***

## ÜMUMİLƏŞDİRİCİ DƏRSLƏRDƏ FƏAL/İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ

**Rüstəm Əşrəfov,**
Sumqayıt Dövlət Universitetinin müəllimi, dosent
e-mail: rustameshrefov@gmail.com



**açar sözlər:** didaktika, təlimin prinsipləri, ümumiləşdirici dərs – təlimin təşkilat forması kimi, fəal interaktiv təlim metodları, qruplarla iş;

**ключевые слова:** дидактика, учебные принципы, обобщающий урок – как форма организации обучения, активные и интерактивные методы обучения, работа в группах;

**key words:** didactics, educational principles, the general lesson – as a form of training, active and interactive teaching methods, working groups.

Dünyada baş verən dərin ictimai-siyasi, mədəni dəyişikliklər təhsilin fəal təlim əsasında aparılmasını, ayrı-ayrı fənlərin proqramlarının kurikulumlarının tələblərinə uyğun öyrədilməsini aktuallaşdırır. Bu, həlli yolları axtarılan ciddi təhsil sistemi Azərbaycan dilinin tədrisində müasir metod, priyom və vasitələrdən istifadə olunmasını tələb edir. Əsas tələb dinləyib-anlama, danışma, oxu, yazı və dil qaydaları məzmun xətləri üzrə təlim nəticələrinin həllini tapmağa istiqamətləndirilir. Azərbaycan dili fənni üzrə təhsil proqramında (kurikulumda) bu məsələ vacib tələb kimi nəzərdə tutulmuş, şagirdlərin dinlədikləri məlumatları ümumiləşdirmə bacarıqlarını formalaşdırmaq təlimin nəticəsi kimi göstərilmişdir.

Мялумдур ки, цмумиляшдирижи дярсдя тягдим олунан анлайышларын мянимсянилмяси, нязяри материалларын язбярлянмяси гаршыуа гойulmuş мягсядин щяйата кечирилмясини тямин етмир. Яксиня, шаэирдляр Азярбайжан дили üzrə цмумиляшдирижи дярслярдя тягдим олунан щяр щансы факт вя щадисянин фяргли жящятлярини мцяййянляшдирмяйи, айры-айры фактлардан цмумиляшdirilмиш нятижяляр чыхармаьы, башга сюзля – нязяриййядян təcrübəyə, təcrübədən нязяриййяйя keçid етмяйи бажармалыдырлар.

"Цмумиляшдирижи дярслярдя нязяри материаллар практик чалышмаларын кюмяйи иля дяриндян мянимсядилир, газанылан биликляр мющкямляндирилир, орфографийа вя нитг инкишафы сащясиндя зярури вярдишляр formalaşdırılır. Мцяллим щям дярсликлярдяки чалышмалардан, щям дя ещтийаж olдугда мязмунунда, гурулушунда, дяйишикliklər апармагла щазырладыьы мцхтялиф характерли чалышмалардан истифадя едир" [2, səh.61] .

Мязмун мятндя ифадя олунан биткин фикир, форма ися щямин мязмуну əhatə едян мадди габыгдыр. Бу бахымдан цмумиляшдирижи дярслярин тяшкилиндя мязмун вя форманын гаршылыглы ялагясиня ясасланмаг, онлары вящдятдя эютцрмяк сон дяряжя важибдир.

Цмумиляшдирижи дярслярин тяшкили заманы, IV sinifdə дярсин гурулушуна аид нцмуняви планын тяхмини схеми беля верилмишдир: [4, səh.10.]

**I. Motivasiya**

- гаршыйа гойулмуш мягсядя наил олмаг;
- дил материалларыны гаршылыглы ялагядя нязярдян кечирмяк;
- цмuмиляшдирмядян тякжя мювжуд биликляри sistemləşdirmək мягсядиля йох, щям дя йени мялуматлар ялдя етмяк, нятижя чыхармаг цчцн истифадя етмяк;
- шаэирдляря дил материалынын yalnız защири яламятлярини йох, həm də башлыжа və цмуми жящятлярини мцяййянляшдирмяйи юйрятмяк;
- цмумиляшдирмя заманы мцгайисялярдян эениш истифадя етмяк;
- цмумиляшдирмя заманы мцмкцн олан бцтцн щаллары нязярдян кечирмяк вя чалышмаларын рянэарянэliyini тямин етмяк.

IВ синифдя «Нитг щиссяляри» бящси tədrisindən сонра цмумиляшдирижи дярсдя шаэирдлярин фикир мцбадиляси апармаларыны тямин етмяк мягсядиля груплар цзря иш тяшкил олунur. Şagirdlər hяр група 5 няфяр олмагла 4 група ayrılırlar: *«Исим», «Сифят», «Явязлик», «Феіл»* командалары. Синифдя парталар еля дцзцлцr ки, шаэирдляр цз-цзя яйляшsиnляр. Щяр групун лидери сечилиr.

Цмуміляшдирижи дярсин мювзусу йазы тахтасындан асылыr, мягсяди изащ олунуr. Sтолларын ıstünə щяр бир командaнын нюмряси, ады йазылмыш лювщяжикляр qoyulur. Dərsin axırında hər командaнын жавабы гиймятляндирилir.

**II. Tədqiqatın aparılması**

Бу мярщялядя nитг щиссяляри иля баьлы айры-айры мювзуларын суалларына диггят йетирилір. Бу просес нятижясиндя шаэирдляр нязяри мясяляляри təcrübədə тятбиг едирляр.

Щяр командадан бир няфяр зярфин ичярисиндян мювзуйа аид карточкалардан бирини чыхарыр вя orada yazılan суаллара жаваб верирляр. Айры-айры мювзуларла баьлы суаллар белядир:

**I qrup «Исим» командасы**

1. Исим няуі билдирир?
2. Исим щансы суаллара жаваб verir?
3. Тяк вя жям исимляр нежя фярглянир?
4. Хцсуси исимляр цмуми исимлярдян ня иля фярглянир?
5. Исмин щаллары щансылардыр?
6. *Байраг* вя *кяпяняк* сюзляри щалланаркян hansı hallarda sözün axırındakı ***г*** самити ***ь*** самитиня, ***к*** самити ***й*** самитиня кечир?

**ЫЫ груп «Сифят» командасы**

1. Сифят няуі билдирир?
2. Сифят щансы суаллара жаваб верир?
3. Сифят жцмлядя щансы нитг щиссяси иля баьлы олур?
4. Исимдян сифят дцзялдяндя щансы шякилчилярдян истифадя олунур?
5. Щансы шякилчилярин кюмяйи иля фелдян сифят дцзялир?
6. Яввялиндя *ян, чох, даща* сюзляри ишлянян сифятляря аид бир нечя нцмуня дейин.

**ЫЫЫ груп «Явязлик» командасы**

1. Явязлик няйі bildirir?
2. Явязлик щансы нитг щиссяляринин йериня ишлянир?
3. Шяхс явязликляри щансылардыр? Суалыны дейин.
4. Ишаря явязликляри щансылардыр? Суалыны дейин.
5. Шяхс явязликляри щансы нитг щиссяси кими щалланыр?
6. *О, бу* явязлийини щям шяхс, щям дя ишаря явязлийи кими ишлядин.

**ЫВ груп «Феіл» командасы**

1. Феіл няйі bildirir? Щансы суаллара жаваб верир?
2. Феіл нежя дяйишир?
3. Фелин нежя заманы вар?
4. Исим вя сифятдян фел дцзялдян шякилчиляр щансыlаrдыр?
5. Фелин индики заманы щансы шякилчиляри гябул едир?
6. Фелин кечмиш заманы щансы шякилчиляри гябул едир?
7. Фелин эяляжяк заманы щансы шякилчиляри гябул едир?
8. Мясдяр nəyi bildirir və onun щансы яламятляри вар ?

Няр команданын жавабларына уйьун гиймятляр верилір.

**III. Məlumat mübadiləsi və müzakirəsi.** Бу мярщяля кечилмиш мювзулар цзря tapşırıqların yerinə yetirilməsi вя дцшцндцрцжц суалларын жавабларынын тапылмасына щяср олунур. Nятижядя шаэирдляр айры-айры нитг щиссяларинə aid шеирлярин кюмяйі иля təcrübədən нязярийййяуə, щиссялярдян тама доьру щярякят едиб, ягли нятижяуя эялирляр.

**«Исим» командасы**

Бу дцнйада ня варса–
*Аьаж, торпаг, даш, адам,*
Щяр шей, щяр шей исимдиr.
Исим аддыr, мян адам.

***

*Эцняш* мяням, *ай* мяням,
*Булаг* мяням, *чай* мяням.

***«Сифят» командасы***

Сифятям, щяр бир шейин
Яламяти мяням, мян.
Црйя дцшян щясрят,
Сача дцшян дяням мян.

***

Щям *саьлам*, щям *хястяйям,*
Щям *сойуг,* щям *истийям.*

*Сямайам****,*** *улдузам* мян,
*Оьланам* мян, *гызам* мян.
***
Щям *гузуйам*, щям *отам,*
Щям *суйам*, щям дя одам.
*Машын* мяням, *ат* мяням,
*Гуш* мяням, *ганад* мяням.

*Чцрцк* мяням, *саф* мяням,
*Буланыг, шяффаф* мяням.
***
*Дярин* мян, *дайаз* мянəm,
*Гара* мян, *бяйаз* мяням.
Щяр шейин рянэи мяням,
Ян *варлы, зянэин* мяням.

***«Явязлик»*** **командасы**

Чятиня дцшянлярин
Кюмяйиня эялирям.
Нечя нитг щиссясини
Явяз едя билирям.
***
Ня ямр етсян, щазырам
Демя**,** щявясим йохду.
Явязлийям, явязлик,
Мяним явязим йохдуr!
***
Мян исмин, сифятин,
Сайын, зярфин достуйам,
Нечя-нечя нювцм вар,
Юз ишимдя устайам

***«Феіл»*** **командасы**

Феілям, мян феілям,
Аз ашын дузу дейилям.
*Якян* мян, *бичян* мяням
*Йейян* мян, *ичян* мяням.
***
Эащ *эязир,* эащ *гачырам,*
Эащ *цзцр,* эащ *учурам.*
*Аьладыр, эцлдцрцрям,*
Чямяндян эцл *дярирям.*
***
Ялван чялянэ *тохуйурам,*
Шеир, мащны *охуйурам.*
*Ишляйирям, чалышырам,*
Щей *йанырам, алышырам.*
***
Селя *дюнцб ахарам* мян.
Шимшяк олуб *чахарам* мян,
Кечмиш, инди**,** *эяляжяйям,*
Сясля мяни*, эяляжяйям.*
Ябяди *щярякятям*,
Хейир, бярякятям мян…

***Р. Йусифоьlu*** [8, səh.10]

**"Исим" командасы.**

1. *Ня?* суалына жаваб верян цмуми исимляр – *аьаж, торпаг, даш, машын, алма, нар, тикан, эцл, гарышга, фил, гузу, чюряк, дуз, жан, халг, цряк, эюз, дил, додаг* вя s. цмуми исим олуб, яшйаlаrын адыны билдирир.

2. *Ким?* суалына жаваб верян цмуми исимляр – *адам, оьлан, гыз, ана, ата, халг* кими сюзляр яшйанын адыны билдирир.

3. *Щара?* суалына жаваб верян исимляр – *Gцняш, Ай, илдуз, vятян, Bakı, сяма, дяниз* вя с. кими сюзляр яшйаlаrын адыны билдирир.

**"Сифят" командасы**

Рянэ билдирян *гара, ağ, qırmızı, yaşıl, mavi* вя с. сифятляр яламят билдирир.

**"Явязлик" командасы.**

1. Явязликlər исим, сифят, сай вя зярфин йериндя ишлянир.
2. Дярсликдя ики нювц – шяхс явязлийи (*мян, сян, о, биз, сиз, онлар*) вя ишаря явязлийи *( о, bu)* вар.

**“Феіл”** ***командасы.***

1. Яшйанын щярякятини билдирян *ня едир?, ня етdi?, ня едяжяк?* суалlarына жаваб верmәklә, *якир, бичир, йейир, ичир, ишляйир, чалышыр, йанdı, axdı, üzdü, güldü, дярәсәk, тохуйасаq, охуйасаq, эяляжяк вя с.* фелляр шяхся вя замана эюря дяйишиб, яшйанын щярякятини билдирир.

Няр команда юз жавабларыnı цмумиляшдирир, бу мярщяляни дя йекунлашдырыр вя гиймятляndirир.

Бу мярщялядя тяклиф олунмуш тест тапшырыглары цзря верилмиш суаллар ясасында жаваблар сцтунуну долдурмаг тяляб олунур вя сящв жаваблар мцяййянляшдирилир.

Тест тапшырыглары иля ялагядар суаллар беля верилмишдир: (9, 55-70)

**“Исим” командасы.**

1. İsmin sualları hansılardır?

А) *ким?, песә?, щара?* ; Б) *ким?, ня едир?, ня?* ; Ж) *ким? ня? щара?.*

2. Цмуми исимляр няйи билдирир?

А) Әшйаnın адыны билдирир.

Б) Мцяййян бир група дахил олан яшйаларын адlarını билдирир.

Ж) Ейникюклц sözlәri билдирир.

3. Aşağıdakı sözlәrdәn hansılarını щям цмуми, щям дя хцсуси исим кими ишлятмяк олар?

*– лимон, чичяк, сцсян, ана, дямир, полад, щяйят, тянща, щяйат, мящяббят, марал, фикир, эцняш, чай, нярэиз, думан, садиг, пярваня.*

4. Верилмиш *–ралыдда, ушаq, эюзя, евдя, чюлй, мешя, судан, щякимя, аьажın* сюзлярі исмин щансы щалларында ишляниб?

А) тясирлик, адлыг, йийялик; Б) йюнлцк, йерлик, чыхышлыг; Ж) адлыг, йюнлцк, йийялик.

5. Шеирдя ишлянян исимлярин нечяси жям шяклиндядир?

Эюзялдир, sяфалыдыр.
Бизим елляр, обалар.
Бу йерлярчїн, иллярlя
Гылынж вурмуш бабалар.

А) 3; Б) 4; Ж) 5

**“Сифят” командасы.**

1. Сифятя аид олан fikir щансыдыр?

А) Исмя аид олур.

В) Цмуми вя хцсуси олур

2. Дад билдирян сифятлярин сайыны эюстяр: *бюйцк, ири, рянэли, узун, турш, йашыл, ширин.*

А) 3; Б) 2; Ж) 4;

3. Йахынмяналы сифятлярин жярэясини эюстяр:

А) *эянж, жаван;* Б) *аь, гара;* Ж) *эюзял, йахшы.*

3. Яксмяналы сифятлярин жярэясини эюстяр.

А) *йаныг, сюкцк;* Б) *учуг, кясик* ; Ж) *дузлу, дузсуз ;*

4. Исимдян дцзялмиш сифятлярдян ибарят жярэяни эюстяр.

А) *гырыг, кясик, язик;* Ж) *йаьсыз, дузлу, евдяки.*

Б) *эярэин, сатгын, язэин;*

5. Фелдян дцзялмиш сифятлярдян ибарят жярэяни эюстяр:

А) *нурани, эцмращ;* Б) *дяйирми, гызылы;* Ж) *язик, боьуг.*

**“Явязлик” командасы.**

1. Явязлик щансы нитг щиссялярини явяз едир?

А) *исми, сифяті, фели;* Б) *сифяті, фели, сайы;* Ж) *исми, сифяти, сайы.*

2. Hansı cərgədə yalnız şяхс явязликляри işlənib?

А) *мян, о, бу ;* Б) *мян, сян, о;*Ж) *биз, онлар, беля.*

3.Щансы жярэядя йалныз жям билдирян шяхс явязликляри ишляниб?

А) *биз, сян, бу;* Б) *биз, сиз, онлар;* Ж) *бу, сиз, о.*

4. Щансы жярэядяки явязликляр щям шяхс, щям дя ишаря явязлийи кими ишлянир?

А) *мян, сян, о*; Б) *сян, биз, бу*; Ж) *о, бу.*

5. "О" , "бу" явязликляри ня заман жцмлядя мцбтяда олур?

А) ишаря явязлийи кими ишляндикдя;

Б) шяхс явязлийи кими ишляндикдя;

Ж) щяр ики щалда.

**"Феіл" командасы.**

1. Щансы сюзляри щям исим, щям дя фел кими ишлятмяк олар?

А) *эялин, гойун, атмаг;*

Б) *сцзмя, эялмя, алма;*

Ж) *эетди, ойнайыр, охуйажаг .*

2. Доьру олмайаны эюстяр:

А) Феілляр замана эюря дяйишир.

Б) Феілляр шяхся эюря дяйишир;

Ж) Бцтцн феілляр щалланыр.

3. Индики заман феілляри щансылардыр?

1) *тикир;* 2) *ойнады;* 3) *эцлцр;* 4) *йазажаг;* 5) *охунмуш;* 6) *учур.*

А) 1,4,5; Б) 2,3,6; Ж) 1,3,6.

4. Фелин кечмиш заманы нечя жцр олур?

А) 3; Б) 4; Ж) 2.

5. Фелин эяляжяк заманы щансылардыр?

А) *şцщуди, гейри-гяти*; Б) *нягли, гяти;* Ж) *гяти, гейри-гяти.*

**IV. Nəticə və ümumiləşdirmə.**

– Ушаглар, эялин дярси йекунлашдыраг, цмуми нятижя чыхараг.

1. *Исим* – яшйанын адыны билдирян, *ким?, ня?, щара?* суалларындан бириня жаваб верян, тяк вя жям, хцсуси вя цмуми олаn, щалланаn, мянсубиййятя эюря дяйишяn ясас нитг щиссяcidir.

2. *Сифят* – яшйанын яламятини *(бюйцк, кичик, узун, гыса),* кейфиййятини *(нурани, йашлы, кюк, арыг, чалышган, савадлы, аьыллы)*, рянэини *(сары, гара, йашыл, эюй, qırmızı, аь, bənövşəyi)* билдирян, *нежя? ня жцр? вя щансы?* суалларындан бириня жаваб верян, щямишя исимля баьлы олан ясас нитг щиссяcidir.

3. *Феіл* – яшйанын щярякятини *(гачмаг, ойнамаг)* , щалыны *(севинмяк, гызармаг, утанмаг)* билдирян, *ня едир?, ня етди?, ня едяжяк?* суалларындан бириня жаваб верян, бир сыра грамматик хцсусиййятляриnə görə башга нитг щиссяляриндян фярглянян ясас нитг щиссясиня дейилир. О, 1) шяхся вя кямиййятя эюря дяйишир; 2) тясдиг вя инкар олур; 3) заман билдирир; 4) тясирли вя тясирсиз олур) .

4. *Явязлик* – яшйанын адыныn, яламятиниn, сайыныn йериндя ишляня bilən ясас нитг щиссясидир. Явязлик щансы нитг щиссясинин йериндя ишлянярся, онун суалларына жаваб verir, исим, сифят, сай кими щалланыр, мянсубиййятя эюря дяйишир.

**V. Yaradıcı tətbiqetmə.**

Bu mərhələdə дярс йекунлашдырылыр вя галиб командалар елан olunur. Fяал иштирак едян şagirdlərə байрагжыглар вя щядиййяляр верилир. Ev tapşırığı kimi yerinə yetirmək üçün test tapşırıqları verilir.

Dərsin təhlili эюстяригки, Азярбайжан дили цзря цмумиляшдирижи дярслярин belə тяшкили şagirdlərdə билик, бажарыг вя вярдишляри даща да дяринляшдирир, газанылан биликлярі мющкямляндирир, онларын нитг вя тяфяккцрлярини инкишаф етдирир. Нятижя етибариля мяктяблиляр диэяр mövzuları да (oxu фяннindən) дяриндян вя шцурлу мянимсяйир, юйряндикляри нязяри материаллары təcrübədə бажарыгла тятбиг едя билирляр.


**ədəbiyyat**

1.Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı, 2006.
2. "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2003.
3. Məmmədova E. "Yeni məzmun, yeni yanaşma tələb edir". "Azərbaycan məktəbi" jurnalı 2013-cü il, №5.
4. I-IV siniflər üçün Azərbaycan dili proqramları və dərslikləri. Bakı, 2008-2012.
5. Abdullayev N."Fəal təlim zamanı qruplarla işin təşkili". "Azərbaycan məktəbi" jurnalı, 2013-cü il, №6.
6. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı, 2005.
7. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2007.
8.Yusifoğlu R. Söz sənəti. Bakı, 2012.
9. "Azərbaycan dili", IV sinif, test qiymətləndirmə. Bakı, 2012.
10. Давыдов В.В. Виды обощения в обучении.Москва: «Педагогика», 1972.



**Издания на активное использование интерактивных методов обучения**

**резюме**

В статье исследуется о положительных результатах применения интерактивного метода. Он требует от учителя педагогического мастерства, теоретической готовности и практики. Раскрывается сущность работы в группах.

**General lesson in using interactive teaching methods**

**summary**

The article is dedicated to the positive results of applying interactive methods. These principles demand pedagogical mastery, theoretical awareness and experience of teachers. The content of group work is revealed.


# HƏYAT BİLGİSİNDƏN DƏRS NÜMUNƏSİ


**Gülşən Tağıyeva,**

Bakı şəhər, Rafiq Nəsrəddinov adına 39 nömrəli
tam orta məktəbin ibtidai sinif müəllimi



**açar sözlər:** şagird, müəllim , dərs, islam dininin yaranma tarixi və inkişafı, Məhəmməd peyğəmbərin həyatı və fəaliyyəti ;

**ключевые слова:** ученик, преподаватель, урок, история создания и развития ислама, жизнь и деятельность пророка Мухаммеда ;

**key words:** students, teachers, teaching, and development of the history of Islam, the life and work of the Prophet Muhammad.


**Fənn** – Həyat bilgisi

**Sinif** – IV

**Mövzu:** İslam dini necə yarandı?

**Standartlar:** 3.2.1. Tanıdığı qəhrəmanların nümunəsində mənəvi keyfiyyətləri izah edir.
3.3.1.İslam dininin böyük şəxsiyyətlərini tanıyır.
3.3.2.İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.

**Məqsədlər:**

- din haqqında sadə məlumat vermək;

- islam dininin böyük şəxsiyyətlərinin adlarını sadalamaq və onları təsvir etmək;
- islam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar etmək;
- islam dininin böyük şəxsiyyətlərinin həyatı nümunəsində mənəvi keyfiyyətləri izah etmək;
- Azərbaycan cəmiyyətində digər xalqların və dinlərin nümayəndələrinə münasibəti izah etmək.

**İnteqrasiya:** Azərbaycan dili, riyaziyyat, təsviri incəsənət , informatika.

**İş formaları:** bütün siniflə, kiçik qruplarla.

**Metodlar və priyomlar:** beyin həmləsi, problem-situasiya.

**Resurslar:** dərslik, elektron dərs vəsaiti, işçi vərəqləri, dəftərxana ləvazimatları.

**Motivasiya.** Motivasiya yaratmaq məqsədilə dini mövzuda slaydlar nümayiş etdirir və göstərilən təsvirlərlə bağlı suallar verirəm:

– Təqdim olunmuş şəkilləri birləşdirən nədir?
– Bu şəkilləri bir-biri ilə birləşdirən dindir.

Şagirdlərə dünya dinləri haqqında məlumat verilir.

– Din nədir və o nə üçün yaranmışdır?
– Din insanları hiss üzvləri ilə dərk edilən dünya gerçəkliyi arxasında daha əhəmiyyətli gerçəkliklə bağlayan yoldur. Bu yol insanlara gözəl əxlaq sahibi olmağı, yaxşılıq etməyi, pislikdən çəkinməyi öyrədən Allah yoludur, allah sevgisinə qovuşduran yoldur.
– Dinin əsasını nə təşkil edir?
– Dinin əsasını iman təşkil edir.
– Bəs imanın mənbəyi nədir?
– İmanın mənbəyi ilahi vəhydir, müqəddəs kitabdır. Yəhudiliyin “Tövrat”, “Zəbur”, xristianlığın “İncil” və islamın “Qurani-Kərim” kitabları müqəddəs səmavi kitablardır. Onlar Allah tərəfindən nazil edilmişdir.

**Tədqiqat sualı:** – Səmavi dinlərin sonuncusu hansıdır?

Şagirdlərlə sual-cavab aparıram:

– İslam dini haqqında nə bilirik? İslam dini nə zaman təşəkkül tapmağa başlamışdır?
– İslam dini səmavi dinlərin sonuncusu sayılır. Bu din VII əsrin əvvəllərində təşəkkül tapmağa başlamışdır.
– İslam dininin peyğəmbəri kimdir?
– Məhəmməd Peyğəmbərdir.
– İslam dini insanları nəyə səsləyir?
– İslam dini insanları həmişə dürüst olmağa, yalan danışmamağa, həsəd və kindən uzaq olmağa, daim biliyini artırmağa səsləyir.
– İslam dini özündən əvvəl yaranmış dinlərdən nə ilə fərqlənir?
– Həzrət Məhəmmədin gətirdiyi din özündən əvvəlki dinlərdən fərqli olaraq müvəqqəti dövr üçün deyil, dünyanın sonuna qədər nəzərdə tutulmuşdur.”
– Biz indiyə kimi söylədiklərimizdən nəyi anladıq ?
– Dinimiz islam , kitabımız “Quran”, Peyğəmbərimiz Məhəmməd əleyhissəlamdır. Dinimiz insanları yaxşı əməllərə səsləyən, sülhü, barışı təbliğ edən bir dindir.

Sonra Məhəmməd peyğəmbərin həyat və fəaliyyəti haqqında məlumat verilir. Cizgi filmi izlənilir. Sual-cavabı davam etdirirəm:

– İslamdan əvvəl Məkkə camaatı nəyə sitayiş edirdi?
– İslamdan əvvəl məkkəlilər bütlərə sitayiş edirdilər.
– Peyğəmbərimiz buna necə baxırdı?
– Peyğəmbərimiz bütlərə sitayişi mənasız sayır və küfr hesab edirdi.
– Məhəmməd Peyğəmbər harada ibadət etməyi sevərdi?

– O, hər il ramazan ayında Hirə mağarasına gedər və orada ibadət edərdi. Elə peyğəmbərlik də ona bu mağarada verilmişdir.
– İslam dininin müqəddəs kitabı necə adlanır?
– İslam dininin müqəddəs kitabı "Qurani-Kərim" adlanır.
– "Qurani-Kərim" necə nazil olmuşdur?
– "Qurani-Kərim" ramazan ayında, "qədr gecəsi" adlanan bir gecədə nazil olmuşdur.
– "Qurani-Kərim" haqqında kim məlumat verə bilər?

"Qurani-Kərim" islam dininin müqəddəs və əsas kitabıdır. İslam dinində "Qurani-Kərim" Allahın buyurduğu sözlərdir. Allah onları mələyi vasitəsilə həzrəti Məhəmmədə vəhy eləyib. "Qurani-Kərim"in özünəməxsus adı olan 114 surəsi və 6236 ayəsi var.

"Qurani-Kərim" peyğəmbərin vəfatından sonra kitab şəklinə salınmış və üzü yeddi nüsxə köçürülərək biri Mədinədə saxlanmış, digərləri isə böyük şəhərlərə – Küfə, Bəsrə, Yəmən, Dəməşq və Bəhreynə göndərilmişdir.

"Qurani-Kərim" qırx min cüyür dərisi üzərində yazılmışdır. Zəmanəmizə 3 nüsxəsi gəlib çatmışdır. Onlar Londonda, Özbəkistanda , Pakistanda saxlanılır.

– Peyğəmbərimiz neçə il Məkkədə islam dinini təbliğ edib?
– Peyğəmbərimiz Məkkədə 13 il islam dinini təbliğ edib.
– Məhəmməd Peyğəmbər nə üçün Məkkədən Mədinəyə köç etdi?
– Peyğəmbərimiz təqiblərdən yaxa qurtarmaq üçün Mədinəyə köç etməli olub.

Cizgi filmi izlənilir. Köç təsvir edilir. Sonra yenidən sual-cavab aparılır:

– O, peyğəmbərliyi dövründə hansı işləri görə bildi? .
– Bu müddət ərzində peyğəmbərimiz Allahın əmrini yerinə yetirmək, müsəlmanlığı təbliğ eləmək, insanları səadətə qovuşdurmaq üçün dayanmadan çalışdı.
– Peyğəmbərimiz nə zaman vəfat edib?
– 632-ci ildə, 63 yaşında vəfat edib.
– İslam dininin hansı əsas şərtləri var?
– İslam dininin 5 əsas şərti var: kəlmeyi-şəhadət, namaz, oruc, zəkat, Həcc ziyarəti.

Hər biri haqqında ayrıca məlumat verilir.

– Bəzi müsəlman ölkələrində hansı təqvimdən istifadə edilir?
– Hicri-qəməri təqvimindən istifadə olunur. Bu təqvim Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçdüyü ildən (622-ci il) hesablanır.
– İslam dininin hansı bayramları var?
– İslam dinində Qurban bayramı, Ramazan bayramı var. Bəzi əlamətdar günlər də bayram kimi qeyd olunur: Məbəs bayramı – Məhəmməd Peyğəmbərə peyğəmbərlik verilməsi günü, Mövlud bayramı – peyğəmbərin doğum günü.
– Bəs Azərbaycanda islam dini nə zaman yayılıb?
– 630-cu ildə İraq və İranın fəth edilməsi ilə İslam ordularının Azərbaycana girməsi üçün yollar açıldı, Ərdəbil və Təbriz alındı. 640-cı ildə Beyləqan, sonra Bərdə, Şirvan, 644-cü ildə Muğan, 645-ci ildə Aran fəth edildi. 656–661-ci illərdə Azərbaycan əhalisinin əksəriyyəti islamı qəbul etmişdi.
– Bəs dinimizin rəmzi dövlətimizin atributlarında özünü necə göstərir?
– Dinimizin rəmzi bayrağımızın yaşıl rəngində özünü əks etdirir.
– Azərbaycanlılar islamdan əvvəl hansı dinə inanırdılar?
– İslamdan əvvəl azərbaycanlılar atəşpərəstlik dininə inanır və oda sitayiş edirdilər.

Şagirdlər Zərdüştün atəşpərəstlik dininin bir-birinə əks olan iki qüvvənin – xeyir və şərin mübarizəsinə əsaslandığını öyrənirlər. Onlar N.Gəncəvinin "Xeyir və Şər" mənzum hekayəsi əsasında çəkilmiş cizgi filmindən bir parça izləyərək fikirlərini bildirirlər.

– Uşaqlar, atəşpərəstlik dininə sitayiş edənlər həyatın əsasının od, su, hava, torpaq olduğuna inanırdılar. Bu da günümüzə qədər Novruz bayramı adət-ənənələrində gəlib çıxıb.

– Müxtəlif dövrlərdə yaşamış dahi şəxsiyyətlərin Allaha inamı özünü necə göstərir?

– Ümummilli liderimiz Heydər Əliyev "Din milli və mənavi sərvətimizdir" demişdir.

**Tədqiqatın aparılması**. Dərsliyin 42–43-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır:

1. Məhəmməd Peyğəmbər tərəfdarlarına necə yanaşırdı? Mətndən nümunə göstərin.

– tərəfdarlarına yanaşması;

– ardıcıllarına tövsiyəsi.

2. Məhəmməd Peyğəmbərin hansı mənəvi keyfiyyətlərini özündə görmək istərdin?
3. İslam dininin digər dinlərlə oxşar və fərqli cəhətlərini yazın.
4. İslam dini insanlara nəyi öyrədir?

**İnformasiya mübadiləsi və müzakirəsi.** Orup işləri təqdim olunur, təqdim olunan işlərin təhlili aparılır. Nəticə çıxarılır və ümumiləşdirmə aparılır.

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlər Məhəmməd Peyğəmbərin müdrik kəlamlarından bir neçəsini dəftərlərinə yazırlar.

**Qymətləndirmə.** Meyarlar cədvəli üzrə qiymətləndirmə aparılır.

**Ev tapşırığı:** Məhəmməd Peyğəmbər haqqında bildiklərinizi yazın.

Dərsin sonunda Məhəmməd Peyğəmbərin Türkiyə Dövlət Muzeyində saxlanılan şəxsi əşyalarına həsr olunmuş slayd nümayiş etdirilir.


**Примерпый урок по предмету познание жизни по теме «Пророк Мухамед»**
**резюме**

Жизненные навыки класс об исламе и его ценности. В то же время суть нашей религии и ценностей, чтобы научить студентов в случае, если информация о том, что должно было быть в составе. Кроме того, в случае школьников в продвижении услуг на пророка Мухаммеда, ислам о.

**An example of information across the life course**
**summary**

Life Skills class is about Islam and its values. At the same time the essence of our religion and values to teach the students in the case of information about what was to be composed. Also in the case of school pupils in promoting the services of the Prophet Muhammad, Islam is about.


# ***TƏRBİYƏ MƏSƏLƏLƏRİ***

## MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ UŞAQLARIN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN İMKAN VƏ YOLLARI

**Sona Sadıqova,**
ADPU-nun baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** məktəbəqədər müəssisə, tərbiyə, nitq inkişafı, ətraf aləmlə tanışlıq, fiziki tərbiyə, mənəvi keyfiyyətlər, hərbi vətənpərvərlik tərbiyəsi, Vətənə məhəbbət, Qarabağ problemi, erməni qəsbkarları;

**ключевые слова:** дошкольное учреждение, воспитание, развитие речи, ознакомление с окружающей средой, физическое воспитание, духовные качества, воспитание военного патриотизма, любовь к Родине, Карабахская проблема, армянские оккупанты;

**key words:** preschool, education, development of speech, familiarization with the environment, physical education, spiritual qualities, education of military patriotism, love for the motherland, the Karabakh problem, the armenian occupiers.

Gənclərin vətəni müdafiəyə psixoloji hazırlığı üzrə işlər məktəblərdə həyata keçirildiyi halda, onun bünövrəsi, məktəbəqədər tərbiyə müəssisələrində qoyulur.

Uşaqların vətənpərvər kimi inkişafında təlimin rolu böyükdür. Uşaqların təlim prosesində sadə elmi anlayışları mənimsəmələri ilə yanaşı, onlarda hərbi vətənpərvərlik, milli orduya məhəbbət haqqında təsəvvürlər də formalaşır.

Məktəbəqədər müəssisələrdə tərbiyə işi elə qurulur ki, böyüməkdə olan nəsil öz həyatı ilə bağlı səciyyəvi tələbat və maraqlarla yaşasın. Uşaqlar xüsusi metod və priyomlarla, bütünlükdə ətraf aləmin təsiri ilə, həmyaşıdları və böyüklərlə ünsiyyət prosesində tərbiyə olunurlar. Bu iş daha çox uşaqların fəallığına əsaslanmalı, tərbiyəçilər isə həmin fəallıqdan istifadə etməyi bacarmalıdırlar.

Hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması üçün ölkəni, xalqını sevmək lazımdır. Məktəbəqədər müəssisələrdə bu məqsədlə keçilən təlim məşğələlərinin forma və metodları müxtəlifdir:

- bədii oxu;
- şəkillərə baxış;
- oyunlar;
- ekskursiyalar;
- diafılmlərə baxış;
- milli qəhrəmanlarla, hərbçilərlə görüşlər.

Məktəbəqədər təhsil müəssisələrində 5–6 yaşlı uşaqlarla aparılan məşğələlər onlara hərbi vətənpərvərlik tərbiyəsinin aşılanmasında mühüm əhəmiyyət kəsb edir. Uşaqlar məşğələdə bilavasitə fəaliyyətlə məşğul olduqlarından hərbi vətənpərvərlik tərbiyəsi üçün geniş imkanlar yaranır. Buna görə də hər bir tərbiyəçi belə tədbirlərin tərbiyəvi potensialını nəzərə almalı və onlardan istifadə etməyi bacarmalıdır.

Uşaqlar bağçaya gəldikləri ilk gündən məşğələlərdə müəyyən biliklərə, bacarıq və vərdişlərə yiyələnirlər. Bu məşğələlər onların ətraf mühiti dərk etmələrinə, əqli qabiliyyətlərinin inkişafına, dünyagörüşlərinin formalaşmasına təsir göstərir.

Uşaqlarda hərbi vətənpərvərlik hisslərini tərbiyə etmək üçün müxtəlif metod və vasitələrdən istifadə edilir. Hərbi vətənpərvərlik tərbiyə və təlim prosesinin bütün mərhələlərinə, o cümlədən, ətraf aləmlə tanışlıq, nitq inkişafı, təsviri fəaliyyət, musiqi üzrə məşğələlər, gəzinti və ekskursiyalar, oyunlar, bayramlar, kütləvi tədbirlər zamanı həyata keçirilə bilər.

Hərbi vətənpərvərlik tərbiyəsi üzrə işə kompleks yanaşma müxtəlif vasitə və priyomların qarşılıqlı əlaqəsini tələb edir.

Tematik planlaşdırma dərketmə materialını düzgün normalaşdırmağa, məlumatlar arasında

məntiqi əlaqələri müəyyənləşdirməyə kömək edir. Uşaqların düşünmələri, materialı şüurlu mənimsəmələri çox vacibdir. Müqayisə, sualların qoyuluşu, fərdi tapşırıqlar, uşaqların təcrübəsinə istinad etmək, onların tərbiyəçiyə, bir-birinə sual verməlerini təklif etmək, oyunda müxtəlif metod və priyomlardan istifadə buna çox kömək edir.

Məşğələlərdə müqayisədən istifadə aydın təsəvvürlərin, ətraf aləmə fəal münasibətin formalaşmasına kömək göstərir. Uşaqlara gördükləri və eşitdiklərini təhlil etməyi, tutuşdurmağı, müqayisə etməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı öyrətmək onların inkişafını təmin edir.

Məşğələnin təşkili prosesində təlimin tərbiyələndirici xüsusiyyəti diqqət mərkəzində saxlanmalı, lakin uşaqlarda müəyyən olunmuş vaxtda məşğul olmaq arzusu yaşa görə inkişafın nəticəsi kimi meydana çıxır. Bilik və bacarıqların qazanılmasına yönəldilmiş hər bir məşğələ uşaqdan səy tələb edir. Məşğələlər dərindən, hərtərəfli düşünülmüş şəkildə təşkil olunmalıdır ki, uşaqlar zehni əməyi sevsin, bu sahədə sadə əmək vərdişlərinə yiyələnsinlər.

Hərbi vətənpərvərliyə həsr olunmuş məşğələlərdə tətbiq edilən fənlərarası əlaqə və inteqrasiya vasitəsilə uşaqlar kiçik qruplarda öyrəndikləri *Vətən, Milli Ordu, vətənin müdafiəsi* kimi anlayışların mahiyyətini tədricən anlayır, *tankçı, sərhədçi, təyyarəçi, hərbi həkim* və s. hərbi peşələr haqqında ilkin təsəvvürlərə yiyələnirlər.

Son dövrlər məktəbəqədər müəssisələr üçün müstəqil Azərbaycan dövlətinin ruhuna uyğun tətbiq edilmiş vəsaitlərdə Vətənə, vətənpərvərliyə, Milli Ordu və milli qəhrəmanlara, şəhidlərə həsr olunmuş bədii parçalar, mübarizə ruhlu mahnılar, marşlar, rəssam və heykəltəraşların yaratdıqları əsərlər tərbiyəçilərə öz işlərini yeni formada qurmağa imkan verir. Məşğələlər uşaqlarda ətrafda baş verən hadisələrə maraq oyadır, hərbi vətənpərvərlik dünyagörüşünü formalaşdırır.

Ətraf aləmin hər bir guşəsi uşaqlar üçün vətəndir. Vətən mövzusu məktəbəqədər müəssisələrin hər bir yaş qrupunun proqramında aparıcı mövqe tutmaqla, uşaq fəaliyyətinin bütün sahələri ilə əlaqələndirilir. Bu da təbiidir. Uşaqlarda *vətən* anlayışının formalaşdırılması bir ilin işi deyil. Bu anlayış həyatın ilk illərindən başlayaraq tədricən, uzun illər ərzində formalaşır. Beşyaşlılarda *vətən* anlayışının formalaşdırılması onların məktəbə hazırlanmaları baxımından mühüm əhəmiyyət kəsb edir. Uşaqlar **nitq inkişafı** məşğələlərində Vətənin haradan başlayıb, harada qurtardığını öyrənirlər. Tərbiyəçilər «Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı»nda verilmiş Vətənə məhəbbət, hərbi vətənpərvərlik hissləri aşılayan mətnlərdən tərbiyəçilər istifadə edirlər. Bu məqsədlə Ə.Cavadın, M.Müşfiqin, A.Səhhətin, M.Seyidzadənin, S.Vurğunun, Ə.Cəmilin
və b. əsərlərindən bəhrələnmək olar. Həmin şairlərin əsərlərindən seçilmiş bədii parçalarda uşaq qəlbinə yaxın, onların anlayacaqları dildə Vətənin gözəlliyi, onun təbiəti, əmək adamları təsvir olunur. A.Səhhətin "Vətən" şeri bu qəbildəndir:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim!
Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.
Vətəni sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz!

***(A. Səhhət.)***

Tərbiyəçinin uşaqlarda hərbi vətənpərvərlik tərbiyəsi haqqında ilkin təsəvvürlər formalaşdırmaq üçün nitq inkişafı məşğələlərində vətən, onun əmək adamları, Milli Ordumuz, milli qəhrəmanlarımız, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimiz haqqında məlumat verməsi məqsədəuyğundur.

Uşaqların Azərbaycanda Milli Ordunun yaranması, onun vətənin keşiyində durması, vətənimizə kəc baxanlara zərbə endirməsi haqqında yığcam məlumat almaları vacibdir. Tərbiyəçinin mümkün imkanlardan istifadə etməsi məqsədəuyğundur. Belə ki, uşaqlar sıra ilə addımlayan əs-

gərlərə tamaşa edir, onlarla görüşür, televiziya verilişlərində, kinofilmlərdə Vətənin keşiyində dayanmış əsgərlərin həyatı ilə tanış olur, ordumuzun igidliyini müşahidə edirlər. Tərbiyəçilərin uşaqlara küçələrə, məktəblərə adları verilmiş milli qəhrəmanlar haqqında məlumat vermələri, onlar haqqında söhbətlər keçirmələri, abidələrə ziyarətlər təşkil etmələri vacibdir.

Milli Ordu ilə əlaqədar il boyu verilən materialları iki mövzu ətrafında ümumiləşdirmək mümkündür: "Milli Ordunun yaranması", "Milli Ordunun döyüş rəşadəti".

Birinci mövzu ətrafında söhbətlər, məşğələlər zamanı uşaqların diqqəti əsgərlərin (tankçılar, topçular, piyadalar, dənizçilər və təyyarəçilərin) hərbi xidmətinin xüsusiyyətləri ilə tanışlığa yönəldilməlidir. Bu zaman hərbçilərin müdafiəyə, hücuma necə hazırlaşmaları, bunun üçün hansı keyfiyyətlərin formalaşması ilə tanış olurlar. Sonra uşaqların həyat təcrübəsinə, ətraf aləmdən alınan təəssüratlara əsasən Milli Ordu haqqında söhbətlər aparmaq lazımdır.

Müsahibə zamanı elə suallar verilməlidir ki, uşaqlar əsgərlərin cəsurluğunu, dözümlülüyünü, vətənə bağlılığını dərk etsinlər. Bu zaman uşaqlar öyrənirlər ki, əsgərlər vətəni müdafiəyə hazır olmaq üçün xüsusi fiziki hazırlıq keçir, məşq edir, cəsur igidlər kimi yetişir, vətənin müdafiəsi üçün bütün maneələrdən keçməyə hazır olurlar. Dənizçilərin aylarla sahilə çıxmadan dəniz sərhədlərini qorumaları, fırtınalı, tufanlı havada həmişə döyüşə hazır olmaları, təyyarəçilərin yüksəkdən lazımi hədəfi vurmaları uşaqları heyrətə gətirir. Uşaqların böyük əksəriyyəti böyüyəndə hərbçi olacaqlarını bildirirlər. Tərbiyəçi ordu haqqında uşaqlara sadə məlumatlar verir. Onlar öyrənirlər ki, 18 yaşına çatmış hər bir sağlam gənc vətəni müdafiə etməyə borcludur. Ordu sıralarında qulluq etmək böyük şərəfdir. Vətəni qorumaq üçün fiziki cəhətdən sağlam, qüvvətli olmaq lazımdır. Uşaqlar öyrənirlər ki, dövlətimiz ədalətli və sülhsevəndir. O, heç vaxt başqa dövlətlərin torpaqlarına göz dikməyib, yalnız ölkəmizin toxunulmazlığını və sərhədlərini qoruyur.

İkinci mövzu Milli Ordunun erməni qəsbkarlarına qarşı mübarizəsi ilə bağlıdır. Tərbiyəçi ermənilərin məqsədləri, Qarabağı nə üçün müharibə ocağına çevirmələri, orada tökülmüş nahaq qanlar, dağıdılıb viran edilmiş şəhər və kəndlər haqqında verdiyi məlumatlar nəticəsində uşaqlar məkrli düşmənin torpaqlarımızın xeyli hissəsini zəbt etməsinə, əhalini yurdsuz-yuvasız qoymasına baxmayaraq, ordumuzun igid oğullarının qəhrəmanlıq göstərmələri haqqında biliklər əldə edirlər. Onlar milli qəhrəmanlardan bir neçəsi haqqında (Əlif Hacıyev, Gültəkin Əsgərova, Çingiz Mustafayev, Maşallah Abdullayev, Şikar Şikarov, Valeri Dementyev, Mübariz İbrahimov və b.) məlumat alırlar. Milli ordumuzun düşmənə divan tutması, tarixin şanlı səhifələrindən söhbət açılması uşaqlarda qələbəyə inam yaradır.

Hərbi vətənpərvərlik mövzusunda məşğələyə hazırlaşarkən tərbiyəçi uşaqlara veriləcək biliklərin həcmini, onların fəal lüğətinə daxil ediləcək lüğət minimumunu müəyyənləşdirməlidir. Elə sözlər seçilməlidir ki, uşaqlar onu mənimsəyə bilsinlər. Tərbiyəçi yeni materialı izah edərkən özü də həmin sözləri işlətməlidir, məsələn, vətən haqqında məlumat verərkən aşağıdakı sözlərdən istifadə edilməlidir: *Azərbaycan, azərbaycanlı, Bakı, Qarabağ, Şuşa, şəhər, kənd, işğal olunmuş torpaqlar, dəniz, çay, göl, qala, üçrəngli bayraq, qəhrəman, sərhəd, ordu, düşmən, işğal və s.*

"Sərhədçi" mövzusunda keçirilən məşğələnin əvvəlində tərbiyəçi uşaqlarda vətənimizin sərhədlərini düşmənlərdən qoruyan sərhədçilərə maraq və məhəbbət oyatmaq üçün "Vətənin keşiyində şerini oxuyur:

Əsgər gərək Vətənə
Həmişə keşik çəkə.
Yurdumun sərhədindən
Qoymaram quş da səkə!
Bəd niyyətlə gələni.
Uzağa qovaram mən!
Vətənə xor baxanın,
Gözünü ovaram mən!

Gündüzlər sərhəd boyu
Günəş kimi yanaram!
Gecələr sübhə qədər
Keşikdə dayanaram!

***(R.Yusifoğlu).***

Tərbiyəçi şeri oxuyandan sonra bu mövzuda müsahibə keçirir, sərhədçilərin işinin çox məsuliyyətli və vacib olmasını uşaqların diqqətinə çatdırır.

8 Mart Beynəlxalq qadınlar günü ərəfəsində müharibədə qadınların da döyüşdüyü və onların heç də kişilərdən geri qalmayan rəşadət, igidlik göstərdikləri haqqında söhbət aparmaq məqsədəuyğundur. Qadın döyüşçülərin ümumiləşdirilmiş obrazı kimi Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərova, Salatm Əsgərova haqqında verilən material uşaqları çox düşündürür.

Milli Ordunun yaranması günü ərəfəsində tərbiyəçinin uşaqlarla birlikdə milli ordu haqqında albom düzəltməsi və ya kiçik sərgi təşkil etməsi, eləcə də oraya müxtəlif qoşun növləri haqqında foto və illüstrasiyalar, uşaqların rəsmlərini yerləşdirməsi biliklərin mənimsədilməsində çox yaxşı nəticə verir.

Təlimin tərbiyəedici vəzifəsi uşaqlara hərbi vətənpərvərliyin mahiyyətini dərk etməyə kömək edir.Tərbiyəçi apardığı məşğələlərdə konkret nümunələr əsasında hərbi vətənpərvərliyin əhəmiyyətini qeyd edərək deyir ki, elə kiçik yaşdan vətəni, xalqını sevmək, vətənin dar günündə müdafiəyə hazır olmaq lazımdır.

Tərbiyəçi "Azərbaycan əsgəri" şerinin mahiyyətini izah etdikdən sonra uşaqlara şeri əzbərlədir.

Dayanıb gecə-gündüz
Vətənin keşiyində.
Mərdlik öyrədib ona
Anası beşiyində.
Qovacaq yurdumuzdan
O, düşməni, yağını.
Tez azad eyləyəcək
Öz ana torpağını

***(C. İbrahimli.)***

Tərbiyəçi uşaqlarda hərbi vətənpərvərlik hissini qüvvətləndirmək üçün müqayisələr əsasında onların əqli nəticələrə gəlmələrinə şərait yaradır.

Nitq inkişafı, bədii oxu məşğələlərində uşaqlar qəhrəmanlıq, vətənə məhəbbəti tərənnüm edən folklor nümunələri ilə də tanış olurlar. Uşaqlara nağıllardan, dastanlardan sadələşdirilmiş hissələrin oxunması müsbət nəticə verir.

Tərbiyəçi hansı materiallara əsasən hərbi vətənpərvərlik tərbiyəsinin aşılanacağını əvvəlcədən müəyyənləşdirir. Müşahidələr göstərir ki, pedaqoji ustalığa malik olan tərbiyəçilər məktəbəqədər yaşlı uşaqların nağıla məhəbbətindən onlarda hərbi vətənpərvərlik hissinin tərbiyə olunması üçün istifadə edirlər. Oxunmuş nağılla əlaqədar söhbət apararkən nağılın əsas qəhrəmanları müəyyən edilir, onların bir-birindən fərqli cəhətləri aydınlaşdırılır, uşaqlar insanların müsbət və mənfi keyfiyyətlərini ayıra bilirlər. Nağıl uşaqların qarşısında əsrarəngiz aləm, dünyanın ikili xarakterini – xeyir və şər münasibətlərni açır. Nağıllarda xeyirlə şər arasında mübarizə gedir, uşaqlar xeyir qüvvələrin tərəfində durub, şər qüvvələrə qarşı barışmaz mövqe tuturlar. Təlim materialı uşağa güclü təsir göstərirsə, o, öz hisslərini daha sərbəst ifadə edə bilir. Bu zaman uşaq vətəninə, xalqına, ordusuna, düşmənə olan münasibəti barədə düşünür, onda hərbi vətənpərvərlik hissləri oyanır, bu onun hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına təsir edir.

Tərbiyəçi "Vətən" bölməsinə daxil olan "Üçrəngli bayraq" (R.Yusifoğlu) şerini öyrədərkən, hər bir uşaqda vətənə, onun rəmzlərinə pərəstiş, müstəqillik rəmzi olan bayrağımıza məhəb-

bət hissinin yaranmasına çalışmalıdır.

Bu üç rəngli bayrağım
Gözümün işığıdır.
Azadlıq yağışından
Doğan göy qurşağıdır.
Üç rəngli bayraq bizə
Təsəllidir, dayaqdır.
Yolumuzun üstündə
İşıq saçan mayakdır!

***(R.Yusifoğlu)***

Hərbi vətənpərvərlik tərbiyəsinin aşılanmasında nitq inkişafı məşğələləri ilə yanaşı **ətraf aləmlə tanışlıq** məşğələlərinin də rolu böyükdür. Tərbiyəçinin əsgər həyatını əks etdirən şəkillərdən, televiziya verilişlərindən istifadə etməsi uşaqlarda hərbi vətənpərvərlik tərbiyəsi haqqında ilkin təsəvvürlərin yaranmasına və möhkəmlənməsinə təsir edir:

- Əsgərləri səngərlərdə gördük.
- Komandirin əmri ilə sıraya düzüldülər, iri addımlarla, qamətlərini düz tutaraq yeriyirdilər.
- Marşdan xoşum gəlir. Əsgərlər addımlayarkən mahnı oxuyurdular.
- Əsgərlərin paltarları yarpaqlı ağaca oxşayır.
- Onlar silahlarmı təmiz saxlayırlar.
- Onlar keşikdə ayıq-sayıq dayanırlar və s.

Məhz belə verilişlərdə uşaqlar milli qəhrəmanlar haqqında onların döyüş yoldaşlarının danışıqları əsasında məlumat əldə edirlər.

Ətraf aləmlə tanışlıq məşğələlərinin məzmunu tədricən genişlənir. Uşaq bağçasının kiçik qruplarında təməli qoyulan hərbi vətənpərvərlik tərbiyəsinin məzmunu böyük qruplarda nisbətən mürəkkəbləşir, doğma yurd, doğma Vətən anlayışı dolğunlaşır. İşgüzar və bacarıqlı tərbiyəçilər vətənin bir hissəsi olan uşaq bağçalarını da uşaqlara sevdirməyə çalışırlar. Bu məqsədlə onlar həm məşğələlərdən, həm də məşğələdənkənar tədbirlərdən istifadə edirlər.

Ətraf aləmlə tanışlıq məşğələlərində Vətənə məhəbbət və hərbi vətənpərvərlik tərbiyəsində müsahibə metodundan istifadə məqsədəuyğundur.

28 May –Azərbaycanın Milli İstiqlaliyyət gününün bayram edilməsi haqqında uşaqlarla belə bir sual-cavab aparılır:

Tərbiyəçi:
– Uşaqlar, burada kimin şəkli çəkilmişdir?
Uşaq:
– Ananın şəkli. Bu şəkildə uşaq da var.
Tərbiyəçi:
– Ana nə edir?
Uşaq:
– Ana uşağı ilə gedir.
Tərbiyəçi:
– Qızın əlində nə var?
Uşaq:
– Qızın əlində üç rəngli bayraq var.
Tərbiyəçi:
– Bu bayraq hansı dövlətin bayrağıdır?
Uşaq:
– Bu, Azərbaycan dövlətinin bayrağıdır.
Tərbiyəçi:

– Bu bayraqları daha harada görürsünüz?
Uşaq:
– Şəhərin bütün küçələri bu bayraqlarla bəzədilib.
Tərbiyəçi:
– Oğlanın əlində nə var?
Uşaq:
– Oğlanın əlində çoxlu rəngli şar var.
Tərbiyəçi:
– Onlar hara gedirlər?
Uşaq:
–Bayramdır, onlar gəzməyə gedirlər.
Tərbiyəçi:
–Binalar necə bəzədilmişdir?
Uşaq:
–Binaların eyvanlarından üçrəngli bayraqlar və şüarlar asılmışdır.

Tərbiyəçi uşaqların diqqətini bayrağa cəlb etməklə, onlarda milli qürur hissinin yaranmasına kömək edir. Uşaqlara öyrədir ki, bayrağımız vətənimizin, müstəqilliyimizin simvoludur. Xarici ölkələrdə Azərbaycanı təmsil edən təşkilatların binası üzərində, Azərbaycana məxsus gəmilərdə, bayrağımız dalğalanır, təyyarələrin üzərində əksi çəkilir. Tərbiyəçi öyrədir ki, hər bir azərbaycanlı hər zaman müstəqilliyimizin keşiyində durmağa, onu qorumağa hazır olmalı, bayrağın şərəfini uca tutmalıdır. Tərbiyəçi «Azərbaycanım» şerini oxuyur:

Elim-obam tamaşa,
Nəğməsən başdan-başa
Qəhrəman yurdum, yaşa!
Şərəfim, şanım, yaşa!
Bərəkətli torpağım,
Tarlam, bostanım, yaşa!
Azərbaycanım, yaşa!

***(F. Qoca.)***

Tərbiyəçi Z.Cabbarzadənin «Bakı» şerini uşaqlara öyrətməzdən əvvəl onlarla belə söhbət aparır:
Tərbiyəçi:
– Uşaqlar, kim deyər, yaşadığımız şəhərin adı nədir?
Uşaq:
– Yaşadığımız şəhərin adı Bakıdır.
Tərbiyəçi:
– Düzdür, biz Bakı şəhərində yaşayırıq. Bakı vətənimiz Azərbaycanın paytaxtıdır. Görürsünüz, şəhərimiz necə gözəldir?! Onun geniş küçələri, yaraşıqlı parkları, hündür binaları var. Bakı təkcə gözəllik şəhəri deyil. O, öz nefti ilə bütün dünyada məşhurdur. İndi sizə «Bakı» şerini oxuyacağam:

Adın gəzir dodaqlarda,
Yaxınlarda, uzaqlarda.
Şöhrətin var hər diyarda,
Gözəl Bakı, gözəl Bakı!

Buruqların gəlməz saya,
Ucalırsan günə, aya.
Səs salırsan bu dünyaya,

Gözəl Bakı, gözəl Bakı!

***(Z.Cabbarzadə)***

Tərbiyəçi şeri uşaqlara ifadəli oxuduqdan sonra, onların diqqətini aşağıdakı sətirlərə yönəldir:

"Buruqların gəlməz saya" ifadəsində Bakının təbii sərvəti sayılan neft və Xəzər dənizi haqqında uşaqlara məlumat verir. Xəzər dənizinin insanlara verdiyi xeyirdən, zəhmət adamlarının onun qoynunda saldığı məşhur Neft Daşlarından danışır. Bütün bunlar uşaqlarda öz doğma şəhərinə məhəbbət, onun üçün iftixar hissi oyadır.

Məktəbəqədər yaşlı uşaqların hərbi vətənpərvərlik tərbiyəsi **fiziki mədəniyyət** məşğələlərində də diqqət mərkəzində olmalıdır. Tərbiyəçi həmişə yadda saxlamalıdır ki, uşaqları fiziki cəhətdən düzgün inkişaf etdirib, onları ictimai faydalı məhsuldar əməyə, Vətənin müdafiəsinə hazırlamalıdır. Vətənin gələcək müdafiəçilərinin fiziki sağlamlığı qayğısına məktəbəqədər dövrdən qalmaq lazımdır, çünki fiziki tərbiyə uşaq və yeniyetmələrin yalnız sağlamlıqlarının qorunub saxlanması və möhkəmləndirilməsində deyil, hərbi qulluğa hazırlanmalarında da çox mühüm rol oynayır.

Böyük məktəbəqədər yaşlı uşaqlara aşılanmalıdır ki, hər bir adam öz müqəddəs borcunu ödəmək, Vətənin müstəqilliyinin qorunması naminə fiziki cəhətdən sağlam olmalıdır.

Böyük məktəbəqədər yaşlı uşaqların hərbi vətənpərvərlik tərbiyəsində **təsviri fəaliyyət** məşğələlərinin də özünəməxsus yeri vardır. Bu məşğələlərdə tərbiyəçi uşaqlara rəsm çəkməyi, müxtəlif fiqurlar düzəltməyi öyrədərkən onlarda bədii təsəvvür, xüsusi zövq tərbiyə edir. Uşağın vətənpərvər bir şəxsiyyət kimi formalaşmasında bu keyfiyyətlərin rolu böyükdür. Erkən yaşlardan bu hisslər aşılanmasa, uşaqlarda vətənpərvərlik tərbiyəsi üzrə inkişaf zənciri qırıla bilər.

Uşaqların rəsm məşğələlərində çəkdikləri əsgər, təyyarə, tank, hərbi vertolyot, odlu silahlar, müxtəlif növ hərbi texnikanın şəkilləri haqqında ilkin məlumat vermək zəruridir. Uşaqlar şəkil çəkməyi xoşlayırlar, lakin onların çəkdiklərinin mənası olmalıdır.

Tərbiyəçi təsviri fəaliyyət məşğələlərində uşaqların hərbi vətənpərvərlik mövzusunda çəkdikləri şəkilləri müzakirə edərkən, əsasən, iki məqsədi nəzərdə tutur:

- uşaqlarda vətənpərvərlik hissləri oyatmaq, Vətəni, xalqı fəal müdafiə etmək;
- hərbi vətənpərvərlik mövzusunda çəkilən şəkillərin uşaqların yaddaşında möhkəm iz qoymasına nail olmaq.

**Musiqi məşğələlərinin** də böyük məktəbəqədər yaşlı uşaqların hərbi vətənpərvərlik tərbiyəsində öz yeri var. Bu məşğələlər uşaqlarda estetik zövq, yüksək emosionallıq tərbiyə etməklə yanaşı, həm də onlarda müsbət əxlaqi keyfiyyətlər tərbiyə edir. Hərbi vətənpərvərlik mövzusunda olan mahnılar uşaqlar tərəfindən tez qavranılır. Mübarizə ruhunda oxunan hər bir hərbi vətənpərvər motivli mahnı, Azərbaycan himni və ya əsgər marşı uşaqlarda vətənə məhəbbət, qürur hisslərini və hərbi vətənpərvərlik tərbiyəsini gücləndirir. Uşaq bağçalarında öyrədilən mahnılar, əsasən, vətən, əsgərlər, müxtəlif tarixi bayramlar haqqında olur. Belə mahnılar (O. Zülfüqarovun «Əziz Vətən!», «Vətəni qoruyacağam!» və s.) uşaqlara qorxmazlıq, cəsurluq təlqin edir.

Qədim dövrlərdən indiki dövrə qədər orduların hərbi yürüşləri zamanı marşlardan istifadə edilmişdir. Ermənilərə qarşı qanlı döyüşlərdə bəstəkar C.Quliyevin Azərbaycan əsgərinin igidliyini tərənnüm edən «Əsgər marşı» nə qədər əzəmətlə səslənir! Tədqiqat apardığımız bağçalarda uşaqlar musiqi məşğələsinə gələrkən musiqi zalına marş sədaları altında daxil olurdular. Bu uşaqlar həmin musiqinin ahənginə uyğun addımlayarkən özlərini hərbçilər kimi təsəvvür edir, qamətlərini düz saxlayaraq, marşın ritminə uyğun addımlayırdılar. Odur ki, kiçik yaşlardan uşaqlarda vətənə məhəbbət tərbiyə etmək, onlarda hərbi işə maraq oyatmaq üçün musiqi məşğələlərindən geniş istifadə olunmalıdır.

Məşğələlərin düzgün təşkili nəticəsində uşaqlarda müsbət əxlaqi keyfiyyətlər, o cümlədən, hərbi-vətənpərvərlik tərbiyəsi təşəkkül tapır.

**ədəbiyyat**
1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı: "Öyrətmən", 1993.
2. Abbasov A.N. Uşaqların hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi. Bakı, 1972.
3. Ağayev Ə.A. Vətənə sədaqət tərbiyəsi. "Azərbaycan məktəbi", Bakı, 1973.
4. Ağayev M., Məmmədova K. Heydər Əliyev və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi. "Azərbaycan məktəbi", 2000, № 2.
5. Baharlı M. Hərbi-vətənpərvərlik tərbiyəsinin təşkili təcrübəsindən. "Məktəbdə bədən tərbiyəsi", 1987, №15.
6. Baxışova Ş.A. İslam dəyərləri və kiçikyaşlı uşaqların mənəvi tərbiyəsi. Bakı: «R.N.Novruz-94», 2009.

**Способы и приемы воспитания детей в военно-патриотическом духе**
**резюме**

В статье рассказывается о способах и приемах военно-патриотического воспитания детей в подготовительных группах дошкольных учреждений. Разъясняется методы воспитательной работы в занятиях обучении грамоте, ознакомлении с окружающей средой, изобразительного искусства, музыки и физической культуры. Так же отмечается, и доводится до внимания детей, что азербайджанский народ миролюбивый народ и не хочет войны, нам не нужны чужие земли. Наш народ хочет только освободить свои земли.

**The methods and techniques of education of children in the military-patriotic spirit**
**summary**

The article tells about the methods and techniques of military-patriotic education of children in preparatory groups of preschool institutions. An explanation of the methods of educational work in the classroom teaching literacy, reading the environment and physical culture. As noted and brought to the attention of the children, that the Azerbaijani people and peace-loving people do not want war, we do not need other people's land. Our people want only to liberate their land.

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN AŞILANMASI TƏCRÜBƏSİNDƏN

**Günay Sofiyeva,**

Bakı şəhəri, Ə.Ələsgərov adına 244 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi, pedaqogika nəzəriyyəsi və tarixi üzrə magistr



**açar sözlər:** vətənpərvərlik, şəxsiyyətin formalaşması, ibtidai sinif, dəyərlər, milli ruh, əsas istiqamət
**ключевые слова:** патриотизм, формирование личности, началный класс, ценности, националный дух, основное направление;
**key words:** patriotism, development of personality, primary school, values, national spirit, the main direction

"Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz..." (Heydər Əliyev.)

İllər keçsə də, ulu öndərin bu sözləri hər dəfə eşidiləndə insanlara vətənə məhəbbət, sədaqət və fəxarət hissləri aşılayır. Vətən sevgisi əzəli və əbədi bir qəlb odudur, heç vaxt öz gücünü itirmir. Elə buna görə də insan bu sevgiyə köklənəndə qollarında dünyanın bütün gücünü, qəlbində milli fəxarət duyğuları hiss edir. Şagirdlərimizin vətən sevgisi, vətənpərvərlik duyğuları onların gələcək həyat yolunu istiqamətləndirir, ləyaqətli vətəndaş kimi yetişmələrinə xidmət edir.

Vətən sevgisi hər bir şagirdin ürəyinə kiçik yaşlardan yol tapmalıdır, çünki babalarımızdan yadigar qalan torpaqları qorumaq üçün vətəni qəlbən sevən gələcək vətəndaşlar məktəblərdə yetişir. Ümummilli lider Heydər Əliyev yetişməkdə olan yeni nəslə vətənpərvərlik hisslərinin aşılanmasının nə qədər vacib olduğunu göstərərək deyirdi: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətən-

pərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.”

Bu bir həqiqətdir ki, vətənpərvərlik hissi insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik duyğuları yaradır, apardığı mübarizədə haqlı olduğuna, gələcəyə inamı gücləndirir.

Təsadüfi deyil ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda təhsilalanların tərbiyəsi məsələsi də prioritet hədəflərdən biri kimi müəyyənləşdirilib. Həmin sənəddə şəxsiyyətin hərtərəfli formalaşdırılmasında tərbiyənin rolu bu cür təsbit edilib: “Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu yalnız təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onun biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir...” Deməli, təhsilalanların layiqli vətəndaş kimi yetişmələrində bilik və bacarıqlarla yanaşı, milli mənəvi dəyərlər, o cümlədən, vətənpərvərlik tərbiyəsi müstəsna rol oynayır. Bu baxımdan, Dövlət Strategiyasına uyğun olaraq, şagirdlərin vətənpərvərlik tərbiyəsinin düzgün formalaşdırılması və istiqamətləndirilməsi üçün səmərəli şərait yaradılmalıdır. Gənc nəslin dövlətçilik ruhunda tərbiyəsi prioritet məsələlərdəndir. Məhz buna görə təhsil naziri Mikayıl Cabbarovun “Ümumtəhsil müəssisələrinin ilk dərs məşğələsi haqqında” 2013-cü il, sentyabrın 13-ü tarixli, 808 nömrəli əmri ilə hər yeni dərs ilinin 1-ci dərsi vətənpərvərlik mövzusuna həsr olunur.

Şagirdlərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmaları torpaqlarının 20 %-ə qədəri işğal altında olan, müharibə şəraitində yaşayan ölkəmiz üçün həyati əhəmiyyətli bir məqamdır. Müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal, kreativ düşüncəli vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsi nəticəsində reallaşdırılır.

Vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi məsələsini prezident cənab İlham Əliyev də daim diqqət mərkəzində saxlayır. O, 2015-ci ildə “Bilik günü” münasibətilə Bakı şəhəri, 148 nömrəli məktəbin açılışındakı nitqində bu barədə geniş danışmış və təhsil sistemi qarşısında bir sıra mühüm vəzifələr qoymuşdur. Bu vəzifələri həyata keçirmək məqsədilə təhsil naziri cənab Mikayıl Cabbarov 2015-ci il, oktyabrın 19-u tarixli, 1010 nömrəli əmri ilə “Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin “Bilik günü”ndəki Bakı şəhəri, 148 nömrəli tam orta məktəbin açılış mərasimindəki nitqindən irəli gələn vəzifələrin icrası ilə bağlı Fəaliyyət Planı”nı təsdiq etmişdir. Burada şagirdlərin milli-mənəvi dəyərlər, vətənpərvərlik ruhunda tərbiyəsinin gücləndirilməsi istiqamətində, onların iştirakı ilə “Dünya azərbaycanlılarının ümummilli lideri, qüdrətli dövlət xadimi Heydər Əliyevin şərəfli ömür yolu nəsillərə nümunədir.”, “Əsl vətəndaş olmaq nə deməkdir?”, “Vətənin müdafiəsinə hazıram!”, vətənpərvərlik mövzusunda mahnı, şeir və rəsm müsabiqələri və s. tədbirlərin təşkil olunması nəzərdə tutulur.

Məktəb həyatının şagirdlərin tərbiyəsində oynadığı müstəsna rolu dərindən bilən müstəqil Azərbaycanımızın memarı və qurucusu Heydər Əliyev demişdir: “Bizim gənclər, təhsil alan nəslimiz gərək məktəblərdə ilk addımlarından vətənpərvərlik əhvali-ruhiyyəsi ilə tərbiyə olunsunlar. Bütün dərslər, xüsusən də humanitar fənlər gərək gənclərimizə vətənə sədaqət, vətənpərvərlik ruhu aşılasın, tərbiyə etsin”. Məlumdur ki, təlim-tərbiyə işinin bütün sahələrində olduğu kimi, vətənpərvərlik tərbiyəsinin də əsası məktəbəqədər müəssisələrdə qoyulur, ibtidai siniflərdə davam və sonrakı təlim pillələrində daha da inkişaf etdirilir. Bu mənada böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində ibtidai sinif dərsliklərinin, xüsusilə də “Azərbaycan dili” dərsliklərinin xüsusi rolu var. Məktəbə qədəm qoyan kiçikyaşlıların ilk tanış olduqları dərsliyin “Azərbaycan dili” olduğunu nəzərə alsaq, vətənə məhəbbət hisslərinin aşılanmasında onun rolunu təsəvvür etmək çətin deyil.

Vətənpərvərlik tərbiyəsinin əsasında şagirdlərə vətənini, millətini, ana dilini, dövlət rəmzlərini, milli-mənəvi dəyərlərini, təbiətini, şanlı keçmişini, görkəmli nümayəndələrini tanıtmaq və onlara

hörmət və ehtiram hissləri aşılamaq durur. Kiçikyaşlı məktəblilərə vətənimizi tanıdaq ki, onu qorumaq və uğrunda şəhid olmaq, inkişaf etdirmək, dünyada təbliğ etmək hissləri aşılaya bilək.

I sinfin "Azərbaycan dili" dərsliyi kiçikyaşlı məktəbliləri ilk dərslərdən vətənimizlə tanış etməyə başlayır. "B" hərfinin tədrisi zamanı bayraq şəkli verilir. Bu zaman şagirdlərə dövlət rəmzləri, bayrağın rəngləri, onların mənaları haqqında məlumat verilir. Şagirdlərə başa salmaq lazımdır ki, bayraq Vətən qədər əzizdir. Bayraq millətin və dövlətin simvolu, mənəvi və siyasi pasportu, vizit vərəqidir. Onu sevmək milləti sevmək, Vətəni sevmək deməkdir...

"E" hərfinin tədrisində verilən "Etibar inam deməkdir" mətnində verilən "Yurdun etibarlı əllərdədir!" ifadəsi vətənə xidmət edənlərə, onun keşiyində duran əsgərlərə məhəbbət hissinin aşılanması üçün əlverişlı zəmin yaradır. Bu mətnin yaratdığı imkanlardan daha geniş istifadə etmək olar. Mən I sinif şagirdləri ilə vətənin keşiyində durmağın nə qədər şərəfli və vacib olduğu haqqında diskussiya aparıram. Sonra onlara fikirləri ümumiləşdirərək əsgərlərə məktub yazmağı təklif edirəm. Həmin dərs şagirdlərin fəallığı, yaradıcılığı baxımından başqa dərslərdən çox fərqləndi. Onlar içində bir neçə cümlə yazdıqları məktubları əsgər, bayraq şəkilləri ilə bəzədilər. Biz bu məktubları məktəb rəhbərliyinin köməyi ilə sərhəd bölgələrində yerləşən hərbi hissələrdən birinə göndərdik. Əbəs deyilməyib: "Ordum varsa, yurdum var..."

Dərslikdə verilmiş "Göy göl", "Xəzri nədir?", "Novruz bayramı" mətnləri vasitəsilə şagirdlərə ölkəmizin coğrafiyası, milli sərvətlərimiz, adət-ənənələrimiz haqqında məlumat verilir.

Vətən öz görkəmli oğul və qızları sayəsində tanınır, inkişaf edir. Şagirdləri onlarla tanış etmək, onlardan nümunə götürməyə təşviq etmək məqsədilə dərslikdə Heydər Əliyevə həsr olunmuş "Adı ilə böyüsün!" və idmançı Namiq Abdullayevdən danışılan "Finalda" mətnləri əsasında geniş tərbiyəvi iş aparıram.

Dərslikdəki "Ana yurdum", "Himnimiz" şeirləri, "Qarabağ", "Dostluq köməyi" mətnləri vasitəsilə kiçikyaşlı məktəblilərə vətənimizin gözəllikləri, zəngin sərvətləri və buna görə də daim xain düşmənlərin təcavüzünə məruz qalması haqqında məlumatlar verilir. "Dostluq köməyi" mətnində Xocalı faciəsi zamanı balaca Samirin başına gələn müsibətlərdən danışılır. Bu mövzuların köməyi ilə şagirdlər düşmənlərimiz, onların xalqımızın başına gətirdikləri faciələr haqqımda məlumatlandırılır, gələcəkdə vətən torpağının taleyinin onlardan asılı olduğu başa salınır.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi işi II sinif "Azərbaycan dili" dərsliyində də davam etdirilir. Dərslikdəki "Bayraqlar" mətni və "Üçrəngli bayraq" şeri bu qəbildəndir. Bu iki mövzunun imkanlarından daha geniş istifadə etmək, şagirdlərin həm vətənpərvərlik ruhunda yetişmələri, həm də araşdırmaq, ümumiləşdirmək, qrupda işləmək, ən əsası isə yaradıcılıq bacarıqlarını inkişaf etdirmək üçün layihə priyomundan istifadə etməyi qərara aldıq.

Təhsil naziri Mikayıl Cabbarov öz çıxışlarının birində demişdir: "Müasir təhsil sisteminin əsas məqsədi bilikli, biliklərini gündəlik həyatda və peşəkar fəaliyyətində tətbiq edə bilən, kreativ və qeyri-standart düşüncəyə malik olan insan yetişdirməkdir".

Layihəni hazırlayarkən elə bu fikri rəhbər tutaraq şagirdləri biliklərə yiyələnmək, onları tətbiq etmək və nəticədə onların yaradıcılıq bacarıqlarını inkişaf etdirməyi qarşımıza məqsəd qoyduq. Əvvəlcə şagirdlər "Bayraqlar" adlı təqdimata baxdılar. Daha sonra onlara layihənin vaxtı, görüş günləri, araşdırma apararkən istifadə edəcəkləri mənbələr, işləyəcəkləri proqramlar və s. haqqında məlumat verildi. Şagirdləri 4 qrupa ayırıb, hər qrupun tapşırıqlarını elan etdim.

**I – "Ölkələr" qrupu.** Dünya ölkələrinin bayraqlarını müəyyənləşdirin.

**II –"Rənglər" qrupu.** Bayraqlarda istifadə olunan rəng və simvolların mənalarını araşdırın.

**III – "Tarix" qrupu.** Ən qədim dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlər və onların bayraqları haqqında məlumat toplayın.

**IV–"Azərbaycan" qrupu.** Müasir Azərbaycan bayrağı və onun yaranma tarixi haqqında araşdırma aparın.

**Bütün qruplar üçün tapşırıq:** Sənə bayraq yaratmaq tapşırığı verilsə idi, hansı rəng və simvollardan istifadə edərdin? (Öz bayrağını yarat.)



Müəllimin və valideynlərin köməyi ilə şagirdlər verilən tapşırıqları 3 həftə ərzində hazırladılar. Şagirdlərin qrup işlərini nümayiş etdirmək üçün "Bayraqlar" adlı tədbir təşkil etdik. Tədbirdə həm müəllimlər, həm də şagirdlər iştirak edirdilər. Əvvəl layihə haqqında danışıldı, Dövlət Bayrağı Meydanına təşkil etdiyimiz ekskursiyadan video-görüntülər izlənildi. Daha sonra qrup üzvləri böyük həyəcan və sevinclə öz araşdırmaları, əldə etdikləri şəkil və videolar haqqında danışdılar. Onlar yaratdıqları yeni bayraq nümunələrini müxtəlif formalarda (şəkil çəkməklə, parçadan tikməklə) nümayiş etdirdilər. Üçrəngli bayrağımız haqqında şeirlər söylədilər, mahnılar oxudular, rəqs etdilər. Sonda isə şagirdlərimizin köməyi ilə hazırlanmış və hər birinin üzərində müxtəlif ölkələrin bayraqları təsvir olunmuş şirniyyatlar qonaqlara təqdim edildi. Beləliklə, vətənimizin ən vacib dövlətçilik rəmzi olan bayraq şagirdlərimizin gözlərində daha da ucaldı, ona olan sevgiləri artdı.

II sinif "Azərbaycan dili" dərsliyində vətənpərvərlik mövzuları "Əbədi məşəl", "Vətən", "Şəhidlər Xiyabanı", "Xocalı müsibəti" kimi mətnlərdə davam etdirilir. Dərsliyin 7-ci bölməsi "Söz sənətimiz" adlanır. Bölmədəki mövzularda Azərbaycan xalqına məxsus tapmacalardan, sanamalardan, oyunlardan, atalar sözlərindən, laylalardan, yanıltmaclardan, bayatılardan nümunələr verilmişdir. Şagirdlər şifahi xalq ədəbiyyatı nümunələrini sevə-sevə öyrənir, onlardakı hikmətli ifadələrlə lüğət ehtiyatlarını zənginləşdirirlər. Bu folklor nümunələri əsasında ana dilinə məhəbbət hissləri aşılanır. Şagirdlərə başa salıram ki, dil də vətən kimi, bayraq kimi müqəddəs dəyərlərdən biridir.

Mən şagirdlərimə böyük Azərbaycan maarifçisi Firudin bəy Köçərlinin "Dil millətin mənəvi diriliyidir." kəlamını izah edirəm.

Vətənin görkəmli şəxsiyyətlərinin tanıdılması, sözsüz ki, vətənpərvərlik tərbiyəsinin başlıca istiqamətlərindən biridir. Bu baxımdan III sinif "Azərbaycan dili" dərsliyinin "Tarixi şəxsiyyətlət" bölməsi xüsusi əhəmiyyət kəsb edir. Bölmədə "Müdrik rəhbər"(H. Əliyev haqqında), "Şair və hökmdar" (M.P.Vaqif haqqında), "Müəllim hədiyyəsi" (Ü.Hacıbəyli haqqında), "Üzeyir Hacı-

bəyli", "Şah İsmayıl Xətai", "Hacı Zeynalabdin Tağıyev", "İstedadlı şagird" ( S. Vurğun haqqında), "Sabirin ilk uşaq şeri" , "Bahalı xalça" ( M.F. Axundzadə haqqında), "Cəfər Cabbarlı", "Azərbaycanda ilk milli qəzet" (H.b. Zərdabi haqqında), "Hop-hop" (M.Ə.Sabir və C.Məmmədquluzadə haqqında) kimi mövzularda vətən üçün, xalq üçün gecə-gündüz çalışan vətən fədailərinin həyatı haqqında maraqlı hekayələr verilir. Bu hekayələr görkəmli tarixi şəxsiyyətlərimizin nümunəsində vətən sevgisinin nə olduğunu şagirdlərə başa salmaq, onları vətənpərvər ruhda tərbiyə etmək üçün geniş imkanlar yaradır.

IV sinfin "Azərbaycan dili" dərsliyi də vətənpərvərlik ruhlu mövzularla zəngindir. Onlardan ən maraqlısı ulu öndər H. Əliyevə həsr olunmuş və "Heydər Əliyevin kəlamları" mətnidir. Şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınaraq verilən məlumatlar daha geniş formada təqdim olunur. Mətndə ümummilli liderimizin "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi və böyüyü mədəniyyətdir.", "Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.", "Xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir" və s. müdrik kəlamları ətraflı şərh olunur. Azərbaycan xalqının yetişdirdiyi ən böyük vətənpərvər şəxsiyyətlərdən biri, sözsüz, Heydər Əliyevdir. Biz də gələcəyin vətəndaşlarını məhz onun azərbaycançılıq ideyalarından, vətənə olan sonsuz sevgisindən bəhrələnməklə yetişdirməliyik. Mən şagirdlərə ulu öndərin bu müdrik kəlamını xatırladıram: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam". Şagirdlərə başa salıram ki, hər bir insan milli mənsubiyyəti ilə fəxr etməlidir.

Dərslikdə vətənpərvərlik ruhu "Azərbaycan–Türkiyə", "Bayrağımız", "Əsgər marşı" kimi mövzularda davam etdirilir.

Vətənpərvərlik tərbiyəsi şagirdlərimizin şəxsiyyət kimi formalaşmalarında xüsusi diqqət yetirilməli olan taleyüklü məsələlərdən biridir. Bu tərbiyənin əsası ailədə, məktəbəqədər müəssisələrdə qoyulur, sonra ibtidai siniflərdə davam etdirilir.

**ədəbiyyat**


1."Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı fəaliyyət planı". "Kurikulum" , 2015, №1.

2. İsmayılov R., Abdullayeva S., Orucova G., Cəfərova D. "Azərbaycan dili". (ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün dərslik). Bakı: "Altun kitab", 2016.

3. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. "Azərbaycan dili". (ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün dərslik). Bakı: "Altun kitab", 2014.

4. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. "Azərbaycan dili". (ümumtəhsil məktəblərinin 3-ci sinfi üçün dərslik). Bakı: "Altun kitab", 2016.

5. İsmayılov R., Abdullayeva S., Qasımova X., Cəfərova D. "Azərbaycan dili". ( ümumtəhsil məktəblərinin 4-ci sinfi üçün dərslik). Bakı: "Altun kitab", 2015.

6. Məmmədyarov C. Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır. "Kurikulum", 2014, №3.


**Из опыта воспитания патриотического духа у учеников началъных класов**

**резюме**


В статье говорится о том, какую важную ролъ играет учебники Азербайджанского языка в формировании у учеников началъных классов патриотического воспитания. Говорится о мероприятиях, которые могут организовывать учитель для воспитания уже с малых лет школъников в духе патриотизма, о проектах, приказах и решениях, которые претворяет в жизнъ Министерство Образования.


**Experience on the education of patriotism to primary school students**

**summaru**


The article is about of an important role of "Azerbaijani language" textbook in the formation of primary school pupils. Events that the teachers could organize to formulate the spirit of patriotism for school children from their early age. İt diskuses the projects, orders and decisions made by the Ministry of Education


## ***PSİXOLOGİYA VƏ DEFEKTOLOGİYA***

# ÜNSİYYƏT, İNSANLARIN QARŞILIQLI TƏSİRİ VƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİ

**Əkbər Bayramov,**
psixologiya elmləri doktoru, professor



**açar sözlər:** fəaliyyət, psixoloji xarakteristika, ünsiyyət prosesi, qarşılıqlı təsir, sosial qarşılıqlı təsir; pozitiv qarşılıqlı təsir, neqativ qarşılıqlı təsir, diffuz qruplar; qarşılıqlı münasibətləri və ünsiyyət; sosial normalar; formal qarışılıqlı münasibətlər; qeyri-formal qarışılıqlı münasibətlər; sosial-psixoloji treninq;

**ключевые слова:** действия, психологические характеристики, процесс коммуникации, взаимодействие, социальное взаимодействие; позитивное взаимодействие, отрицательные взаимодействия, диффузные группы; взаимодействие и связь; социальные нормы; официальные отношения; неформальные отношения; социально-психологический тренинг;

**key words:** action, psychological characteristics, the process of communication, interaction, social interaction; positive interactions, negative interactions, diffuse group; interaction and communication; social norms; official relations; informal relations; socio-psychological training.

Fəaliyyətin psixoloji xarakteristikalarını xatırlayın: insanlar fəaliyyət prosesində işin məqsədini aydınlaşdırır, bir-birini ayrı-ayrı əməliyyatlarla tanış edir, nöqsanları müəyyənləşdirir, onları aradan qaldırmaq üçün məsləhətləşirlər. Bu prosesdə ünsiyyət insanların birgə fəaliyyətinin təşkilinə xidmət edir. Psixologiyada ünsiyyəti qarşılıqlı təsir kimi aydınlaşdırarkən onun insanların birgə fəaliyyətinin təşkili ilə bilavasitə bağlı olan cəhətlərinin təhlil edilməsini nəzərdə tuturlar.

Ünsiyyətin insanların qarşılıqlı əlaqəsinə təsiri şəksizdir. Bunu intuitiv şəkildə təsəvvür etmək asandır, lakin onların qarşılıqlı əlaqəsinin psixoloji baxımdan öyrənilməsi müxtəlif çətinliklərlə bağlıdır. Bəzi psixoloqlar ünsiyyətlə qarşılıqlı təsiri eyniləşdirir, onları dar mənada (informasiya mübadiləsi kimi) şərh edirlər. Bəzi müəlliflər isə ünsiyyətin strukturunda qarşılıqlı təsirin rolunu nəinki ətraflı aydınlaşdıra bilmir, hətta çox vaxt onları bir-birindən təcrid edir, ayrılıqda nəzərdən keçirirlər. Bunların hər ikisi səhvdir.

Qarşılıqlı təsirin növləri müxtəlifdir. İstər nəzəri, istərsə də praktik məqsədlər üçün onların əsas tiplərinin müəyyən olunması xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə müxtəlif təsnifatlar məlumdur. Onların böyük əksəriyyəti dixotomik xarakter daşıyır: insanların qarşılıqlı təsiri bir-birinə əks tiplərə bölünür. Qərb psixologiyasında müxtəlif müəlliflər qarşılıqlı təsirin bu iki tipini "kooperasiya – rəqabət", "razılaşma – münaqişə", "uyğunlaşma– müxalifət", "assosiasiya – dissosiasiya" kimi terminlərlə ifadə edirlər.

Birinci halda qarşılıqlı təsirin "pozitiv" növləri təhlil olunur. Bu baxımdan onlar birgə fəaliyyətin təşkilinə kömək göstərir. Qarşılıqlı təsirin "neqativ" növlərini isə ikinci tipə daxil edirlər: onlar birgə fəaliyyəti bu və ya digər dərəcədə "zəiflədir", "pozur", həmin fəaliyyət üçün müəyyən çətinliklər yaradır. Deməli, qarşılıqlı təsirin hər hansı tipi fəaliyyətin məzmunu ilə şərtlənir. Kooperasiya və ya rəqabət qarşılıqlı təsirin ancaq formasıdır, onların məzmunu isə hər iki halda daha geniş sistemlə – kooperasiya və ya rəqabətin daxil olduğu fəaliyyətin məzmunu ilə müəyyənləşdirilir. Müəllim, alim, idmançı, hərbçilərin və başqalarının bir-birilə qarşılıqlı təsirinin formalarını, hətta eyni əlamətlər əsasında müqayisə etsək, onlarda özünəməxsus cəhətlərin olduğunu görərik. Bundan başqa, kooperativ qarşılıqlı təsir formaları nəinki ictimai-faydalı, həm də asosial, hüquqa zidd fəaliyyət sahələrində (məsələn, birgə soyğunçuluq, oğurluq və s.) də özünü göstərir. Buna görə də cəmiyyətə zidd fəaliyyət sahələrində kooperasiya neqativ məna kəsb edir. Halbuki, asosial fəaliyyət şəraitində münaqişəni pozitiv hadisə kimi qiymət-

ləndirmək olar. Deməli, fəaliyyətin məzmununu, sosial kontekstini nəzərə almadan qarşılıqlı təsirin formalarını təhlil etmək olmaz.

Bəs Qərb psixologiyasında bu mühüm metodoloji məsələ necə həll olunur? Amerika psixoloqları belə hesab edirlər ki, "hər hansı iki adam arasındakı münasibətlər guya qrupun digər üzvləri arasındakı münasibətlərin funksiyasıdır." Buna müvafiq olaraq, onlar insanlar arasındakı qarşılıqlı təsirin xüsusiyyətlərini, adətən, diffuz qruplar – sosial-psixoloji eksperiment keçirmək məqsədilə təsadüfi adamlardan qısa müddət üçün yaradılmış qruplar əsasında öyrənirlər.

Gəlin diffuz qrupun əlamətlərinə diqqət edək: belə qruplara daxil olan adamlar, adətən, bir-birini tanımır, birgə ünsiyyət təcrübəsinə malik olmurlar. Onların qarşılıqlı təsiri vasitəsiz xarakter daşıyır, əsasən "xoşum gəlir – xoşum gəlmir" dixotomiyası ilə xarakterizə edilir. Başqa sözlə, diffuz qrupda qarşılıqlı təsir fəaliyyətin məzmunu ilə müəyyən olunmur. Təsadüfi deyildir ki, Amerika psixoloqlarının diffuz qruplarda mücərrəd sxemlər əsasında apardıqları eksperimentlər insanlar arasındakı qarşılıqlı təsirin əsl mahiyyətini açmır.

İkincisi və başlıcası isə ondan ibarətdir ki, Qərb psixoloqları (C. Mid və b.) cəmiyyətin inkişafını və ictimai münasibətləri psixolojiləşdirirlər. Onlar, adətən, *ictimai münasibət* terminindən deyil, *sosial qarşılıqlı təsir* terminindən istifadə edirlər. Bəs *sosial qarşılıqlı təsir* nədir? C. Midin fikrincə, sosial qarşılıqlı təsir ancaq *vasitəsiz kommunikasiyadan* (simvollar mübadiləsindən ) ibarətdir. Onun nəzəriyyəsinin əsasını aşağıdakı müddəalar təşkil edir:

- İnsanların orqanıznının bioloji zəifliyi onları məcbur edir ki, yaşamaq üçün qrup kontekstində bir-birləri ilə əməkdaşlıq etsinlər.
- Şəxsiyyətlər arasında baş verən , onların əməkdaşlığını asanlaşdıran , deməli, yaşamalarına kömək edən fəaliyyətlətlər möhkəmlənir. Bu zaman insan başqa adamların və qrupun onu necə qavradığını müəyyən edir. (C.Midin sozləri ilə desək , "Başqasının rolunu qəbul edir"), buna müvafiq olaraq situasiyanı qiymətləndirir və özü üçün düzgün hərəkət xətti seçir.

Beləliklə, Qərb psixoloqları insanların qarşılıqlı təsirini ictimai münasibətlərdən ayırır, bununla da mahiyyəti təhrif edirlər. Yəni orada daha çox sosial qarşılıqlı təsirdən bəhs edilir. Halbuki insanların qarşılıqlı təsiri ictimai münasibətləri əks etdirir.

Qarşıya sual çıxır: real qarşılıqlı təsir situasiyası necə yaranır? İnsanlar sosial nəzarətin hansı formalarından istifadə edirlər? Bu zaman bir-birini necə başa düşürlər?

Həmin suallara cavab vermək üçün qarşılıqlı təsirin strategiyası və taktikası anlayışları ilə tanış olmalıyıq. Qarşılıqlı təsirin strategiyası cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərin xarakteri ilə müəyyən edilir. Onlar isə özlərinin konkret ifadəsini sosial normalarda tapırlar. Sosial normalar insanların qarşılıqlı təsirinin qaydalarını müəyyən edir, onları nizama salır. İnsanlar sosial normalar əsasında bir-birinin davranış və rəftarına nəzarət edirlər (Onu bəyənir və ya bəyənmir, alqışlayır və ya mühakimə edir, rəğbətləndirir və ya cəzalandırırlar). Qarşılıqlı təsirin taktikası isə adamın öz iş və ya yol yoldaşı haqqındakı təsəvvürləri ilə müəyyən olunur. Bu zaman onun şəxsi keyfiyyətləri ilə yanaşı, niyyətinin motivlərinin də aydınlaşdırılması çox vacibdir.

Başqa mühüm cəhət isə iş yoldaşlarının rolu ilə – onlarn müəllim və ya tələbə, ana və ya nənə, qadın və ya kişi, ev sahibi və ya qonaq, həkim və ya xəstə , sürücü və ya sərnişin olması ilə əlaqədardır. Bu zaman biz həmin adamlarla məhz müəllim, tələbə, nənə, sürücü və s. kimi qarşılıqlı təsirə girir, eyni zamanda onlardan da öz rollarına müvafiq davranış tərzi gözləyirik. Adamların hərəkətləri, əməlləri, davranış tərzi sosial normalara uyğun gəlmədikdə, şəxsiyyətlərarası münaqişə üçün psixoloji cəhətdən şərait yaranır.

Bu iki cəhət (ictimai münasibətlərin xarakteri və iş yoldaşı haqqında təsəvvürlər) birlikdə real ünsiyyət situasiyasını müəyyən edir. Ünsiyyət situasiyasının həmsöhbətlərin hər ikisi tərəfindən eyni mənada başa düşülməsi onun səmərəli olmasının mühüm şərtidir. Belə olduqda adamlar birgə qərar qəbul edir və onu həyata keçirmək üçün fəaliyyətə başlayırlar.

**İnsanların qarşılıqlı münasibətləri və ünsiyyət.** İnsanların qarşılıqlı, şəxsiyyətlərarası münasibətləri də öz reallığını ünsiyyət prosesində tapır. Ünsiyyət situasiyasında iki (və ya üç) adamın iştirak etməsi insanlar arasında qarşılıqlı münasibətlərin olmasını nəzərdə tutur. Qarşılıqlı münasibətlər nəinki ünsiyyət prosesində əks olunur, həm də məhz bu prosesdə formalaşır.

Ünsiyyətlə qarşılıqlı münasibətlər bir-biri ilə üzvi surətdə əlaqədar olsa da, onları eyniləşdirmək olmaz. Ünsiyyət insanların birgə həyat fəaliyyəti ilə şərtlənir. Qarşılıqlı münasibətlərin tipi və xarakteri ünsiyyətin məzmununa, formasına mühüm təsir göstərir. İnsanların münasibətləri son dərəcə kəskinləşdikdə belə, ünsiyyət spesifik formalarda mövcud olur. Başqa sözlə, ünsiyyət adamların bir-birinə münasibətlərinin müsbət və ya mənfi olmasından asılı olmayaraq bütün hallarda həyata keçirilir.

Qarşılıqlı münasibətlər müxtəlifdir. Funksional baxımdan onların aşağıdakı tiplərini fərqləndirirlər: a) formal (rəsmi); b) qeyri-formal (qeyri-rəsmi) qarşılıqlı münasibətlər.

Formal qarşılıqlı münasibətlər hər bir fərdin qrupda onun rəsmi statusu (mövqeyi) ilə şərtlənən münasibətlərinin məcmusundan ibarətdir. Onlar fəaliyyətin normativ cəhətlərini əks etdirir və müəyyən qaydalarla tənzim edilən ***işgüzar*** münasibətlərdə ifadə olunur. Rəsmi münasibətlər səviyyəsində kollektiv üzvləri arasında fəaliyyətin məzmunu təşkilat vasitələrinə uyğun olan struktur-funksional asılılıq münasibətləri sistemi yaranır.

Məktəbdə "direktor-müəllim" və "müəllim-müəllim" tipli münasibətlər formal qarşılıqlı münasibətlərə misal ola bilər. Onların qarşılıqlı münasibətləri rəsmi xarakter daşıyır və müvafiq inzibati-hüquqi qaydalarla tənzim olunur, lakin bununla belə, hər bir elmi-tədqiqat institutunda, məktəbdə, eləcə də zavodda, fabrikdə, ailədə və s. insanlar arasında formal qarşılıqlı münasibətlərlə yanaşı, qeyri-formal münasibətlər də əmələ gəlir, məsələn, tutaq ki, hər hansı məktəbdə 80 nəfər müəllim işləyir. Görəsən, onların qarşılıqlı münasibətləri ancaq formal (rəsmi) xarakter daşıyırmı? Əlbəttə yox. Əgər həmin məktəbdə qarşılıqlı münasibətlər şəbəkəsini psixoloji cəhətdən öyrənsək, aşağıdakı faktları müəyyən edə bilərik: müəllmlərin bəziləri 3 və 4 nəfərlik kiçik qruplar şəklində bir-birilə yaxınlıq edirlər. Onlardan birinin ad günündə mütləq digər iki-üç müəllim iştirak edir. Dostlar asudə vaxtlarını nəinki birlikdə keçirir, hətta fürsət tapdıqda dərsə də birlikdə gedib-gəlir, bir-birlərinin sevincinə, dərd-sərinə şərik olurlar. Xəstələnəndə də bir-birinin başının üstündən əskik olmurlar: onlardan biri xəstənin uşaqlarına baxır, ikincisi xörək bişirir, üçüncüsü onun üçün dərman alır və s. Bu zaman biz həmin müəllimlər arasında yaranmış münasibətləri qeyri-formal qarışılıqlı münasibətlər kimi xarakterizə edə bilərik.

Formal qarşılıqlı münasibətlərlə yanaşı, sosial-psixoloji xarakter daşıyan qeyri-formal qarşılıqlı münasibətlərin yaranması ünsiyyətin qanunauyğun cəhətlərindən birini əks etdirir. Qeyri-formal qarşılıqlı münasibətlər mahiyyət etibarilə ictimai funksiyalarla müəyyən olunmur və şəxsi xarakter daşıyır.

Qeyri-formal qarşılıqlı münasibətlər heç kəs tərəfindən müəyyən edilmir, psixoloji cəhətdən əlverişlı şərait olduqda öz-özünə təşəkkül edir. Onlar yarandıqdan sonra mühüm psixoloji reallığa çevrilir: qeyri-formal qarşılıqlı münasibətlər simpatiya və antipatiyanın görünməz telləri ilə kollektivə nüfuz edərək istər, hər bir işçinin, istərsə də bütövlükdə kollektivin fəaliyyətinə müəyyən təsir göstərir, müvafiq psixoloji iqlim yaradır. Onların məzmunu kollektivin inkişaf səviyyəsindən bilavəsitə asılıdır.

Formal və qeyri-formal münasibətlər, adətən, bir-birini üzvi şəkildə tamamlayır və kollektivin çoxcəhətli həyatında ahəngdar surətdə uzlaşır. Bir sıra hallarda isə onlar, sadəcə olaraq, bir-birinə uygun gəlmir və kollektiv müxtəlif münaqişələrin yaranmasının mənbəyinə çevrilir.

Qarşılıqlı münasibətlərin tipi və ya səviyyəsi insanlar arasında ünsiyyətin xarakterinə mühüm təsir göstərir. Bundan asılı olaraq biz formal və qeyri-formal ünsiyyətdən danışa bilərik. Onların bir-birindən əsas fərqi bundan ibarətdir ki, qeyri-formal ünsiyyətə nəzərən formal ünsiyyət müəyyən rəsmi qaydalarla məhdudlaşdırılır. Bir misal göstərək: adam öz dostunu görən kimi

ona deyə bilər: “Gözlərin qızarıb, deyəsən, bu gecə yaxşı yatmamısan”. Halbuki avtobusda bu və ya digər sərnişinə həmin sualla müraciət etmək, öz şəxsi həyatı barədə məlumat vermək (“Bilirsən, başıma nə gəlib?”) və s. olmaz. Avtobusda *zəhmət olmasa, yol verin; buyurun; bağışlayın; buyurun, keçin* tipli formal ünsiyyət ifadələri daha məqbul sayılır.

Qeyri-formal ünsiyyət, formal ünsiyyət kimi, rəsmi qaydalarla məhdudlaşdırılmır, lakin burada da qarşılıqlı münasibətlərin (ər-arvad, iki dost, iki yoldaş və iki tanış arasındakı münasibətlər) xarakterindən asılı olaraq insanlar arasında müəyyən psixoloji məsafə gözlənilir. Ər-arvadın qarşılıqlı münasibəti üçün məqbul hesab edilən rəftar tərzi, ünsiyyət ədası eyni qrupda təhsil alan oğlan və qızın qarşılıqlı münasibətlərində qəbul olunmur. Onların münasibətləri adətən əxlaqi meyarlarla qiymətləndirilir. «Həyasız adam» etalonunun bir çaları da məhz bundan ibarətdir.

Ünsiyyət mədəniyyətinin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Ünsiyyət mədəniyyəti insan münasibətlərinin daxili gözəlliyində öz ifadəsini tapır. Nəzakətlilik, mehribanlıq, xeyirxahlıq, təmkinlilik, tərəf-müqabili dinləmək və başa düşmək bacarığı, onun zövqünə, fikirlərinə, ovqatına hörmətlə yanaşmaq, sevinc və kədərini anlamaq, dərdinə şərik olmaq – bütün bunlar ünsiyyət mədəniyyətinin əlifbasıdır. Hamı bu əlifbanı mənimsəməlidir.

**Ünsiyyət çətinlikləri və onların aradan qaldırılması yolları.** Ünsiyyət prosesində müəyyən çətinliklər – kommunikativ maneələr müşahidə olunur. Onlar, adətən, sosial və ya psixoloji xarakter daşıyır.

Müxtəlif sosial qruplara mənsub olan insanlar arasında sosial, siyasi, dini, peşə fərqləri və s. kəskin şəkildə özünü göstərdikdə, onlar vəziyyəti birmənalı qarşılamır, ifadələri yerində işlətmir, hadisələrə fərqli nöqteyi-nəzərdən yanaşırlar. Şübhəsiz ki, belə maneələr olduqda da kommunikasiya prosesi həyata keçir. Hətta düşmənlər belə danışıqlar aparırlar, lakin bir cəhət aydındır ki, sosial xarakterli kommunikativ maneələr olduqda, ünsiyyət şəraiti xeyli mürəkkəbləşir.

Ünsiyyət prosesinə psixoloji xarakterli kommunikativ maneələr də mühüm təsir göstərir. Belə çətinliklər ya müsahiblərin müəyyən fərdi psixoloji xüsusiyyətlərə malik olmaları (məsələn, onlardan birinin həddindən artıq utancaq, digərinin qapalı və «qaradinməz» olması, ya da onların arasında xüsusi növ psixoloji münasibətlərin – bir-birinə qarşı qərəzlilik, ədavət, düşmənçilik, inamsızlıq və s. əmələ gəlməsi nəticəsində meydana çıxır. Belə hallarda ünsiyyətin münasibətlə əlaqəsi aydın nəzərə çarpır. Məsələnin belə qoyuluşu nəinki elmi, həm də böyük praktik əhəmiyyətli nəticələr çıxarmağa imkanı verir.

Ünsiyyət prosesində kommunikativ maneələri necə aradan qaldırmaq olar? Bu mühüm məsələni praktik cəhətdən hansı yollarla daha səmərəli həll etmək mümkündür? Psixoloqların fikrincə, kommunikativ maneələri aradan qaldırmaq üçün insanlara ünsiyyət vərdişləri aşılamaq, onların ünsiyyət mədəniyyətini artırmaq lazımdır.

Müasir dövrdə ünsiyyət vərdişləri aşılamağın təsirli vasitəsi kimi *sosial-psixoloji treninqlərdən* (ingiliscə *trainin – öyrənmək, hazırlamaq, məşq etmək*) istifadə olunur.

Sosial-psixoloji treninq sosial psixologiyanın tətbiqi bölmələrindən biridir. Özünüdərketmə, ünsiyyət və qarşılıqlı təsir vərdişlərinin formalaşması sahəsində qrup metodlarının işlənilməsi və tətbiqi onun əsas vəzifəsini təşkil edir. Sosial-psixoloji treninq prosesində başlıca vasitə kimi müxtəlif modifıkasiyalarda tətbiq edilən qrup diskussiyalarından və rollu oyunlardan istifadə olunur.

Sosial-psixoloji treninqin köməyilə, bir tərəfdən, ünsiyyət sahəsində həyati çətinliklərlə qarşılaşmış adamlarda kommunikativ vərdişlər formalaşdırılır və ya onların ümumi kommunikativ hazırlığı təkmilləşdirilir; digər tərəfdən isə bilavasitə insanlarla bağlı olan peşə sahiblərində – rəhbər işçilərdə, pedaqoqlarda, tibb işçilərində, idman məşqçilərində xüsusi kommunikativ vərdişlər yaradılır.

Sosial-psixoloji treninq ideyasını alman psixoloqu Kurt Levin irəli sürmüşdür. Bu, Z. Freydin *psixoanaliz,* C. Morenonun *sosiometriya* nəzəriyyələrində də müəyyən dərəcədə öz əksini tapmış-

dır, lakin sosial-psixoloji treninqi praktik surətdə ilk dəfə amerikan psixoloqu və psixiatrı K. Rocers 1947-ci ildə tətbiq etməyə başlamışdır.

K. Rocers *humanist psixologiya* adlanan cərəyanın əsas nümayəndələrindən biridir. K. Rocers fərdin qavrayış aləminə xüsusi əhəmiyyət verirdi. Onun fikrincə, fərdin davranışı guya onun qavrayışı ilə müəyyən olunur. O, reallığı necə qavrayırsa, ona elə də reaksiya göstərir. İnsanın ətraf gerçəkliyi və özünü qavraması sahəsində dəyişikliklər baş verən kimi, onun davranışında da dəyişikliklər əmələ gəlir.

K.Rocers belə hesab edirdi ki, qrupda şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırmaq, adama özünün düzgün qiymətləndirildiyini hiss etmək imkanı verən xüsusi iqlim yaratmaq yolu ilə şəxsiyyətin özünütəkmilləşdirməsini təmin etmək olar. O, bu sahədə sosial-psixoloji treninqə böyük əhəmiyyət verirdi.

Sosial-psixoloji treninq məqsədilə xüsusi kiçik qruplar təşkil olunur. 1949-cu ildə bu qruplara *T-qrup* adı verildi (**T**– *treninq* sözünün ilk hərfidir – *treninq təlim* deməkdir).

T-qrup qısa müddət ərzində (bir neçə gündən bir neçə həftəyə qədər) fəaliyyət göstərir. Qrup üzvləri arasında, bir tərəfdən, onların həyatda girə bilmədikləri şəxsi münasibətlər yaranır və bu zəmində zəruri ünsiyyət vərdişləri aşılanır, digər tərəfdən, öz münasibətlərini başa düşmələrinə diqqət yetirilir.

Hazırda sosial-psixoloji treninq praktikası psixologiya elminin sürətlə inkişaf edən tətbiqi sahələrindən birinə çevrilmişdir. Sosial-psixoloji treninqdən müxtəlif profilli mütəxəssislərin – rəhbər işçilər, psixoloqlar, müəllimlər, həkimlər, ticarət işçiləri və s. hazırlığında istifadə olunur. Ər-arvad münaqişələrinin aradan qaldırılması, valideyn– övlad münasibətlərinin yaxşılaşdırılması, «çətin» yeniyetmələrin tərbiyəsi və s. sahələrdə də sosial-psixoloji treninq geniş tətbiq olunur.

**ədəbiyyat**


1. Ağayev Ş. S., Mehdizadə Z.M., Fərəcov İ.A. Yaş və pedaqoji psixologiya. Bakı: APİ-nin nəşri, 1977.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: "Maarif", 1989.
3. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual pedaqoji problemləri. Bakı: "Azərnəşr", 1992.
4. Qədirov Ə.Ə., Xəlilov N.Ə. Yaş psixologiyası. Gəncə, 1999.
5. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı, 2002.
6. Сеидов С.И. Социальная психология творчества. Баку: АзербЦентр перевода, 1994.



**Общение, взаимодействия и взаимодействия между людьми**

**резюме**

В статье речь идет о общении и о формах общения между людьми и их взаимных отношениях о психологической характеристике процесса коммуникации. Так же рассказывается о взаимодействиях между людьми, и о формах (социальное, позитивное, отрицательное) взаимодействия, о диффузных группах, социальных нормах взаимоотношений. Так же рассказывается о практике социально-психологического тренинга в современном обшестве и отмечается, что социально-психологический тренинг стал одним из наиболее быстро растущих областей применения в науке психологии.



**Communication, collaboration and human interaction**

**summary**

In this article we are talking about communication and the forms of communication between people and their mutual relations on the psychological characteristics of the communication process. Also describes the interactions between people and the forms (social, positive, negative) interaction of diffuse gruppax, sotsialnyx normax relationship. Also describes the practice of social and psychological training in contemporary and The Society noted that the socio-psychological training has become one of the fastest growing applications in the science of psychology.


# SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARIN TƏHSİLİNDƏKİ PROBLEMLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI


**Aynur Abdullayeva,**
ADPU, elmi innovasiyalar mərkəzinin mütəxəssisi
ARTPİ-nin dissertantı

veliyeva_86aynur@mail.ru



**açar sözlər:** məktəb, inklüziv təhsil, pedaqoq, inklüziv təhsilin üstünlükləri;
**ключевые слова:** школа, инклюзивное образование, учитель, преимущества инклюзивного образования;
**key words:** school, inclusive education, teacher, the advantages of inclusive education.

Eramızdan əvvəlki tarixə nəzər salsaq, görərik ki, sağlamlığı nöqsanlı uşaqlara yanaşmada qəddarlığa yol verilirdi: belə uşaqlar doğularkən onları diri-diri torpağa basdırır, qayadan atır və ya onlardan imtina edirdilər. Bəzi tayfalar uşaqlarını yalnız döyüşçü ruhunda formalaşdırmaq üçün uşaqların sağlamlığına çox diqqət yetirmişlər. Qədim Yunanıstanda – Spartada bu qaydalara daha çox əməl olunurdu, çünki onların əsas məşğuliyyəti hərbi iş idi. Qanun onların başqa işlə məşğul olmalarına icazə vermirdi. Spartalı uşaqlar doğulanda sağlamlıq, möhkəmlik testindən keçir, əlilliyi olan, zəif körpələr ölümə tərk olunurdu.

Sivilizasiya prosesi nəticəsində xəstə doğulan uşaqlara yanaşmalar da dəyişmiş, xüsusilə də dinlərin yarandığı dövrdən həmin uşaqlara diqqət və qayğı günü-gündən artmağa başlamışdır. Sağlamlığı nöqsanlı olan uşaqların təhsili də dövlətləri düşündürmüş, əlilliyin növlərinə görə müxtəlif təhsil formaları (xüsusi təhsil, evdə təhsil, distant təhsil, inklüziv təhsil və s.) yaradılmış və onlar təhsilə cəlb olunmuşlar.

Əlillik növlərinin adlarında son dövrlərdə bir sıra dəyişikliklər edilmiş, onlara daha humanistcəsinə yanaşılmağa başlanmışdır. "Əlil (kor, kar, lal, əqli cəhətdən nöqsanlı) uşaqlar" əvəzinə "xüsusi qayğıya ehtiyacı olan", ya da "sağlamlıq imkanları məhdud olan" ifadələrindən istifadə olunur. Bu, həmin uşaqlara etik münasibətin nümunəsidir.

Elm inkişaf etdikcə, xüsusilə son dövrdə yazılmış əsərlərdə bir sıra terminlərdən tez-tez istifadə olunmağa başlanmışdır. Bunlardan ən çox işlənəni *inklüziv təhsil* terminidir. *İnklüziv* sözü, latınca *include* sözündən olub, *nəticəyə gəlmək* mənasını verir. Bu proses ümumtəhsil məktəblərində xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim-tərbiyə prosesinin təşkilini əhatə edir. İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumitəhsil müəssisələrində sağlam uşaqlarla birgə təhsil almalarını təmin edir. İnklüziya fiziki və əqli cəhətdən sağlamlığı məhdud uşaqların öz potensiallarından istifadə imkanlarını dəstəkləyir. Bu təhsil sistemi xüsusi qayğıya ehtiyacı olan uşaqlarda özünəinamı artırır və digər normal uşaqlarla bərabərhüquqlu olmalarını təmin edir. İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların yalnız təhsil hüquqlarını dəstəkləməklə kifayətlənmir, eyni zamanda onların cəmiyyətə inteqrasiyasını, müstəqil şəkildə qərar vermə imkanlarını, hüquqlarını, həyatın müxtəlif sahələrində fəaliyyət göstərməyi öyrətmək məqsədi daşıyır. Belə hallarda sağlamlığı məhdud olan uşaqların yaşamaq istəyi daha da artır, onlarda gələcəyə ümid yaranır.

Sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri çox zaman onların təhsili ilə maraqlanmırlar. Bu prosesə "Başqaları necə baxarlar?" fikri ilə yanaşır, sanki cəmiyyətin qınağından çəkinirlər. Elm və mədəniyyət inkişaf etdikcə, sağlamlıq imkanları məhdud uşaqların həyat tərzini yaxşılaşdırmaq üçün bir çox proqramlar həyata keçirilməyə başlandı. Belə ki, XX əsrin 70-ci illərindən başlayaraq ABŞ və Avropa dövlətlərində məhdud imkanlara malik uşaqların təhsil ehtiyaclarının ödənilməsi üçün xüsusi normativ aktların hazırlanması və tətbiqi sahəsində xeyli səmərəli işlər görüldü. Son illərdə belə uşaqlarla təhsil prosesində, diferensiasiya, inteqrasiya və inklüziv yanaşmanın araşdırılmasının intensivliyi yüksəlmişdir. Bayram günlərində xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtlarının səmərəli təşkili ilə bağlı müxtəlif xarakterli tədbirlərin, həmyaşıdları ilə əlaqələrin qurulması nəzərdə tutulur. İnteqrasiya belə uşaqların ehtiyaclarının ödənilməsi üçün onların təhsilinin normal uşaqların təhsilinə uyğunlaşdırılmasını, birlikdə təhsilin

təşkilini, inklüziya isə təhsil müəssisələrinin yenidən qurulması nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyaclarının ödənilməsi üçün təlim prosesinin yeniləşdirilməsini tələb edir.

2004–2005-ci dərs ilindən başlayaraq Azərbaycanın bir sıra ümumtəhsil məktəblərində və məktəbəqədər təhsil müəssisələrində xüsusi qayğıya ehtiyacı olan uşaqların inteqrasiyası həyata keçirilir, inklüziv komponentli siniflər və qruplar yaradılır. Hazırda bu problem üzrə araşdırmalar uğurla davam etdirilir.

1994-cu ildə Salamanka Bəyannaməsində göstərilir ki, fiziki, intellektual, sosial, emosional, nitq və digər qüsurlarından asılı olmayaraq, məktəblər bütün uşaqları qəbul etməli, bu, əqli və fiziki ləngiməsi olan, milli azlıqlara mənsub, xüsusi istedada malik uşaqlara da aid edilməlidir". İnklüziv təhsil anlayışı L.S. Vıqotski və J.Piajenin *uşaqların inkişaf nəzəriyyəsi* ilə yanaşı, həm də insan hüquqları prinsiplərinə əsaslanır.

1992-ci ildə imzalanmış İnsan Hüquqları Konvensiyasına əsasən, respublikamızda hər bir uşağın təhsil hüquqları qorunur. Bu vacib məsələləri həll etmək üçün müvafıq tədbirlərin görülməsi dövlətin üzərinə düşür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il, fevralın 3-ü tarixli, 20 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005–2009-cu illər)" ölkədə inklüziv təhsil modelinin sınaqdan keçirilməsi üçün böyük imkanlar yaratdı. 2005-ci ildən bu proqram əsasında respublikanın müxtəlif orta ümumtəhsil məktəbləri və məktəbəqədər təhsil müəssisələrində "İnklüziv Təhsil" pilot layihəsinin icrasına başlandı. [5, səh.9]

Azərbaycan təhsil sistemində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün 25 xüsusi məktəb fəaliyyət göstərir. Onlardan 18-i internat tipli, 7-si isə xüsusi məktəblərdir. Bu məktəblərdə ümumilikdə 5535 nəfər şagird təhsilə cəlb olunmuşdur. Dövlət tərəfindən təsdiq olunmuş proqram xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüquqlarının yerinə yetirilməsi, inklüziv təlimə keçidin reallaşdırılması, bütün uşaqların təhsili üçün bərabər imkanların yaradılması, uşaqların sosial müdafiəsinin gücləndirilməsi, xüsusi qayğıya ehtiyacı olan bütün uşaqların təhsilə cəlb edilməsi xüsusi təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının müasir standartlara uyğunlaşdırılması kimi məsələlərin həllinə xidmət edir. Bundan başqa, Nazirlər Kabinetinin 2010-cu il, yanvarın 13-ü tarixli, 5 nömrəli qərarı ilə Təhsil Nazirliyinin nəzdində Uşaqları Müdafiə İdarəsi yaradılmışdır.

Proqramın icrası ilə əlaqədar 2005-ci ildən «Dünyaya baxış» təşkilatı, YUNESKO və Beynəlxalq Tibb Korpusu ilə 3 inklüziv təhsil layihəsinin həyata keçirilməsinə başlanmışdır. Bu layihələrdə Bakı, Sumqayıt, Mingəçevir şəhərlərində və Yevlax rayonunda 14 məktəb, 14 uşaq bağçası və 100-dək xüsusi qayğıya ehtiyacı olan uşaq əhatə olunmuş, valideynlər arasında maarifləndirmə işləri gücləndirilmişdir. Hazırda Azərbaycan təhsil sistemində xüsusi qayğıya ehtiyacı olan və xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı sahəsində inteqrasiyalı-inklüziv təlimin keyfiyyətinin yüksəldilməsi istiqamətində səmərəli işlər məqsədəuyğun şəkildə davam etdirilir.

Ümumiyyətlə, inklüziv təhsilin qarşısında duran vəzifələri konkretləşdirsək, aşağıdakı nəticələrə gəlmək olar:

- xüsusi qayğıya ehtiyacı olan uşaqların ailələrini maarifləndirməklə həmin uşaqların da cəmiyyətin tamhüquqlu üzvü olmalarını dərk etdirmək;
- xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilində sistemli və ardıcıl şəkildə təkmilləşdirmə işlərinin aparılması və bu prosesi stimullaşdırmaq;
- ictimaiyyəti, valideynləri bu sahədə fəal iştiraka, uşaqların təhsil ehtiyaclarının təmin olunmasına cəlb etmək;
- imkansız ailələrdə xüsusi qayğıya ehtiyacı olan uşaqları təhsillə əhatə etmək;

• xüsusi qayğıya ehtiyacı olan uşaqların öz normal yaşıdları ilə birlikdə təhsil almalarına şərait yaratmaq.

Sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı proqramlara əsasən, xüsusi qayğıya ehtiyacı olan uşaqlar öz yaşadıqları ərazilərdə bağçaya və məktəbə getməlidirlər. Beynəlxalq praktikaya əsasən, inklüziv təhsilə cəlb olunan şagirdlərin sayı hər sinifdə 5–10 % olmalıdır. İnklüziv siniflərə mütləq yardımçı müəllim cəlb olunmalıdır. Böyük Britaniyada inklüziv təhsilin tədqiqat mərkəzinin yaradıcısı Toni But Mel Eynskoun "İnklüziyanın göstəriciləri" adlı praktik vəsaitində yardımçı müəllimləri "pedaqoji dəstəkvermə üzrə koordinator", "pedaqoji koordinator", "inklüziv koordinator" adlandırırdı [6, səh.11] . İnklüziv təhsilə cəlb olunan hər bir uşaq üçün sinif otağında onların rahatlığı təmin edilməlidir. İnklüziv siniflərin məktəbin I mərtəbəsində olması zəruridir.

İnklüziv təhsil barədə qərar verildikdə uşağın sağlamlığı haqqında məlumatları nəzərə alaraq təhsilin onun üçün çətin olub-olmamasından daha çox inkişaf xüsusiyyətlərinə təsir göstərən faktorların elmiliyinə fikir verilməlidir. Əks halda, təhsil mühiti xüsusi qayğıya ehtiyacı olan uşağın vəziyyətinin ağırlaşmasına gətirib çıxara bilər. İnklüziv təhsilə keçidin müvəffəqiyyətinə təsir göstərən faktorlar içərisində təhsil müəssisəsində psixoloji xidmətin müasir tələblərə cavab verən səviyyədə təşkili xüsusi əhəmiyyət daşıyır. Psixoloq inklüziv təhsil komponentli qruplardakı təhsilalanlarda aşağıdakı keyfiyyətlərin inkişaf etdirilməsinə fikir verməlidir:

- emosional sahənin inkişafı;
- koqnitiv sahənin inkişafı;
- stressədözümlülüyün inkişafı;
- özünəinamın inkişafı;
- real aləmə pozitiv münasibətin və başqalarını qəbuletmə bacarıqlarının inkişafı;
- müstəqilliyin inkişafı;
- özünümüəyyənetmənin, özünüinkişafetdirmənin və həvəsləndirmənin inkişafı.

İnklüziv təhsil şəraitində bu meyarlar gözlənilməzsə, təlim prosesində müəyyən problemlər yarana bilər. Xarici təcrübəyə əsasən, sinifdə eyni zamanda sağlamlığı normal olmayan uşaq təhsil alırsa, həmin uşaq sinfə daxil olmazdan əvvəl müəllimlər, şagirdlər və valideynlərlə sistemli şəkildə maarifləndirmə işləri aparılmalıdır. Müşahidələr zamanı gəldiyim qənaətə görə, bu maarifləndirmə işləri aparılmadıqda bir çox problemlər yaranır.

Rastlaşdığım problemlərdən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlam uşaqlarla bir sinifdə təhsil almalarından sağlam uşaqların valideynlərinin narazılıqlarıdır. Səbəb kimi onu da qeyd edirlər ki, dərs zamanı sağlamlıq imkanları məhdud olan uşaqlar dərsi pozur, yaxud uşaqlar üçün ayrılan vaxtı əllərindən alırlar.

Əgər inklüziv siniflər olan məktəblərdə sosial pedaqoq, psixoloq yoxdursa, hətta sinif müəllimləri belə həmin uşaqları qəbul etmək istəmirlər. Hər kəs bilməlidir ki, biz xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə adaptasiya olunmalarını istəyiriksə, onlara yanaşma fərqli olmamalıdır. Onlara da normal uşaqlara yanaşdığımız kimi yanaşmalıyıq. Ona görə də çalışmalıyıq ki, o uşaqlar da normal uşaqlar kimi təhsil alsınlar, cəmiyyətə yararlı vətəndaş kimi böyüsünlər.

İnklüziv təhsilin sağlamlıq imkanları məhdud uşaqlar üçün faydaları çoxdur:

- Xüsusi qayğıya ehtiyacı olan uşaqlar kollektivə uyğunlaşır, cəmiyyətə inteqrasiya olunurlar.
- Onlarda özünəinam hissi formalaşır.
- Onlar, cəmiyyətin digər üzvləri kimi, bərabər hüquqlu şəxsiyyət kimi formalaşırlar.
- Gələcəkdə onların məşğulluq sahəsində problemləri də aradan qaldırılır.

**ədəbiyyat**

1. Hüseynova N.T., Rüstəmova L.H. Xüsusi pedaqogika. Bakı, 2006.
2. Hüseynova N.T. Xüsusi pedaqogika. Bakı, 2008.

3. İnklüziv təhsil. Bakı: “İndiqo”, 2010.
4. İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr. (V Elmi-praktik konfransın məqalələr toplusu.) Bakı: “Şərq-Qərb”, 2011.
5.İnklüziyanın göstəriciləri (praktik vəsait). UNİSEF. Bakı, 2011.
6. Korreksion pedaqogikanın müasir məsələləri. Bakı, ARTPİ-nun nəşriyyatı, 2012.

**Образование детей с ограниченными возможностями здоровья способы их устранения**
**резюме**

Инклюзивное образование не ограничивается поддержкой образовательных прав детей с особыми потребностями. Этот тип образования детей-инвалидов имеет цель независимо принять решения в обществе, и обучение их прав. В этом случае, у детей с особыми потребностями увеличивается желание быть сильным, и у них рождается большая надежда на будуще

**Education of children with limited health problems and ways of their elimination**
**summary**

Inclusive education is not limited to supporting the educational rights of children with special needs. This type of education aims to teach the integration of disabled children in society, their independent decision-making capabilities and learn their rights. In this case, the health of children who desire to live is stronger than ever, their hope for the future.

# ***YENİ NƏŞRLƏR***

## Moskvada nəşr olunmuşdur.

Bu günlərdə Moskvada nəşr olunan çox dəyərli və nüfuzlu «Социально-политические Науки» jurnalında ("Sosial-siyasi elmlər") akademik Hüseyn Əhmədovun irihəcmli və dəyərli bir məqaləsi çap olunmuşdur. Məqalənin dəyəri və aktuallığı ondadır ki, müəllif Azərbaycanın məşhur kəndlərindən biri olan Mərəzədə (Şamaxı) 150 il bundan əvvəl açılan məktəb və onun ilk müəllimi – gələcəyin məhşur pedaqoqu və maarifçisi, rus və Azərbaycan xalqları arasında dostluğun carçısı, yorulmaz beynəlmiləlçi A.O.Çernyayevskinin fəaliyyəti ilə oxucuları tanış edir və onun fəaliyyətini yüksək qiymətləndirir.

Məqalədən məlum olur ki, 1866-cı ildə əsası qoyulan bu kənd məktəbi o vaxtlar Mərəzə poçt stansiyasında nəzarətçi işləyən A.O.Çernyayevskiyə tapşırılır. Heç bir pedaqoji təhsili olmayan, Şamaxı qəza məktəbini bitirmiş A.O.Çernyayevski məktəbdə tədris-tərbiyə işini elə müvəffəqiyyətlə aparır ki, onun nailiyyətləri tez bir zamanda Qafqaza yayılır. Qafqaz Tədris Dairəsinin popeçiteli J.M.Neverov məktəbə gəlir və onun fəaliyyətini yüksək qiymətləndirir.

Məlum olduğu kimi, Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin İnformasiya –mədəni Mərkəzi bu məktəbin 150 illik yubileyini qeyd etməyə hazırlaşır. Bu yubiley ərəfəsində oxuculara təqdim edilən məqalənin dəyəri də məhz bundadır.

Akademik Hüseyn Əhmədovun məqaləsinin ikinci bir dəyəri isə A.O.Çernyayevskinin sonrakı fəaliyyətinin əhəmiyyətinin açılması ilə bağlıdır. Burada müəllif Çernyayevskinin Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsindəki fəaliyyətini, onun azərbaycanlı gənclərdən ibarət ilk müəllimlər dəstəsinin hazırlanmasındakı tarixi və unudulmaz xidmətlərini yüksək qiymətləndirir.

A.O. Çernyayevskinin 1882-ci ildə Tiflisdə nəşr etdirdiyi Şərqdə sövti üsul ilə hazırlanmış "Vətən dili" (I hissə) adlı ilk ana dili dərsliyinin məziyyətləri yığcam şəkildə oxucuların nəzərinə çatdırılır.

Onu da qeyd edək ki, məqalə müəllifi – yaşının bu çağında da məhsuldar işləyən Hüseyn müəllim, bu kitabı ərəb əlifbasından müasir latın qrafikasına çevirmiş, AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi V.M.Məmmədəliyevin ön sözü ilə həmin kitab transliterasiya və faksimeliya yolu ilə çap olunaraq, oxucuların öhdəsinə verilmişdir. "Vətən dili"nin nəşrinin 125 illiyi ərəfəsində Bakıda Respublika Elmi-Nəzəri Konfransı keçirilmiş, konfransda Rusiya Təhsil Akademiyasının, başda prezident N.D.Nikandrov olmaqla, bir qrup üzvünün fəal iştirak etmələri Azərbaycan–Rusiya elmi-pedaqoji əlaqələrinin inkişafına yeni bir töhfə olmuşdur.

Məqalənin dəyərlərindən biri də budur ki, rusdilli oxucular Azərbaycan məktəb və pedaqoji fikir tarixinin şanlı səhifələri ilə tanış olurlar. Digər bir dəyəri isə odur ki, dünya xalqları rus dili vasitəsilə Azərbaycanda gedən proseslərlə, xalqlar arasında dostluq nümunələri ilə tanış olur və onu yüksək qiymətləndirirlər.

Məqalənin sonunda istifadə edilmiş 8 mənbə göstərilmişdir. Bu mənbələri diqqətlə nəzərdən keçirdikdə məlum olur ki, yalnız rus dilində olan bu 8 ədəbiyyatdan 7-si məhz peşəkar tədqiqatçı Hüseyn müəllimin əsəri olmaqla uzun illərdən bəri Bakıda və Moskvada nəşr edilmişdir. Bu da məqalə müəllifinin Azərbaycan–Rusiya elmi-pedaqoji əlaqələrinə, redaksiyanın qeyd etdiyi kimi, rus xalqına, onun tarixinə, Rusiya ilə dostluğa hörmətinin bariz nümunəsi kimi qiymətlidir.

Məqalənin əvvəlində müəllif haqqında, onun qazandığı elmi rütbələr, mükafatlar haqqında yer almış sətirlər, redaksiyanın ürək sözləri də məqalənin ümumi elmi dəyərləri ilə yanaşı, Hüseyn müəllimin uğurlarının nəticəsi kimi qiymətlidir.

Biz də redaksiyanın fikirlərinə qoşulur, qələm dostumuzu, respublikamızda SSRİ PEA-nın yeganə müxbir üzvü kimi yaşayan və yaradıcılığından qalmayan, Rusiya Dövlət Təhsil Akademiyasının xarici üzvü və onun "Qızıl medal"ının laureatı, Rusiya Federasiyası Təhsil və Elm Nazirliyinin K.D.Uşinski medalının və bu günlərdə təltif edilmiş "Rusiyanın fəxri qonağı" medalı-

nın, SSRİ-nin Təhsil Əlaçısı və Rusiyanın «Долг и честь» (“Borc və şərəf”) ordeninin mükafatçısı, Azərbaycan SSRİ-nin Əməkdar ali məktəb işçisi, pedaqoji elmlər doktoru, professor Hüseyn müəllimi elmi–pedaqoji fəaliyyətinin 70, anadan olmasının 90 illiyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı, uzun ömür və yaradıcılığında yeni-yeni uğurlar diləyirik.

**Yəhya Kərimov**
pedaqoji elmlər doktoru , professor, Şöhrət ordenli
Əməkdar müəllim, Prezidentin Fərdi Təqaüdçüsü

## Respubliamızda məktəbəhazırlığın təşkili

**Xalidə Musayeva,**
“Məktəbəqədər və ibtidai təhsil” jurnalının şöbə redaktoru,
ARTPİ-nin doktorantı



Bildiyiniz kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Uşaqların məktəbə hazırlığının təşkili məsələləri haqqında” 2016-cı il, 11 iyul tarixli, 271 nömrəli sərəncamı ilə dövlət ümumtəhsil məktəblərində dövlət büdcəsinin vəsaiti hesabına məktəbəhazırlıq qruplarının açılması haqqında qərar vermişdir. Bununla əlaqədar Azərbaycan Respublikasının təhsil naziri, cənab Mikayıl Cabbarov 5 avqust, 2016-cı il tarixdə 548 №-li əmri imzalamışdır. Əmrə əsasən, 2016/17-ci tədris ilindən etibarən ümumtəhsil məktəblərində beşyaşlıların məktəbəhazırlıq təliminə başlanılmalıdır. Məktəblərdə və məktəbəqədər müəssisələrdə təşkil edilən hazırlıq qruplarının məşğələləri oktyabr ayının 1-də başlayıb, may ayının sonunda qurtaracaqdır. Qərara əsasən, məktəbəhazırlıq qrupları üçün ümumtəhsil məktəblərində lazımi təlim şəraiti təmin olunmalı, müəllimlər üçün təsdiq olunmuş tədris planı və proqrama uyğun öyrədici materiallar hazırlanmalıdır. Bu sahədə artıq bir çox işlər görülmüşdür.

Xüsusi məşğələlərlə müəllimlə uşağın gündəlik ünsiyyətində inkişafetdirici vəzifələrin reallaşdırılması nəzərdə tutulmuşdur. Məşğələlərin təşkili formaları, məzmunu rəngarəng olmalıdır. Bu məşğələlərin interaktiv təlim əsasında keçirilməsi bütün inkişaf səviyyəsində olan uşaqların idrak fəallığını təmin edir. Məktəbəhazırlığın təşkili üçün vəsaitlər hazırlanarkən bu deyilənlər nəzərə alınmışdır.




**“Məktəbəhazırlıq üzrə təlimin təşkili metodikası”** metodik vəsaiti müəllim üçün nəzərdə tutulmuşdur. Bu vəsaitdə məşğələ planları, motivasiyaların qurulması yolları, məşğələlərdə istifadə olunan metod və priyomlar, resurslar təqdim olunur. Bunlar müəllimin təlim prosesində öz işini qurmasına yardım edir.

**“Savad təliminə hazırlıq və nitq inkişafı”** üzrə vəsait uşaqlar üçün hazırlanmışdır. Bu vəsaitdə hər mövzuya uyğun motivasiya, rəngarəng şəkillər, məşğələ prosesində uşaqların işləmələri üçün tapşırıqlar verilmişdir. Vəsaitə uşaqların nitq inkişafı, səslərlə və böyük hərflərin çap forması ilə tanışlıq üzrə tapşırıqlar da daxil edilmişdir.

**“Məntiqi və riyazi təfəkkürün inkişafı”** vəsaiti də uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu vəsaitdə məktəbəqədər təhsilin yeni məzmununa əsaslanan, məktəbəhazırlığın inkişaf sahələrinə uyğun standartlar əsasında tapşırıqlar verilmişdir. Bu standartlar uşaqlarda riyazi biliklərin (say, ölçü, həcm haqqında), ilkin hesablama vərdişlərinin formalaşmasına istiqamətlənib.

**“Təsviri fəaliyyət”** adlı vəsait uşaqların rəsmetmə, yapma, kəsib-yapışdırma və quraşdırma üzrə ilkin bacarıqlarının formalaşdırılması məqsədlərini əhatə edir. Bu vəsait öz orijinallığı və rən-garəngliyi ilə göz oxşayır.

Uşaqlar üçün **“Ətraf aləmlə tanışlıq”** vəsaiti də məktəbəhazırlıq qruplarında inkişaf sahə-lərinə uyğun standartlar əsasında hazırlanmışdır. Vəsaitdəki tapşırıqlar uşaqların bacarıq və vərdiş-lərinə əsaslanır. Məşğələlər inteqrativ məzmunludur və onların hazırlanmasında müasir tələblər nəzərə alınmışdır.

Vəsaitlər toplusunda 42 məşğələ həm Azərbaycan, həm də rus dillərində lentə alınaraq, diskə köçürülmüş, multimedia resursları şəklində vəsaitlə birlikdə müəllimlərə təqdim olunur.

Vəsaitlər toplusu Azərbaycan Respublikasında fəaliyyət göstərən məktəbəqədər təhsil müəs-sisələrində və məktəblərdə təşkil edilmiş məktəbəhazırlıq qrupları, həmçinin valideynlər üçün nəzərdə tutulmuşdur.




**“Məktəbəhazırlıq üzrə təlimin təşkili metodikası”** (musiqi, fiziki mədəniyyət, bədii təfəkkürün inkişafı üzrə) metodik vəsaiti müəllim üçün nəzərdə tutulmuşdur. Bu vəsaitdə musiqi, fiziki mədəniyyət, bədii təfək-kürün inkişafı üzrə məşğələlərin planları, məşğələlərdə istifadə olunan metod və priyomlar, motivasiyaların qurulması yolları, resurslar təqdim olunur. Bunlar təlim prosesində müəllimin öz işini qurmasına əhəmiyyətli dərəcədə yardım edəcəkdir.

**“Məktəbə hazırlaşırıq”** silsiləsindən olan **“Bədii təfəkkürün inkişa-fı”** vəsaiti uşaqlar üçün nəzərdə tutulub, adından da göründüyü kimi, bədii təfəkkürün inkişafına xidmət edir. Vəsaitdə uşaqların nitqini inkişaf etdi-rən nağıllar, hekayələr, şeir parçaları toplanmışdır.




Yenə həmin silsilədən olan **“Fiziki mədəniyyət”** vəsaiti uşaqların fiziki göstəricilərinin yaxşılaşdırılmasına, sağlamlıqlarının möhkəmləndi-rilməsinə xidmət edən idman hərəkətləri, hərəkətli oyunlarla zəngindir. Hərəkətlərin icra ardıcıllığı, hərəkətlərdən çıxış vəziyyətləri, duruş formaları şəkillər vasitəsilə çatdırılır.

Uşaqlar üçün nəzərdə tutulan **“Musiqi”** vəsaiti onlarda musiqi mədə-niyyətinin, musiqi savadının formalaşdırılmasını nəzərdə tutulur. Vəsaitdə uşaqların yaş və anlama səviyyəsinə uyğun vətən, ana və s. mövzularda mahnılar, onların not yazıları verilir. Mövzulara aid rəsmlər vəsaiti daha rəngarəng və baxımlı edir.

Azərbaycanda ilk dəfə və analoqu olmayan **«www.oxuyuruq.biz»** multimedia təd-ris portalı tədris və sərbəst təhsil resursları mənbəyidir. Vəsaitlər toplusunda verilən məşğələlərə əlavələr həm Azərbaycan, həm də rus dillərində lentə alınaraq, diskə kö-çürülmüş, **«www.oxuyuruq.biz»** multimediatədris porta lında yerləşdirilmişdir.

Vəsaitlər toplusu Azərbaycan Respublikasında fəaliyyət göstərən məktəbəqədər təhsil müəs-sisələrində və məktəblərdə təşkil edilmiş məktəbəhazırlıq qrupları, həmçinin valideynlər üçün nəzərdə tutulmuşdur.

## UŞAQLAR ÜÇÜN BƏDİİ ƏDƏBİYYAT




Gənc yazıçı Mehriban Nağıyeva uşaqlar üçün kitabçaların müəllifidir. Onun əsərlərindən bir neçəsindən söhbət açaq. “Əsmərin sehirli zənbili”, “Ana, mənə nağıl danış”, “Məstanla



toplanın dostluğu” kitabçalarında xeyli maraqlı hekayələr nağıllar verilmişdir.

Bu hekayə və nağıllar uşaqları ətraf aləmlə, təbiətin gözəlliyi ilə, hey-vanlar və quşlar aləmi ilə tanış edir.

Uşaqların dinlədikləri və oxuduqları hekayə cə nağıllar onlarda birlik, mehribanlıq, dostluq, xeyirxahlıq, ağlılıq, faydalı işlərlə məşğul olmaq, bir-birinə kömək göstərmək kimi müsbət keyfiyyətlər tərbiyə etməklə yanaşı, tərslik, lovğalıq, paxıllıq kimi mənfi xüsusiyyətlərə nifrət hissi də oyadır.




Bu kitabçalar uşaqların düşünmə, dərketmə qabiliyyətlərini , təfəkkürünü, inkişaf etdirir, onların lüğət ehtiyatının zənginləşməsinə, nitqinə də qida verir.

**Məhəbbət Əliyeva,**
redaksiyanın əməkdaşı

## *JURNAL AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ QƏRARI İLƏ TÖVSİYƏ OLUNAN NƏŞRLƏR SİYAHISINA DAXİL EDİLMİŞDİR.*

Yerə tökülsə,
Torpaq yaş olar.
Qaynasa buxar,
Donsa daş olar. *(su)*

Onun nə gözü,
Nə də qaşı var.
Çoban gəzdirər,
İki başı var. *(çomaq)*

Əsil adı nədir ki?

Əyrini, düzü,
Bildirir özü.
Bir qolu olur,
İki də gözü. *(tərəzi)*

Qolları axır,
Keçir zamanım.
Divardan baxır
Bir Tıq-tıq xanım. *(saat)*

Dırmaşır ona

Ondan mövüc basılar.
Qoy milax olsun deyə,
Tavandan da asılar. *(üzüm)*

Oğlan da, qız da.
Soyunur qışda,
Geyinir yazda. *(ağac)*

**Kamil Araz**